AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**A.A.BAKIXANOV adına TARİX və ETNOLOGİYA İNSTİTUTU**

**BƏXTİYAR ƏHMƏDOV**

# GÖYÇƏ MAHALI

## KEÇMİŞDƏN BU GÜNƏ ...

**Bakı – 2024**

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Elmi Şurasının 2023-cü il 27 dekabr tarixli 10 saylı qərarı ilə çap olunur*

**Elmi redaktoru** **C.Ə.Bəhramov**
tarix üzrə fəlsəfə doktoru,
dosent

**Rəyçilər** **H.N.Həsənov**
tarix üzrə fəlsəfə doktoru,
professor
**E.Ə.Məhərrəmov**
tarix üzrə fəlsəfə doktoru,
dosent

**Bəxtiyar Şahvələd oğlu Əhmədov. Göyçə mahalı: Keçmişdən bu günə...** – Bakı: Füyuzat, – 2024. – 200 s.

Monoqrafiyada Göyçə mahalının bütün dövrlər üzrə tarixi-siyasi coğrafiyası və inzibati ərazi quruluşu şərh edilir. Burada Göyçə mahalının etno-demoqrafik vəziyyəti, əhalinin etnik və dini tərkibi, say dinamikası təhlil edilir. Həmçinin Sovet imperiyası dövründə inzibati cəhətdən Göyçə mahalını əhatə edən Basarkeçər və Krasnoselsk (Çəmbərək) rayonlarının inzibati ərazi sistemi, etnik-siyasi vəziyyəti, toponimləri və digər məsələlər haqqında monoqrafiyada ətraflı məlumat verilir.

**ISBN:** 978-9952-584-19-6

**© Əhmədov B.Ş., 2024**

# GİRİŞ

Monoqrafiyada Ermənistan adlanan ərazidən son iki əsrdə Azərbaycan türklərinin min illərlə yaşadıqları tarixi-etnik torpaqlarından məqsədyönlü şəkildə deportasiya olunmalarında nəinki öz havadarlarına arxalanan ermənilər, həmçinin müxtəlif adlar altında rəsmi fərman vermiş Sovet İttifaqının o zamankı rəhbər şəxsləri də azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədilməsində bilavasitə iştirak etmişlər. Sovet İttifaqı rəhbərlərinin törətdiyi bu cinayət əməlləri, əlbəttə ki, müxtəlif adlar altında pərdələnmişdir. Bu əməllərin bariz nümunələri o zamankı SSRİ-nin ali rəhbər orqanlarının 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli sərəncamıdır. Bu qərar və sərəncam əsasında 1948-1953-cü illərdə 100 mindən çox azərbaycanlı öz dədə-baba yurdlarından könüllülük adı altında xüsusi plan əsasında kütləvi surətdə və zorakılıqla səfalı yerlərdən Azərbaycan SSR-in Kür-Araz ovalığına faktiki olaraq sürgün edilmişlər. Uzun illər bu qərarların mənfur mahiyyəti xalqdan gizlədilmişdir. Yalnız Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə 1993-cü ildə H.Ə.Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu cinayətkar qərar və sərəncamın əsl, gizli mahiyyəti açıqlanmışdır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"[1] və 26 mart

---

[1] Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 – dekabr, 1997. 13-cü Kitab: – Bakı: Azərnəşr. 2004, s.397-398.

1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərmanları[1] ilə həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş, o zamankı SSRİ rəhbərlərinin cinayətkar siyasətinin əsl məğzi açılıb göstərilmiş və həmin cinayətkar qərarların hüquqi-siyasi mahiyyəti beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Haqqında danışdığımız sonuncu fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi məsələsi qoyulmuşdu.

Monoqrafiiyanın xronoloji çərçivəsi tədqiq olunan dövrə əsasən müəyyənləşdirilmiş, araşdırma zamanı xronoloji ardıcıllıq gözlənil-mişdir. Bu tədqiqat əsəri Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsünün tədqiqi ilə başlayır, çar Rusiyasının Azərbaycanı işğalından sonra Göyçə mahalında ermənilərin məskunlaşdırılması və demoqrafik vəziyyətin dəyişməsi prosesinin araşdırılması ilə davam etdirilir.

Göyçə ətrafı ərazilərin əhalisinin mütləq çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Göründüyü kimi, Rusiya işğalından sonra bölgəyə Qacar və Osmanlı imperiyasından çoxsaylı erməni ailələri köçürülmüş, əyalətin yararlı torpaqlarının xeyli hissəsi onların ixtiyarına verilmiş, azərbaycanlı əhali diskriminasiyaya məruz qalaraq bu ərazilərdən sıxışdırılmış və nəticədə etnik-demoqrafik vəziyyət tədricən ermənilərin xeyrinə dəyişmişdir. Həmçinin Azərbaycan türkləri yaşayan kəndlərdə xaricdən gətirilən ermənilər məskunlaşdırılmış, ermənilərin yerləşdirilmədiyi digər kəndlər isə dağıdılıb, xarabalığa çevrilmişdir. Monoqrafiyada bu barədə ətraflı məlumat verilir.

Monoqrafiyanın materiallarından ali məktəblərdə mühazirə və fakültativ kurslarda, habelə dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

---

[1] Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı sənədlər toplusu. 3 cilddə. II kitab. İrəvan quberniyasında soyqırımı. – Bakı: Çaşıoğlu, – 2011. – 456 s.

# GÖYÇƏ MAHALININ TARİXİ COĞRAFİYASI VƏ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ

Göyçə mahalı Azərbaycanın ən qədim tarixə malik ərazilərindən biri olmaqla tarixən Azərbaycan xalqının təşəkkül tapdığı vahid və nəhəng areala daxildir. Qədim zamanlardan bu ərazilərdə yaşayan avtoxton əhali dil, maddi və mənəvi mədəniyyət, iqtisadi həyat şərtləri, ənənəvi təsərrüfat sahələrinin xüsusiyyətləri baxımından Azərbaycanın digər ərazilərində yaşayan əhali ilə mənşə birliyinə malik olmuş və xalqımızın çoxəsrlik tarixi ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Həmin ərazidə mövcud olan türk mənşəli toponim, etnonim, etnotoponim, antroponim, hidronim, oronim və s. onomastik vahidlər, erkən orta əsrlərə aid oğuz qəbiristanlıqlarının qalıqları, X-XII əsrlərə və daha əvvələ aid alban kilsələri, qoçbaşı heykəllər, çoxəsrlik tarixə malik qalalar və s. bunu sübut edən çoxsaylı faktlara misal olaraq göstərilə bilər.

Tarixən türk tayfalarının yaşadığı Göyçə mahalında hələ e.ə. VIII-VII əsrlərdən başlayaraq Qara dəniz bölgəsində yaşayan türk mənşəli kimmer, iskit, sak tayfalarının axını və məskunlaşması prosesi başlamışdır. Müxtəlif türk tayfalarının buraya köç prosesi XI-XII əsrlərə və sonralaradək davam etmişdir. Müxtəlif dövrlərdə bu bölgəyə türk tayfaları olan kimmer, sak, quqar, şirak, katak, peçeneq, oğuz tayfalarının gəlişi nəticəsində yerli türk əhalisinin demoqrafik və etnik mövqeyi daha da güclənmişdir.

Orta əsrlər dövründə də bu bölgənin Azərbaycan türklərinin tarixi Vətəninin bir hissəsi olması haqqında qaynaqlarda təkzib olunmaz məlumatlar mövcuddur.

Oğuz türklərinin böyük tarixi və ədəbi ensiklopediyası

olan “Kitabi Dədə Qorqud” dastanında Göyçə mahalı haqqında geniş məlumatlar verilmiş, bu bölgə Oğuz türklərinin vətəni kimi təsvir olunmuşdur. Bu bölgədə olan bir çox toponimlər dastanda verilən toponim və şəxs adları ilə eyniyyət təşkil edir. Göyçə mahalında ən qədim yaşayış məskənlərindən olan Babacan kəndinin toponim və antroponim (ad bildirən) üzrə yanaşmalarda tarixinə baxsaq bu ad “Kitabi Dədə Qorqud” dastanında Baybecan adı çəkilən oğuz igidlərindən birinin adı ilə bağlı olduğunu görə bilərik.

Eyni zamanda "Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölü çevrəsini əhatə edən Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izidir.

Ağqoyunluların hökmdarı Uzun Həsənin (1453-1478) hökmü ilə Əbu Bəkr əl-Tehrani əl-İsfahaninin yazdığı “Kitabi-Diyarbəkriyyə” adlanan oğuznamədə göstərilən faktlar oğuz türklərinin, o cümlədən xalqımızın soykökündə duran qaraqoyunlu və ağqoyunluların Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın ən qədim sakinləri olduqlarını sübut edir. Göstərilən müəllif Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin ulu babalarının nəsil şəcərəsini araşdıraraq {1. Adəm peyğəmbər; 2. Şis peyğəmbər; 3. Ənuş; 4. Qinan ibn Ənuş; 5. Məhlail ibn Qinan; 6. Bərd ibn Məhlail; 7. Exnux; 8. Mətuşələx; 9. Ləmek; 10. Nuh peyğəmbər; 11. Yafəs ibn Nuh; 12. Abulca xan; 13. Dib Bakuy; 14. Qara xan; 15. Oğuz; 16. Gün xan; 17. Bayandur xan; 18. Bekəndər xan; 19. İlək xan; 20. İlkan xan; 21. Baysunqur; 22. Bəkduz xan; 23. Cavuldur xan; 24. Eymur xan; 25. Tuğan xan; 26. Buğra xan; 27. İluk xan; 28. Yilduz xan; 29. Yeknədur xan; 30. Bisut xan; 31. İldurkin; 32. Uyğur xan; 33. Bayat xan; 34. Uryavut; 35. Bukduz xan; 36. Salur xan; 37. Baysunqur; 38. Şəktur; 39. Biləkan; 40. İləkan; 41. İlkan xan; 42. Ağ Toğan; 43. Mövdud

Toğan; 44. İdris bəy; 45. Birdi bəy; 46. Sonqur bəy; 47. Ağrıqcı bəy; 48. Ağ Baliğ bəy; 49. Yul Qutluq; 50. Tuğaçar bəy; 51. Tuğançuk; 52. Altan xan; 53. Qıpçaq xan; 54. Şəktur xan; 55. Cadəltu xan; 56. Qeydu xan; 57. Urxan; 58. Qaraca bəy; 59. Qara Çalı bəy; 60. Habil bəy; 61. Babil bəy; 62. Sonqur bəy; 63. İdris bəy; 64. Əzdi bəy ibn İdris; 65. Pəhləvan bəy; 66. Tur Əli bəy; 67. Qutlu bəy; 68. Osman bəy; 69. Əli bəy (Uzun Həsənin atası[1])}, nəhayət, Oğuz xaqana çatdırır. Oğuz xaqanın başçılıq etdiyi böyük türk dövlətinin tərkibinə daxil olan əraziləri sadalayır və bütün oğuz türklərinin kökündə duran bu böyük hökmdarın, yəni Oğuz xaqanın Göyçə dənizi ətrafında vəfat etdiyini göstərir (**Oğuz xan.** Allahdan qorxan, pak bir padşah idi. İran, Turan, Şam, Misir, Qıbçaq çölü, Hindistan, Kəşmir, Xətay, Türküstan və yer üzərindəki digər məmləkətləri öz ölkəsinə çevirdi. Altmış il dünyanı gəzdi. Alınmaz qalaları fəth etdi. Çox ölkələr tutub təmizlədikdən sonra Sayram şəhərinə qayıtdı. Bura onun əsl məskəni idi. Geri qayıdıb çoxlu camaat yığdı. Parıltısı Ayın üzərinə düşən çoxlu çadırlar qurdu. Elə bir cah-cəlal düzəltmişdi ki, buludlar [sevincdən] göz yaşı tökürdü. Bu elə bir təmtəraq idi ki, onun gözəlliyi fələyi kəməndə salmışdı. Onun işığının şöləsi ilə bütün hərəkətli və hərəkətsiz ulduzlar bir-birinə bağlanmışdı. Lalələrin saf havadan yaranan şeh qədəhini əlində tutub çəmən gənclərinə xidmət etdiyi bir çöldə hamının yeməyi üçün bir məclis qurdu.

Bu toyda yüz iyirmi min qoç, doqquz min madyan at, on səkkiz min inək sərf olundu. Orduya və qəbilə başçılarına nəğd qızıl və gümüş paylandı. Məmləkətini oğlanlarına verdi. Göyçə dəniz tərəfdə əcəl «Allahın müəyyən etdiyi vaxt müt-

---

[1] Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən Rəhilə Şükürova. – Bakı: Elm, – 1998, – s. 39-49.

ləq gələcəkdir»[1] ayəsinə uyğun olaraq, atını onun üstünə çəkdi və onu bu fani dunyadan əbədi dünyaya apardı.

Qətrə idi, dəryaya qovuşdu).[2]

Azərbaycanın Oğuz xaqanın başçılıq etdiyi dövlətin tərkibinə daxil olması və böyük xaqanın özünün də burada – Göyçə dənizi ətrafında vəfat etməsi faktı bu diyarın ən qədim oğuz-türk məskənlərindən biri olduğunu sübut edir. "Kitabi-Diyarbəkriyyə"nin müəllifi Oğuzun nəvəsi xanlar xanı Bayandır xaqanın da "Qarabağ qışlağı və Göyçə dənizi yaylaqlarında ömür sürdüyünü", burada "böyük bir qurultay çağırıb, məmləkəti oğlanları arasında qabiliyyətlərinə görə bölüşdürüldükdən sonra Allahın dəvətini qəbul etdiyini" yazır (**Padşah Bayandur xan.** O öz padşahlığı dövründə bütün İran, Turan, Rum, Şam, Misir, Əfrənc, Xətay, Dəşti-Qıbçağı tamamilə fəth etmişdi. Becənaq[3] onun kiçik qardaşı idi və onu Sayramda öz canişini təyin etdi, özü isə Qarabağ qışlağına və Göyçə dəniz yaylağına yollandı. Böyük qurultay çağırdı, çoxlu camaat yığdı və əzəmətli məclis qurdu. Çox böyük qızıl çadır qurdu ki, türkcə buna «ban ev» deyirlər. Yüz iyirmi min erkək qoyun, doqquz min madyan, on səkkiz min inək kəsildi. Üç su hovuzunu (türkcə buna «göl» deyirlər), birini şərbət, birini sud, o birini də saf bal ilə doldurdu və bunlar hamının ixtiyarına verildi. Həddən ziyadə qızıl və gümüş, beş yüz naxışlı kəmər və kəmərlərin üstündə qızıl və gümüş qılınclar bəxşiş etdi. Məmləkətini öz övladları arasında onların qabiliyyətləri-

---

[1] Quran, «Ənkəbut» surəsi, 4-cü ayə.

[2] Oğuz – bütün türk mənşəli hökmdar sülalələrin cəddi hesab olunur. Səlcuqların və Osmanlıların saray salnaməçi və tarixçiləri haqqında yazdığı bu və ya digər sultanın nəsəb şəcərəsini mütləq Oğuza çatdırmalı idi. Hətta məşhur İbrahim Gülşəninin birinci cəddi Oğuz sayılır.

[3] Becənaq (Beçənok, Biçənək) – peçeneqlərin ulu babası hesab olunur.

nə görə böldü. Bir neçə gündən sonra Allahın dəvətini qəbul etdi).[1]

Əbu Bəkr əl-Tehrani əl-İsfahani təsdiq edirdi ki, ağqoyunlu hökmdarı Uzun Həsənin ulu babası Sunqur bəy Məhəmməd peyğəmbərin müasiri idi (**Sonqur** bəy. O, peyğəmbərlərin sonuncusu və başçısı Məhəmməd ibn Abdullah ibn Əbdülmüttəlibin – ona və nəslinə salam olsun! – dövründə hakimiyyətdə olub).[2]

O, tövhid tərəfdarı idi, lakin islama dəvət edilməmişdi. Daim kafirlərlə vuruşmuşdu, çoxlu eli, obaları və qəbilələri var idi. Yetmiş il Türküstanda hökmdar olub. Qıbçaq çölünə gəlib iyirmi il oranın yaylaq və qışlaqlarında olub. Ondan sonra Alagöz yaylağına və Göyçə dənizinə tərəf gəlmiş, bu sərhəddə kafirlərlə müharibə etmişdi. Döyüşlərin birində ona ox dəymiş və o, Allahın dəvətini qəbul etmişdi).[3] O, Alagöz və Göyçə dənizi yaylaqları tərəfdəki sərhədlərdə “kafirlərlə müharibə etmiş” və döyüşlərdən birində həlak olmuşdu.

Tanınmış rus tarixçisi və arxeoloqu A.A.İvanovski A.V.Pastuxov ilə birlikdə Eçmiədzindən Daşburun, Aralıx və Sərdar-Bulaq aşırımına qədər kəşfiyyat xarakterli səfər etmişdilər. Onlar bu səfəri böyük (4 avqust 1893) və Kiçik (7 avqust) Ararat zirvələrinə çıxmaqla tamamlamışdılar. Bu sonuncu dağın zirvəsində ətraf sakinlər arasında “oğuzların” və ya nəhənglərin qəbirləri kimi tanınan abidələrin üzərində ərəb yazıları olan Muhəmməd qəbiristanlığı tipli qəbiristanlıq İvanovskinin diqqətini cəlb etmişdir. Sonralar Strasburqda prof. Entig bu kitabələrdən birinin içərisində “İsmayıl” və “1118-ci il” sözləri, yəni bizim xronologiyamızla 1774-cü il olan hissə-

---

[1] Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən Rəhilə Şükürova. Bakı: Elm, 1998, – s. 46

[2] Yenə orada.

[3] Yenə orada, s. 43.

sini oxumuşdu. Amma qəbirlər qazılmamışdı və bu günə qədər, demək olar ki, 13 000 fut hündürlükdə basdırılmasının hansı məqsədlə olması sirri aydın deyil.[1] Bu fakt da Göyçə mahalının oğuz yurdu olmasını təsdiqləyən yüzlərlə faktlardan biridir.

Göyçə mahalı ərazisi türk mənşəli Sacilərin (889-929), sonra Salari (941-981) və Rəvvadilərin (981-1065), Səlcuq İmperiyasının (1037-1190), Atabəylər (1136-1225), Hulaku (1256-1357) və nəhayət XV əsrdə Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətləri, sonralar isə Səfəvi dövlətinin (1501-1736) tərkibində olub.

Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə Çuxursəəd vilayətinin tərkibində olan Göyçə mahalı, Səfəvi dövləti dövründə 13 bəylərbəyilikdən biri olan Çuxursəəd bəylərbəyiliyinin inzibati-ərazi vahidlərindən biri olmuşdur.

Qaraqoyunluların hakimiyyətinin ilk dövrlərində Çuxursəəd vilayətini Səədlilər sülaləsi idarə edirdi. Lakin Qaraqoyunlu hökmdarı İsgəndərin dövründə Səədli tayfasının nümayəndələri idarəçilikdən uzaqlaşdırılmış və Çuxursəədin idarəçiliyi birbaşa mərkəzi hakimiyyətə tabe edilmişdir.[2]

Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxursəəd bəylərbəyiliyini səfəvi şahlarının təyin etdikləri iki Azərbaycan türk tayfasının – ustaclı və rumlu tayfalarının nümayəndələri idarə edirdi.[3]

Çuxursəəd bəylərbəyiliyinin Həsən bəy Rumlunun "Əhsən-üt təvarix" əsərində 1538-ci ildə xatırlanan ilk bəylərbəyi

---

[1] Памятная книжка Эриванской губернии на 1914 год. Издание Эриванского губернского статистического Комитета. Эриван, Типография Губернского Правления, 1914, IV отделение, с. 4-5.

[2] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2010, s. 38-39.

[3] Yenə orada, s. 40.

Bədir xan Ustaclı olmuşdur. 1554-cü ildə osmanlı sultan Süleyman Qanuni İrəvana hücum edərkən Hüseyn xan Rumlu Çuxursəəd bəylərbəyi idi.[1]

Uzunmüddətli Səfəvi-Osmanlı müharibələri dövründə strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bu bölgə ciddi dağıntılara məruz qalmışdı. Nəhayət, 1590-cı il İstanbul sülh müqaviləsinə görə, Çuxursəəd bəylərbəyiliyinin ərazisi Osmanlı imperiyasının tabeliyinə keçdi.[2]

Osmanlı sultanları iki dəfə – 1590-1593-cü və 1727-1728-ci illərdə «təhrir dəftəri» tərtib etmişlər. 1590-cı və 1727-ci illərdə müfəssəl dəftərlər, 1593-cü və 1728-ci illərdə isə icmal dəftərləri tərtib etmişdilər.[3]

Tanınmış tədqiqatçı alim, kimya üzrə fəlsəfə doktoru Nazir Əhmədli çox böyük zəhmət sayəsində Göyçə mahalının 1831 və 1842-ci illərdə çar Rusiyası tərəfindən aparılmış kameral təsvirlərin materiallarını toplayıb, tərcümə edərək "Göyçə mahalının kameral təsviri" adlı kitabda oxuculara təqdim etmişdir.

Səfəvilər dövründə Çuxursəd bəylərbəyliyinə daxil olan Göyçə mahalı Osmanlı imperatorluğu tərəfindən bir neçə dəfə qısamüddətli işğala məruz qalsa da, onlar Göyçə mahalının da daxil olduğu Çuxursəd bəylərbəyliyini iki dəfə – 1583-cü illərdə istila edə bilmişdilər. Birinci istiladan oranı 1604-cü ildə I Şah Abbas, ikinci dəfə isə 1735-ci ildə Təhmasibqulu xan titulunu daşıyan Nadir xan işğaldan azad etmişdir. Hər iki hal-

---

[1] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград: Издательство ЛГУ, 1949, с. 121-122.

[2] Ağalarov M.Z. XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində. Avtoreferat. Bakı: 2013, s. 18.

[3] Əhmədli Nazir. Göyçə mahalının kameral təsviri. Bakı: Elm və Təhsil, 2017, s. 7.

da Göyçə mahalı böyük dağıntılara məruz qalmış, növbəti dəfə ayağa qalxması üçün xeyli vaxt və səy sərf olunmuşdur.[1]

1590-cı ildə Osmanlılar tərəfindən tərtib olunmuş "Müfəssəl dəftər"ə görə Çuxursəəd bəylərbəyiliyinin ərazisi iki livaya – İrəvan və Naxçıvan livalarına bölünmüşdür.

«İrəvan əyalətinin müfəssəl dəftəri»nə görə İrəvan əyaləti aşağıdakı nahiyələrdən ibarət idi: 1. İrəvan, 2. Karbi, 3. Naxçıvan, 4. Məvaziyi-Xatun, 5. Mülki-Arslan, 6. Qarabağ, 7. Dərəşam, 8. Dərəşahbuz, 9. Bazarçayı, 10. Şərur, 11. Ağcaqala, 12. Karni, 13. Vedi, 14. Abaran, 15. Şərəbxana, 16. Talin, 17. Ərmus, 18. Abnak, 19. Aralıq, 20. Azadcıran, 21. Şorlut, 22. Dərənürgüt, 23. Zar, 24. Zebil, 25. Əlincə, 26. Sisyan. Bu nahiyələrdən ikisi – Zar və Zebil nahiyələri Göyçə mahalının ərazisini əhatə edirdi. Həmin nahiyələrdəki kəndlər isə bunlar idi.[2]

**Zar nahiyəsi:** 1. Leyv, 2. Zod, 3.Qılıçlı Məzrəsi, 4. Qarasaqqal, 5. Pirus, 6. Yellidərə, 7. Qızılca, 8. Nəhadək, 9. Daşkənd, 10. Damğa, 11. Qarabulaq, 12. Zar, 13. Çərikni (?), 14. Dəstək, 15. Kəlavəçər, 16. Ağkilsə, 17. Ayrıman (?), 18. Günlü, 19. Barrnışa (başqa adı Qaragözdür), 20. Çiçəkli, 21. Bintə (?), 22. Salaməleyk, 23. Canan (başqa adı Cahanşahdır), 24. Xüregid, 25. Yenicəyi – Polad, 26. Ağcakənd kəndləri.

**Zebil nahiyəsi**: 1. Çərəkdar, 2. Uşaqcıqlar, 3. Həmzə, 4. Toz, 5. Saray (başqa adı Əminkənddir), 6. Altunküsnü (başqa adı Məlikkənddir), 7. Baş Zebil, 8. Yenicə, 9. Xordegir, 10. Nahiyəyi-Məşhəd, 11. Çivan-gərəkməz (başqa adı Qaşqayoldur), 12. Əstük, 13. Göyçə (başqa adı Suaçırdır), 14. Ərkli, 15. Şişlik, 16. Qalagöy, 17. Dəvəçuxur, 18. Palıdlıq, 19. Armudluq, 20. Vənktağ, 21. Başqa Çərikni, 22. Martnos, 23. Muz (?), 24.Mərcimək kəndləri, 25.Durna qoru-

---

[1] Əhmədli Nazir. Göyçə mahalının kameral təsviri, s.4.
[2] Yenə orada, s.17.

ğu, 26.Muncuqlu, 27.Orduçay, 28.Yürəkir, 29.Əyridərə, 30.Qaraxaç, 31.Gəlinqaya, 32.Sərçəli adambasar, 33.Qorxmaz gədiyi, 34.Keçi beli, 35.Dikdaş, 36.Ağyataq, 37.Qundaq, 38.Səfərçi, 39.Qaragöl, 40.Qanlıca, 41.Həmzəçəmən, 42.Dovşanlı yaylaqları.[1]

Zar nahiyəsindəki Zod, Qarasaqqal, Yellidərə, Qızılca, Daşkənd, Zar, Ağkilsə, Zebil nahiyəsindən isə Baş Zebil, Göyçə, Şişlik kəndlərinin adlarına Göyçə mahalının sonrakı dövrlərində də rast gəlirik. Bəzi kəndlərin adı olduğu kimi, bəziləri isə müəyyən dəyişikliklərə uğrayaraq öz varlığını davam etdirmişdir. Məsələn, Zar nahiyəsindəki Yellidərə fikrimizcə Yellicə, Zar və Zebil kəndləri Zarzebil, Şişlik kəndi isə Şişqaya adını almışdır.[2]

XVII əsrdə baş verən Səfəvi-Osmanlı müharibələri nəticəsində, 1635-1639-cu illərdə Çuxursəəd bəylərbəyiliyinin ərazisinin təqribən yarısı Osmanlı imperiyasının tabeliyinə keçdi. XIV-XVI əsrlərdə ona məxsus ərazilərin yalnız İrəvan və Şərqi Şörəyil bəylərbəyiliyin tabeliyində qaldı.[3]

XVII əsrin 30-cu illərindən XVIII əsrin 20-ci illərinə qədər olan dövrdə Çuxursəəd bəylərbəyiliyi İrəvan, Şərqi Şörəyel, Naxçıvan və Maku əyalətlərini əhatə edirdi.[4]

XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin siyasi böhran dövründən istifadə edən Rusiya və Osmanlı imperiyası Cənubi Qafqaza – Səfəvi dövlətinin şimal bölgələrinə hərbi

---

[1] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı), s. 143-144.

[2] Əhmədli Nazir. Göyçə mahalının kameral təsviri. Bakı, Elm və Təhsil, 2017, s.18.

[3] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, s. 8-9.

[4] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s. 42.

müdaxiləyə başladılar. 1724-cü ildə bağlanan Rusiya-Osmanlı birgə müqaviləsinə görə, Səfəvi dövlətinin şimal bölgələri tərəflər arasında nüfuz dairələrinə bölüşdürüldü. Bu müqavilədən sonra Azərbaycanın digər əraziləri ilə yanaşı, Çuxursəəd bəylərbəyiliyinin əraziləri də müharibə meydanına çevrildi.

1724-cü ilin yazında 60 minlik Osmanlı qoşunu Əhməd paşanın komandanlığı altında İrəvana doğru hərəkətə keçdi. Çuxursəəd əhalisi bəylərbəyi Əliqulu xanın rəhbərliyi ilə ciddi müqavimət göstərsə də, çoxsaylı osmanlı qoşunlarının təzyiqi, əlavə hərbi kömək və müntəzəm top atəşi nəticəsində 92 günlük qəhrəmancasına müdafiədən sonra İrəvan qalası böyük çətinliklə osmanlılar tərəfindən ələ keçirildi. İrəvan qalasının mühasirəsi zamanı fitnəkar erməni katolikosu həmədanlı I Astvasaturunun irəvanlılara xəyanət edərək osmanlılara yardım etdiyi üçün, osmanlı paşası ona hədiyyələr vermiş və böyük ehtiram göstərmişdir.[1]

İşğaldan sonra osmanlılar tərəfindən 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə ərazidəki təsərrüfat subyektləri siyahıya alınaraq, subyektlərin nə qədər vergi ödədiyi göstərilirdi. İcmal dəftərində Göyçə mahalının ərazisi iki nahiyəyə – Göyçə və Məzrə nahiyələrinə bölündüyü qeyd olunur.

**GÖYÇƏ nahiyəsi**[2]

| № | Kəndlərin adı | Gəlirləri | Miqdarı | Ağça ilə |
|---|---|---|---|---|
| 1. | Horaduz kəndi | Gəlir | 12.312 | ağça |
| 2. | Camalgöl kəndi | Gəlir | 4.190 | ağça |
| 3. | Qaradəli kəndi | Gəlir | 2.190 | ağça |
| 4. | Böyük Ördək kəndi | Gəlir | 5.067 | ağça |

[1] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, s.46.

[2] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı), s. 40-42.

| № | Kəndlərin adı | Gəlirləri | Miqdarı | Ağça ilə |
|---|---|---|---|---|
| 5. | Kiçik Ördək kəndi | Gəlir | 1.910 | ağça |
| 6. | Göyçə gölün sahilində yerləşən Şahaqçı kəndi | Gəlir | 4.910 | ağça |
| 7. | Göyçə gölün sahilində yerləşən Vardenis kəndi | Gəlir | 1.220 | ağça |
| 8. | Göyçə dağında olan Kəməndbulaq kəndi | Gəlir | 1.750 | ağça |
| 9. | Göyçə dağında olan Buğdayitəpə kəndi | Gəlir | 2.110 | ağça |
| 10. | Delican kəndi | Gəlir | 9.902 | ağça |
| 11. | Gör kəndi | Gəlir | 10.583 | ağça |
| 12. | Qalacıq kəndi | Gəlir | 3.920 | ağça |
| 13. | Qaraörən kəndi | Gəlir | 8.445 | ağça |
| 14. | Ağkilsə kəndi | Gəlir | 7.325 | ağça |
| 15. | Qızılörən kəndi. Kəndin başqa adı Öyüdoyratdır | Gəlir | 6.385 | ağça |
| 16. | Göyçə gölün sahilində yerləşən Xaç kəndi | Gəlir | 2.210 | ağça |
| 17. | Kənizək kəndi | Gəlir | 10.307 | ağça |
| 18. | Zar kəndi | Gəlir | 3.220 | ağça |
| 19. | Əlkovas kəndi | Gəlir | 1.999 | ağça |
| 20. | Kolanı kəndi | Gəlir | 9.505 | ağça |
| 21. | Bədkal (?) kəndi | Gəlir | 7.864 | ağça |
| 22. | Dəliqardaş kəndi | Gəlir | 10.807 | ağça |
| 23. | Azadkaha kəndi | Gəlir | 8.771 | ağça |
| 24. | Keşişkənd | Gəlir | 10.874 | ağça |
| 25. | Buzxana kəndi | Gəlir | 5.407 | ağça |
| 26. | Əmirkənd | Gəlir | 5.575 | ağça |
| 27. | Qarakilsə kəndi | Gəlir | 3.100 | ağça |
| 28. | Bədəli kəndi | Gəlir | 1.200 | ağça |
| 29. | Altuntaxt (?) kəndi | Gəlir | 4.210 | ağça |
| 30. | Altuntaxt (?) kəndi tərəfdə yerləşən Ağbulaq kəndi | Gəlir | 4.500 | ağça |
| 31. | Görüçüörən kəndi | Gəlir | 5.210 | ağça |

| № | Kəndlərin adı | Gəlirləri | Miqdarı | Ağça ilə |
|---|---|---|---|---|
| 32. | Görüçüörən kəndi tərəfdə yerləşən Qızıldaş kəndi | Gəlir | 3.590 | ağça |
| 33. | Əmiryar kəndi | Gəlir | 4.920 | ağça |
| 34. | Digər Ağkilsə kəndi | Gəlir | 2.890 | ağça |
| 35. | Gölkənd | Gəlir | 3.823 | ağça |
| 36. | Göyçə gölün müqatiəsi | Gəlir | 300.000 | ağça |
| 37. | Böyük Dayə kəndi | Gəlir | 8.239 | ağça |
| 38. | Kiçik Dayə kəndi | Gəlir | 6.214 | ağça |
| 39. | Dilənçi kəndi tərəfdə yerləşən Canqurtaran kəndi | Gəlir | 2.892 | ağça |
| 40. | Bədəlli kəndi | Gəlir | 6.549 | ağça |
| 41. | Dəlikdaş kəndi | Gəlir | 5.832 | ağça |
| 42. | İynədir kəndi | Gəlir | 2.890 | ağça |
| 43. | Dilənçi kəndi | Gəlir | 6.890 | ağça |
| 44. | Qalacıq kəndi tərəfdə olan Sercan manastırı | Gəlir | 833 | ağça |
| 45. | Göyçə nahiyəsi üzrə rahdarlıq bacı | Gəlir | 40.000 | ağça |
| 46. | Göyçə gölündə olan Sınukərə (?) vəngi | Gəlir | 230 | ağça |
| | **Yekun:** | | **578.770** | **ağça** |

## Göyçə nahiyəsinə aid olan kəndlər:

1. Horaduz kəndi, 2. Camalgöl kəndi, 3. Qaradəli kəndi, 4. Böyük Ördək kəndi, 5. Kiçik Ördək kəndi, 6. Şahaqçı kəndi, 7. Vardenis kəndi, 8. Kəməndbulaq kəndi, 9. Buğdayitəpə kəndi, 10. Dilican kəndi, 11. Gör kəndi, 12. Qalacıq kəndi, 13. Qaraörən kəndi, 14. Ağkilsə kəndi, 15. Qızılörən kəndi (Öyüdoyrat), 16. Xaç kəndi, 17. Kənizək kəndi, 18. Zar kəndi, 19. Əlkovas kəndi, 20. Kolanı kəndi, 21. Bədkal (?) kəndi, 22. Dəliqardaş kəndi, 23. Azadkaha kəndi, 24. Keşişkənd, 25. Buzxana kəndi, 26. Əmirkənd, 27. Qarakilsə kəndi, 28. Bədəli

kəndi, 29. Altuntaxt (?) kəndi, 30. Ağbulaq kəndi, 31. Görüçüörən kəndi, 32. Qızıldaş kəndi, 33. Əmiryar kəndi, 34. Digər Ağkilsə kəndi, 35. Gölkənd, 36. Böyük Dayə kəndi, 37. Kiçik Dayə kəndi, 38. Canqurtaran kəndi, 39. Bədəlli kəndi, 40. Dəlikdaş kəndi, 41. İynədir kəndi, 42. Dilənçi kəndi.

## MƏZRƏ nahiyəsi[1]

| № | Kəndlərin adı | Miqdarı | Gəlirləri ağça ilə |
|---|---|---|---|
| 1. | Böyük Yenicə kəndi | 4.582 | ağça |
| 2. | Virs kəndi. Kəndin başqa adı Dərbənddir | 10.384 | ağça |
| 3. | Qazanlıqdərə kəndi | 8.491 | ağça |
| 4. | Canqur kəndi və Əskicanqur məzrəəsi | 5.520 | ağça |
| 5. | Adıyaman kəndi | 7.332 | ağça |
| 6. | Uzunxaç kəndi | 6.345 | ağça |
| 7. | Kiçik Yenicə kəndi | 7.943 | ağça |
| 8. | Salaməleyk kəndi | 7.736 | ağça |
| 9. | Göyrənis kəndi | 2.980 | ağça |
| 10. | Siyaqud kəndi | 5.787 | ağça |
| 11. | Vanevan kəndi | 2.390 | ağça |
| 12. | Qızıltəpə kəndi | 4.079 | ağça |
| 13. | Qaraköynək kəndi | 1.959 | ağça |
| 14. | Karçan kəndi | 225 | ağça |
| 15. | Qızılca kəndi | 2.320 | ağça |
| 16. | Ağcakelkid kəndi | 2.400 | ağça |
| 17. | Vəlikənd | 1.888 | ağça |
| 18. | Qazançı kəndi | 1.989 | ağça |
| 19. | Döyürək kəndi | 4.996 | ağça |
| 20. | Nahdam kəndi | 2.000 | ağça |

[1] İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı), s. 45-47.

| **№** | **Kəndlərin adı** | **Miqdarı** | **Gəlirləri ağça ilə** |
|---|---|---|---|
| 21. | Yalaqlı kəndi | 3.813 | ağça |
| 22. | İrəkənd | 1.250 | ağça |
| 23. | İlanlı kəndi | 2.590 | ağça |
| 24. | Keşişkənd | 1.965 | ağça |
| 25. | Kediqarabulaq kəndi | 2.421 | ağça |
| 26. | Qızılkilsə kəndi | 2.190 | ağça |
| 27. | Söyüdlü kəndi | 5.230 | ağça |
| 28. | Qırxbulaq kəndi | 7.788 | ağça |
| 29. | Basarkeçər kəndi | 6.704 | ağça |
| 30. | Ərküş kəndi tərəfdə olan digər Keşişkənd | 2.110 | ağça |
| 31. | Məraq kəndi tərəfdə olan Solaq kəndi | 2.800 | ağça |
| 32. | Ağcaqala kəndi tərəfdə olan Quşçu kəndi | 3.000 | ağça |
| 33. | Həsənkənd tərəfdə olan Dəli Ağacan kəndi | 2.980 | ağça |
| 34. | Xatunkənd | 6.151 | ağça |
| 35. | Ağcaqala kəndi | 4.772 | ağça |
| 36. | Məraq kəndi | 4.127 | ağça |
| 37. | Məzrəə kəndi | 8.795 | ağça |
| 38. | Qaraçubuq kəndi | 5.474 | ağça |
| 39. | Zod kəndi | 7.214 | ağça |
| 40. | Göldək kəndi | 4.971 | ağça |
| 41. | Çətən kəndi | 5.431 | ağça |
| 42. | Ərdanuc kəndi | 4.399 | ağça |
| 43. | Göyçə və Məzrəə nahiyələrinin rahdarlıq bacı | 20.000 | ağça |
| 44. | Əyricə kəndi tərəfdə olan Şahnəzər kəndi | 2.191 | ağça |
| 45. | Əyricə kəndi | 4.858 | ağça |
| 46. | Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri | 5.200 | ağça |
| | **Yekun:** | **219.792** | ağça |

**Məzrə nahiyəsinə aid olan kəndlər:**

1. Böyük Yengicə kəndi, 2. Virs kəndi (Dərbənd), 3. Qazanlıqdərə kəndi, 4. Canqur kəndi (Əskicanqur məzrəəsi), 5. Adıyaman kəndi, 6. Uzunxaç kəndi, 7. Kiçik Yenicə kəndi, 8. Salaməleyk kəndi, 9. Göyrənis kəndi, 10. Siyaqud kəndi, 11. Vanevan kəndi, 12. Qızıltəpə kəndi, 13. Qaraköynək kəndi, 14. Karçan kəndi, 15. Qızılca kəndi, 16. Ağcakelkid kəndi, 17. Vəlikənd, 18. Qazançı kəndi, 19. Döyürək kəndi, 20. Nahdam kəndi, 21. Yalaqlı kəndi, 22. İrəkənd, 23. İlanlı kəndi, 24. Keşişkənd, 25. Kediqarabulaq kəndi, 26. Qızılkilsə kəndi, 27. Söyüdlü kəndi, 28. Qırxbulaq kəndi, 29. Basarkeçər kəndi, 30. Digər Keşişkənd, 31. Solaq kəndi, 32. Quşçu kəndi, 33. Dəli Ağacan kəndi, 34. Xatunkənd, 35. Ağcaqala kəndi, 36. Məraq kəndi, 37. Məzrə kəndi, 38. Qaraçubuq kəndi, 39. Zod kəndi, 40. Göldək kəndi, 41. Çətən kəndi, 42. Ərdanuc kəndi, 43. Şahnəzər kəndi, 44. Əyricə kəndi.

Lakin tezliklə böyük Azərbaycan sərkərdəsi Nadir rus və osmanlı qoşunları Azərbaycandan qovmuş və Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra bu bölgə Əfşarlar imperiyasının hüdudları daxilində Azərbaycan vilayətinin tərkibində olmuşdur.

Nadir şahın ölümündən sonra (1747-ci il) Göyçə mahalı çevrəsində İrəvan xanlığı yaranmışdır. İrəvan xanlığı faktiki olaraq Çuxursəəd bəylərbəyiliyi əsasında təşəkkül tapmışdı. Nadir şah qətlə yetirildikdə İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də, İrəvanda əfşarlar ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mirmehdi xan özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoymuşdu (1747-1827).

İRƏVAN XANLIĞI (XVIII əsrin ikinci yarısı)




Lakin İrəvan xanlığı keçmiş bəylərbəyiliyin bütün ərazisini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi. İrəvan xanlığı Azərbaycanın qərbində Göyçə gölü ətrafında yerləşmiş və 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi.

Tarixşünaslıqda Göyçə adının etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Əksər alimlərin fikrincə, bu ad hidronimdir və Göyçə gölünün adından götürülmüşdür. "Göy-çay" sözünün tədricən dəyişilərək Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. Gölün suyunun rəngi göy (təmiz, duru) olduğu üçün Göyçay adlandırılmışdır. Müxtəlif illərdə nəşr olunan «Kitabi-Dədə-Qorqud» dastanlarında Göyçə gölünün adı Göyçə dəniz, Gökcə dəniz, Gökçe dəniz formalarında qeyd edilmişdir.[1]

Orta əsr Azərbaycan tarixçisi İsgəndər bəy Münşi Türkmanın "Tarixe-aləmaraye-Abbasi" əsərində də Göyçə gölü haqqında olduqca maraqlı məlumatlar vardır. Bu əsərdə gölün adı Gökcə (Göyçə) dənizi və ya Gökcə Təngiz kimi verilmişdir.[2]

İsgəndər bəy Münşi öz əsərində Göyçə dənizinin təbiəti haqqında yazırdı: "... Təbiətin paklıq və xürrəmilik vaxtı olan bahar günlərində əlahəzrət zillәllah şah (I Şah Abbas – B.Ə.) havasının lətafəti, suyunun bolluğu, gül-çiçəyinin çoxluğu, çay və bulaqlarının göz oxşaması ilə göz oxşayan və cənnət gülzarına bənzəyən Göyçə dəniz yaylağında işrətlə məşğul olub ov edirdi".[3]

Səfəvi dövrünün Anonim müəllifi "Tarix-i aləmara-yi Səfəvi" əsərində də bu gölün adını "Göyçə dəryası" adlandıraraq yazırdı: "İsmayıl (Səfəvi – B.Ə.) Ərdəbildən "Göyçə dəryası" kənarına getmək, oradan isə Şərqi Anadoluya keçmək fikrində idi".[4]

---

[1] Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponim-ləri. Bakı: Elm, 2002, s. 433.

[2] İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, II cild. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, s. 1201-1205, 1299, 1654.

[3] Yenə orada, s. 1204.

[4] Musalı N. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın hakimiyyəti dövründə. Bakı: 2008, s. 124.

Erməni və rus mənbələrində bu göl Göyçay (Sinaya voda), Sevank, Qeqam, Qeqarkuni formasında qeyd edilir.[1] Rus işğalından sonra məkrli siyasətini davam etdirən ermənilər Göyçə gölünün adını dəyişdirib Sevank (Qarakilsə) qoymuşlar. Bu ərazidə qədim albanlar tərəfindən qara daşdan tikilmiş kilsə mövcuddur və Göyçə adının Sevank adlandırılması da bununla əlaqədardır. Bu yolla ermənilər ərazinin tarixi adını saxtalaşdırmaq məqsədi güdmüşlər. Əslində Göyçə gölünün Sevan adlandırılması 1930-cu ilə aiddir.[2] Göyçə adının əmələ gəlməsini «gözəl», «göyçək» termini ilə əlaqələndirən bir xalq deyimi də var. Guya Əmir Teymur bu ərazilərə yürüş etdiyi vaxt Məlik Mənüçöhrdən sərvətinin nə qədər olduğunu soruşub. Cavabında Mənüçöhr «Sayənizdə o qədər sərvətim var ki, bütün Məzrin düzünü kətan yağı ilə suvararam» deyə cavab verdikdə, Əmir Teymur heyrətlə «Çox göyçək» (Çox gözəl) – deyə qışqırıb. Elə o vaxtdan da bu göl Göyçə adlanıb.[3]

Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutunun nəşrində Göyçə gölünün izahı ilə bağlı maraqlı məlumat verilir: “Bu gün Sevan gölü kimi 1930-cu ildən rəsmi ad daşıyan Göyçə dağ gölüdür. Onu Göyəm, Şahdağ, Pəmbək, Basarkeçər dağları əhatə edir (qeyd: ermənilər tərəfindən bu dağlar Geğam, Sevan dağları, Bambak, Vardenis adları ilə əvəzlənib). Ermənistanda tarixi Göyçə vilayəti adını və Dədəm Qor-

---

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской Академии Наук, 1852, с. 395-396.

[2] Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, s. 37.

[3] Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том XIII. №1. Тифлис: Типография Козловского К.Р., 1900, с. 81-82.

qud dastanlarında "Gökçə dəniz" kimi adı çəkilən Göyçə gölü adları dəyişdirildi. Bu ada Türkiyənin Adana bölgəsində Həmid Göyçəli kəndi (yazıçı Yaşar Kamal burada doğulmuşdur), Kökçeler (Trakyada kənd), Şərqi Anadoluda Kökçeli (Qars vilayəti), Kökçeli (Maraşda), Aşqabad vilayətində (Türkmənistan) Göyçə kəndi, yurdumuzda Göyçəli şəklində Qazax rayonunun kənd adlarında yaşamaqdadır. Adın tarixi taleyi çox qədimdir; Kara Göyçe indi Orconikidze (Türkmənistanda), Kökçe (Tatarıstanda), Molla Göyçə (Ermənistanda), Kökçe (Qaraqalpaqda tarixi məzarlıq – Kökçe dağının 6-7 km-liyində) eramızdan əvvəl XII-XI əsrlərə aid Tunc dövrü ilə səsləşən bir addır. Çox şübhəsiz Göyçə adı yerin çayır-çəmən örtüyünə görə, bir sözlə, xoş mənzərəsinə görə verilən adlardandır. Bu ada Əfqanıstanın möhkəm qat təşkil edən türk yer adları sırasında – Kökçe çay (Toxar vil.), Kökçe kənd (Herat vilayəti) adına rast gəlinir”.[1]

Topoqrafik cəhətdən Göyçə mahalı əsasən dağlıq ərazidir. Pəmbək, Əlibəy, Ağmanqan, Güneydağ, Alagöllərin başı dağ silsilələrindən ayrılan çıxıntılar Göyçə hövzəsinin demək olar ki, əsas hissəsini təşkil edir. Bölgənin ən mühüm dağ zirvələrini Pəmbək dağında Maymak (10 170 fut[*]), Kömürlü (9 480 fut), Pirdağ (7 913 fut) zirvələri, Güneydağ silsiləsində Maralca (8 550 fut), Soyuqbulaq (8806 fut), Kirkitdağ (9020 fut) zirvələri, Məzrə dağlarında Keytidağ (11 284) zirvəsi, Ağmanqan dağlarında isə Ağmanqan (10 173 fut) və Üçtəpə-

---

[1] Təkləli M. Türk kitabı: unudulan tarix – dəyişdirilən adlar. Bakı: Nurlar, 2009, s. 73.

[*] Fut – təxminən 30-33 sm-ə bərabər uzunluq vahidi.

lər (10 717 fut) zirvələri təşkil edir.[1]

Dağ zirvələri ətraf ərazilərdən əhəmiyyətli dərəcədə yüksəklikdə yerləşmirdi. Bununla belə Göyçə hövzəsinin dəniz səviyyəsindən kifayət qədər yüksəkdə yerləşməsi ilə əlaqədar qışda bu ərazilər büsbütün qarla örtülü olurdu. Bəzi dağların şimal yamaclarında isə nəinki qışda, hətta bütün ilboyu qalın qar örtüyü müşahidə edilirdi. Tez-tez baş verən qar və çovğun yollar və keçidləri o dərəcədə keçilməz edirdi ki, dağətəyi ərazilərdə yerləşən kəndlər arasında əlaqə günlərlə kəsilirdi. Göyçə hövzəsinin yüksək dağlıq ərazilərində müşahidə olunan bu iqlim əhalinin məişət və məşğuliyyətinə də öz təsirini göstərirdi. Belə ki, yüksək dağlıq ərazilərində müşahidə olunan soyuq hava bu ərazilərdə taxılın, dənli bitkilərin becərilməsini mümkünsüz edirdi. Lakin, dağların şimal yamacları örtən daimi qar və tez-tez baş verən yağışlar burada bol rütubətin toplanmasına və maldarlıq üçün çox əlverişli çəmənliklərin, otlaqların yaranmasına səbəb olurdu. Odur ki, yay vaxtlarında təkcə Göyçə və Dərəçiçək mahallarından, sonralar Yeni Bəyazid qəzasından deyil, ətraf mahal və qəzalardan da çoxlu əhali öz mal-qara sürülərini otarmaq üçün bu ərazilərə köç edirdilər.

Dağ silsilələrindən ayrılan çıxıntılar Göyçə hövzəsinin aşağı hüdudlarında iki düzənlik – Məzrə və Zəngi düzənliklərini yaradır. Məzrə düzənliyi Göyçə hövzəsinin Yelizavetpol qəzası ilə həmsərhəd olan şərq hissəsində yerləşməklə cənub şərqdən Göyçə gölünə doğru uzanır, onun eni 15, uzunluğu

---

[1] Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Новобаязетского уезда Эриванской губернии // Материалы для изучения эко-номического быта государственных крестьян Закавказского края. Т., I, ч. 2. Тифлис: тип. Я.И.Либермана, 1887, с. 2.

isə 20 verst[**] təşkil edirdi. Bu düzənlik Gilli çayı ilə birləşən qərb hissədə tədricən bataqlığa keçirdi. Göyçə hövzəsinin qərbində yerləşən Zəngi düzənliyinin ümumi uzunluğu 30 verst təşkil edirdi. Hər iki düzənlik qəzanın ən alçaq hissəsini təşkil edirdi. Məzrə düzənliyi dəniz səviyyəsindən 6400 fut, Zəngi düzənliyi isə 6270 fut hündürlükdə yerləşirdi. Düzənliyin iqlimi qəzanın digər əraziləri ilə müqayisədə daha mülayim olub yayda orta hesabla +12 dərəcə, qışda isə – 7 dərəcə təşkil edirdi.[1]



Bölgədə havalar mülayəmləşdikcə yüksək ərazilərdəki

[**] Verst – 1 063 metrə bərabər uzunluq vahidi.

[1] Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Новобаязетского уезда Эриванской губернии, 1887, s. 3.

qar sürətlə əriyərək burada daşqın və bataqlıqlar yaradırdı. May və iyun aylarında təbiət sürətlə canlanır, ətraf yaşıllığa qərq olurdu. Hər yer yazlıq buğda, arpa, darı, pərinc, çətənə əkinləri, həmçinin otlaq və çəmənliklərlə örtülürdü.[1] Dərəçiçək mahalının ərazisi bir-birindən gözəl, füsunkar gül və çiçəklər, eləcə də enliyarpaq ağaclardan ibarət sıx meşələrlə örtülürdü. Şopen Göyçə mahalını, xüsusilə bu mahala daxil olan Zod vadisini göz oxşayan gözəlliyinə görə "Cənubi Qafqazın İsveçrəsi" adlandırırdı.[2]

Göyçə mahalında öz mənbəyini yuxarıda adları çəkilən dağlardan götürən 36-dan çox çay axırdı. İ.Şopenə görə burada o qədər çay var ki, onların hamısı haqqında təfərrüata varmaq mənasızdır.[3]

Bu çaylardan ən mühümləri olan Havarçay Nərədüz kəndi yaxınlığında, Altuntaxtçay və Ağdağçay Heyranis kəndi yaxınlığında, Qızılvəng çay Vəliağalı kəndi yaxınlığında, Qurudərə çayı Təzəkənd yaxınlığında, Siçanlı çayı Erkəcgöl kəndi yaxınlığında, mənbəyini Ağrıdağı, Vedibasar və Alagöz yaylaqlarından götürən və ərazinin ən əhəmiyyətli çaylarından hesab olunan Adıyaman çayı eyni adlı kəndin ərazisindən, Qaranlıqçay Aşağı Qaranlıq kəndi yaxınlığında, Tuxtluçay Ağqara kəndi yaxınlığında, Gözəldərəçay Aşağı Gözəldərə kəndi ərazisində, Alçalı çay Qızılkilsə kəndi yaxınlığında, çoxsaylı daha kiçik göllərdən yaranan Zod çayı Kiçik Məzrə kəndi yaxınlığında Göyçə gölünə tökülür. Bundan başqa Kə-

---

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 349.

[2] Yenə orada.

[3] Yenə orada, s. 377.

səmən və ya Göyçə çayı, Şişqayaçay, Cil, Ardanis, Ağbulaq, Toxluca, Balıqlı çayları və s. bu kimi ümumilikdə 28-dən çox çay Göyçə gölünə axır.[1]

Göyçə gölü Göyçə mahalının şərqində, dəniz səviyyəsindən təxminən 6340 fut (1925 m) hündürlükdə yerləşirdi. Göyçə gölü bütün Cənubi Qafqaz miqyasında ən əhəmiyyətli təbii göllərdən biridir. Gölün ümumi sahəsi 1413 kv km olmaqla şimal-qərbdən cənub-şərqə doğru 70 verst (72 km), eni isə şimal-şərqdən cənub-qərbə doğru 30 (37 km) verst təşkil edirdi. Gölün dərinliyi təqribən 95 metrdir. Şimal-şərqdə o daha dərin olsa da cənub-qərbə doğru xeyli dayazlaşır və qurşaqdan yuxarı qalxmır. 36 çayın suyunun qovuşduğu Göyçə gölündə buxarlanma o qədər güclüdür ki, gölün səthində ildən-ilə dəyişiklik baş verir və onun səviyyəsi getdikcə aşağı düşür. Bir çox əlamətlər, o cümlədən gölün sahilindəki güclü lava axınlarının açıq-aydın bilinən izləri gölün sönmüş vulkanın ağzında – kraterində yerləşdiyini sübut edir. Qış aylarında gölün donması ilə əlaqədar sakinlər onun səthindən istifadə edərək yüklü heyvanlarla Güney sahilə keçərək odun tədarük edirlər. Yayda isə göldə Sevan monastırına məxsus nasaz bərəni çıxmaq şərti ilə burada heç bir gəmiyə rast gəlinmirdi. Mütəmadi olaraq günorta vaxtlarından başlayan küləklər gecə yarısına qədər davam edir və sonra göldə çox sakit bir mənzərə yaranırdı. Göyçə gölü Araz çayından 3324, Qara dənizdən isə 5724 fut hündürlükdə yerləşir.[2]

---

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с.379.

[2] Yenə orada, s.396-397; Лястер А.Ф., Чурсин Г.Ф. География Кавказа. Природа и население. Тифлис: 1924. VIII, с.163.

Göyçə hövzəsi müxtəlif faydalı qazıntı yataqları və minerallarla zəngin bir ərazi hesab olunur. Burada dəmir mədənləri (Ağrıca vadisi), qızıl yataqları (Altuntaxt, Zod əraziləri), mineral maddələrlə zəngin, kükürd tərkibli, isti müalicəvi sular, arsen yataqları yerləşirdi.[1]

Topoqrafik cəhətdən İrəvan xanlığının mahalları dağlıq, orta və düzən olmaqla 3 qrupa ayrılırdı. Abaran, Dərəçiçək və Göyçə mahalları bütünlüklə dağlıq ərazidə yerləşən mahallar idi.

Göyçə mahalı İrəvan xanlığının şimal hissəsini əhatə etməklə, həm ərazisinə, həm də əhalisinin sayına görə xanlığın ən böyük mahalı hesab edilirdi. Bu mahal indiki Ermənistan Respublikası ərazisindəki Çəmbərək (Krasnoselo) rayonuna daxil olan Toxluca, Ağbulaq, Şorca, Ardanış, Cil kəndlərini, Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Kəvər (Kamo) rayonlarının ərazilərini əhatə edirdi.[2]

İrəvan xanlığının inzibati bölgüsü haqqındakı məlumatlar əsasən Rusiya işğalından sonrakı dövrdə tərtib olunmuş qaynaqlarda saxlanıldığı üçün xanlıq dövründə mahallardakı, o cümlədən Göyçə gölü bölgəsini təmsil edən Göyçə mahalına daxil olan kəndlərin əhalisinin sayı və milli tərkibi haqqında səhih məlumatlar yox dərəcəsindədir.

Uzun sürən Rusiya-Qacar müharibələrinin faciəli nəticələri Göyçə gölü hövzəsindən də yan keçməmiş, Göyçə mahalında kəndlərin çoxu boşalmış, əhalisi qaçqın düşmüş və ya-

---

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с.401.

[2] Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, s. 16; Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, s. 432.

xud dağlara çəkilərək çox ağır vəziyyətdə yaşamışdır. İrəvan xanlığının sonuncu xanı Hüseynqulu sərdar Qacar (1807-1827) 1814-cü ildə qarapapaq tayfalarını bu ərazilərə köçürmək fikrinə düşdüyü zaman, burada dağıdılmış kəndlərin adlarını heç kim xatırlaya bilməmişdir. Sonralar aparılmış siyahıyaalmalarda 40-dan çox kəndin adının unudulduğu qeyd edilmişdir.[1]

10 fevral 1828-ci il Türkmənçay və 2 sentyabr 1829-cu il Ədirnə sülh müqavilələrinin müvafiq olaraq 15-ci və 13-cü maddələrinə əsasən Qacar və Osmanlı imperiyalarında yaşayan ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsinə başlanıldı.

Türkmənçay müqaviləsi imzalandıqdan dərhal sonra, 1828-ci il fevralın 14-də Lazarev tərəfindən Paskeviçə göndərilən xüsusi raportda "müharibə zamanı rusların qələbəsi üçün fədakarcasına çalışan ermənilərin" Rusiya əyalətlərinə köçmək istəyi bir daha ifadə olunur və təxirəsalınmadan köçürmə işlərinə başlamaq təklif edilirdi.

Paskeviç 1828-ci il fevralın 26-da Lazarevə və fevralın 29-da isə Müvəqqəti İrəvan idarəsinə göndərdiyi 19 maddəlik xüsusi təlimatda "həmin ərazilərdə xristian əhalisinin sayını mümkün qədər artırmaq üçün köçürülənlərin İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirilməsinin zəruriliyini" vurğulayırdı. Köçürülən ermənilər üçün geniş güzəşt və imtiyazlar nəzərdə tutulurdu. Təlimata əsasən köçürülən ailələrin sayına uyğun xəzinə fondundan müvafiq torpaq sahələrinin ayrılması, köçürülənlərin 6 il müddətində bütün vergilərdən, 3 il

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 446.

müddətində isə mükəlləfiyyətlərdən azad edilmələri, adət-ənənələrinin və təsərrüfat vərdişlərinin saxlanmasına şərait yaradılması, xəstəlik və ölümdən qorunmaları üçün məskunlaşdırıldıqları ərazilərin iqlim şəraitinə xüsusi diqqət yetirilməsi (dağlıq ərazilərdən köçürülənlərin dağlıq, düzən ərazilərdən köçürülənlərin isə düzən ərazilərdə yerləşdirilməsi), ilkin taxıl səpini və təsərrüfatın dirçəldilməsi üçün köçürülənlərə bərabər miqdarda faizsiz kredit verilməsi nəzərdə tutulurdu. Mümkün qarşıdurmalardan qaçmaq üçün köçürülənlərin müsəlmanların yaşadıqları kəndlərdə yox, ayrıca dairə və mahallarda yerləşdirilməsi planlaşdırılırdı.[1]

Bir çox hallarda Lazarev və onun yerlərə göndərdiyi nümayəndələr Türkmənçay müqaviləsini və onlara verilən təlimatı pozaraq erməniləri könüllü deyil, zorakılıqla köçürməyə cəhd göstərirdilər. Bununla əlaqədar Abbas Mirzə iki dəfə polkovnik Lazarevə müraciət edir ki, onun itaətində olan zabitlərin erməniləri zorla köçürməsi hallarına son qoysun və Türkmənçay müqaviləsinin şərtlərinə əməl etsin.[2]

Lazarev erməniləri köçürməyə həvəsləndirmək məqsədilə 1828-ci il martın 30-da onlara xüsusi müraciət də ünvanlamışdı və bu müraciətdə o, Rusiyanın ermənilərə vəd etdiyi güzəştləri sadalayırdı.[3]

Nəhayət ki, cəmi bir neçə ay ərzində Qacarlar dövləti

---

[1] Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. Москва: Тип. Лазаревых Института Восточных Языков, 1831, с.98-107.

[2] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasi-ya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, s.28.

[3] Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России, с.98-107.

ərazisindən ermənilərin keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülməsi həyata keçirildi. Polkovnik Lazarevin köçürmənin yekunları ilə bağlı qraf Paskeviç – Erivanskiyə yazdığı 24 dekabr 1829-cu il tarixli hesabatda 1828-ci il 26 fevral – 11 iyun tarixləri ərzində 100-ə qədər aysor ailəsi də daxil olmaqla 8.249 xristian ailəsinin (qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürüldüyünü, köçürmə işlərinə xəzinədən 16.000 çervon və 400 gümüş manat xərcləndiyini bildirirdi.[1]

1826-1828-ci illər Rusiya-Qacar müharibəsi Osmanlı-Rusiya münasibətlərini də son dərəcə kəskinləşdirdi və 1828-ci ilin aprelində iki dövlət arasında müharibəyə gətirib çıxardı. Hərbi əməliyyatların elə ilk vaxtlarından üstünlüyü ələ alan rus qoşunları Paskeviçin komandanlığı altında Şərqi Anadoluya hücuma başladı və Qars, Ahalkələk, Ahıska, Ərdəhan, Bəyazidi ələ keçirdi. 1829-cu ildə baş verən hərbi əməliyyatlar gedişində isə osmanlılar Ərzurum, Muş, Oltun, Bayburdu itirdilər. Rus qoşunlarının sürətlə irəliləməsi Osmanlı sultanı II Mahmudu barışıq istəməyə məcbur etdi.

Osmanlı və Rusiya dövlətləri arasında 1829-cu il sentyabrın 2-də imzalanan Ədirnə müqaviləsinə görə, Rusiya Ahalkələk və Ahıska bölgələri istisna olmaqla iki ildə işğal etdiyi bütün digər əraziləri Osmanlı dövlətinə qaytardı. Bu müqaviləyə əsasən Osmanlı dövləti Şimali Azərbaycanın və bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını tanımalı oldu, Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqeləri

---

[1] Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пре¬де-лы России, с.112-134.

daha da möhkəmləndi, Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı.[1]

Ədirnə müqaviləsinin 13-cü maddəsində Osmanlı dövlətinin işğal olunmuş ərazilərində qalan ermənilərin 18 ay müddətində daşınan əmlakları ilə birgə Rusiya ərazilərinə köçürülməsi nəzərdə tutulurdu. Müqaviləyə bu maddənin salınması təsadüfi deyildi. Çünki 1828-1829-cu illərdə baş verən hərbi əməliyyatlar zamanı Qars, Ərdəhan, Bəyazid, Ərzurum və başqa bölgələrdə yaşayan ermənilər Osmanlı hökumətinə xəyanət edərək ruslara böyük kömək göstərmişdilər. Rus qoşunlarının komandanlığı isə ermənilərin imperator sarayına növbəti "sədaqətli xidməti"nin qarşılığı olaraq onları yeni işğal edilmiş ərazilərə köçürməyi və bununla da Osmanlı ilə sərhəd boyu ərazilərdə xristianların say üstünlüyünü təmin etməyi qərara almışdı.

1829-cu il oktyabrın 10-da imperator I Nikolaya yazdığı raportunda da Paskeviç hərbi əməliyyatlar zamanı ruslara yaxından yardım göstərən ermənilərə "diqqət yönəltməyi, Rusiyaya göstərdikləri məhəbbətə görə osmanlıların onlardan qisas almasına yol verməməyi" xahiş edir və imperatordan erməni ailələrini Gürcüstan və Erməni vilayətlərində yerləşdirmək üçün icazə istəyirdi.[2]

Paskeviçin təklifi Rusiya imperator sarayında razılıqla qarşılandı və bundan sonra ermənilərin Osmanlı imperiyası ərazisindən köçürülməsi istiqamətində əməli fəaliyyətə başla-

---

[1] Azərbaycan tarixi. 7 cilddə, IV c. Bakı: Elm, 2007, s. 52.

[2] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s. 35.

nıldı. Rusiya hökumətinin tapşırığı əsasında köçürmə işlərinə və köçürülən ailələrin məskunlaşdırılması işinə rəhbərlik etmək üçün xüsusi komitə təsis edildi. Komitənin fəaliyyəti üçün Paskeviç tərəfindən müəyyən edilən 12 maddəlik ümumi qaydalar Qacarlar ərazisindən ermənilərin köçürülməsi üçün tərtib olunan təlimatlardan, demək olar ki, fərqlənmirdi. Bu qaydalarda da Osmanlı imperiyası ərazisindən köçürülən ermənilərə hər cür dövlət qayğısının göstərilməsi, hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına münasib olaraq köçürülənlərin lazımi qədər torpaqla təmin edilməsi, onların 6 il müddətinə vergilərdən, 3 il müddətinə mükəlləfiyyətlərdən azad edilməsi, köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində köməklik göstərilməsi nəzərdə tutulurdu. Köçürülən ermənilərin yığcam halda, təbii gözəlliyi, yaxşı iqlimi, saf suyu olan dağətəyi rayonlarda və şəhərlərdə yerləşdirilməsi xüsusi olaraq nəzarətdə saxlanılmalı idi. Osmanlı imperiyası ərazisindən ermənilərin köçürülməsi işlərini həyata keçirmək məsələsi general Pankratyevə həvalə edilmişdi.

Ərazisində pərakəndə halda yaşayan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyu ərazilərdə yığcam halda yerləşdirilməsindən ehtiyat edən Osmanlı hökuməti köçürməyə mane olmaq üçün bir sıra tədbirlər həyata keçirdi. 1830-cu il fevralın 17-də verilən "Əfvnamə"lərdə rusların gəlişi zamanı ermənilərin türklərə etdiyi xəyanətin, törətdikləri vəhşiliklərin bağışlanması vəd olunsa da ermənilərin əksəriyyəti köçmək niyyətindən əl çəkmədilər.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında verilən və 1831-ci il aprelin 3-ə aid olan sənəddə Osmanlı imperiyası

ərazisindən köçürülən erməni ailələrinin təxmini sayı və məskunlaşdırıldıqları ərazilərin adları göstərilmişdir. Həmin siyahıda İrəvan bölgəsinə köçürülən 14044 ailədən, Göyçə gölü ətrafına və Baş Abaran mahalına Osmanlı imperiyasının Bəyazid paşalığından 4 215 ailənin (25 290 nəfər erməni) köçürüldüyü göstərilir.[1]

Rus imperatorunun fərmanı ilə 1831-ci il aprelin 24-də Osmanlı imperiyasından köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərti ilə xəzinədən 380 min gümüş rubl ayrılmışdı.[2]

Rusiya çarı I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti" yaradıldı. 14 may 1829-cu ildə çar I Nikolayın fərmanı ilə Qafqazda əhalinin kameral siyahıyaalınmasının keçirilməsi qaydaları təsdiq olundu. Həmin qaydalara görə hər on ildən bir belə kameral siyahıyaalmalar 1831, 1842, 1852, 1859, 1873, 1886-ci illərdə keçirilmişdir. İlk belə siyahıyalma İ.Şopenin rəhbərliyi ilə 1829-1832-ci illərdə aparılmışdır.

1829-cu ilin əvvəlində qraf Paskeviç-Erivanskinin tapşırığı ilə kollec assesoru İ.Şopen Erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən

---

[1] Акты, собранные Кавказскою Археографическою Комиссией. Архив главного управлений наместника Кавказа (АКАК). Том VII. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878, с.830.

[2] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s. 40.

"Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" əsərində verilmişdir.

İ.Şopenin statistik məlumatları əsasında köçürülən ermənilərin Göyçə mahalında yerləşdirilməsi prosesini də nisbətən dəqiqliklə izləmək mümkündür.

## Göyçə mahalı əhalisinin etnik və say tərkibi (1829-1831-ci illər)[1]

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 1 | Bığlı Hüseyn | 5 | 14 | 12 | 26 | Azərb. | | | | | | | | |
| 2 | Zeynalağalı | 10 | 27 | 18 | 45 | -//- | - | - | - | - | - | - | - | - |
| 3 | Rəhmankənd | 8 | 16 | 12 | 28 | -//- | - | - | - | - | - | - | - | - |
| 4 | Ağqala | 7 | 21 | 18 | 39 | -//- | - | - | - | - | - | - | - | - |
| 5 | Əyrivəng | 12 | 41 | 24 | 65 | -//- | - | - | - | - | - | - | - | - |
| 6 | Qızılçıq (Əbülkənd) | 19 | 68 | 40 | 108 | -//- | - | - | - | - | - | - | - | - |
| 7 | Nərədüz | - | - | - | - | -//- | - | - | - | - | - | - | - | - |
| 8 | Qışlaq | - | - | - | - | -//- | - | - | - | - | 30 | 93 | 86 | 179 |
| 9 | Kəvər | - | - | - | - | -//- | - | - | - | - | 258 | 698 | 648 | 1346 |
| 10 | Quləli | - | - | - | - | -//- | - | - | - | - | 140 | 361 | 348 | 709 |
| 11 | Kosa Məmməd | - | - | - | - | -//- | - | - | - | - | 73 | 252 | 237 | 489 |
| 12 | Paşakənd | - | - | - | - | -//- | - | - | - | - | 81 | 245 | 219 | 464 |
| 13 | Dəliqardaş | - | - | - | - | -//- | - | - | - | - | 116 | 352 | 342 | 700 |
| 14 | Kuzəcik | - | - | - | - | -//- | - | - | - | - | 42 | 132 | 134 | 266 |
| 15 | Başkənd | - | - | - | - | -//- | - | - | - | - | 28 | 86 | 92 | 178 |
| 16 | Heyranis | 13 | 47 | 34 | 81 | erm. | - | - | - | - | 44 | 127 | 124 | 251 |
| 17 | Atamxan | - | - | - | - | - | - | - | - | - | 28 | 101 | 68 | 169 |
| 18 | Vəliağalı | - | - | - | - | - | - | - | - | - | 56 | 162 | 160 | 322 |
| 19 | Təzəkənd | - | - | - | - | - | - | - | - | - | 12 | 37 | 40 | 77 |

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 591-599.

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və erməni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 20 | Dəlikdaş | - | - | - | - | - | - | - | - | - | 20 | 68 | 59 | 127 |
| 21 | Gölkəndi | - | - | - | - | - | - | - | - | - | 49 | 130 | 143 | 273 |
| 22 | Aşağı Adyaman | - | - | - | - | - | - | - | - | - | 62 | 178 | 153 | 331 |
| 23 | Yuxarı Adyaman | - | - | - | - | - | - | - | - | - | 16 | 50 | 44 | 94 |
| 24 | Əbdulağalı | - | - | - | - | - | - | - | - | - | 15 | 52 | 44 | 96 |
| 25 | Gözəldərə | - | - | - | - | - | - | - | - | - | 97 | 296 | 264 | 560 |
| 26 | Ağqıraq | - | - | - | - | - | - | - | - | - | 30 | 97 | 83 | 180 |
| 27 | Aşağı Qaranlıq | - | - | - | - | - | - | - | - | - | 54 | 153 | 150 | 303 |
| 28 | Yuxarı Qaranlıq | - | - | - | - | - | - | - | - | - | 60 | 212 | 177 | 389 |
| 29 | Zolağaç | - | - | - | - | - | - | - | - | - | 46 | 166 | 132 | 298 |
| 30 | Kolanı Qırılan | - | - | - | - | - | - | - | - | - | 23 | 77 | 74 | 151 |
| 31 | Alçalı | 16 | 54 | 45 | 99 | Azərb. | - | - | - | - | - | - | - | - |
| 32 | Qarasaqqal Qışlağı | 2 | 5 | 5 | 10 | -//- | - | - | - | - | - | - | - | - |
| 33 | Yarpızlı | 19 | 62 | 59 | 121 | -//- | - | - | - | - | - | - | - | - |
| 34 | Zağalı | 17 | 56 | 42 | 98 | -//- | - | - | - | - | - | - | - | - |
| 35 | Qızılbulaq | 36 | 117 | 95 | 212 | -//- | - | - | - | - | - | - | - | - |
| 36 | Qırxbulaq | 39 | 133 | 114 | 247 | -//- | - | - | - | - | - | - | - | - |
| 37 | Qanlı Allahverdi | 16 | 49 | 50 | 99 | -//- | - | - | - | - | - | - | - | - |
| 38 | Basarkeçər | 31 | 91 | 87 | 178 | -//- | - | - | - | - | - | - | - | - |
| 39 | Qoşabulaq | 16 | 60 | 57 | 117 | -//- | - | - | - | - | - | - | - | - |
| 40 | Aşağı Keyti (Salman kənd) | 29 | 85 | 79 | 161 | -//- | - | - | - | - | - | - | - | - |
| 41 | Baş Keyti | 15 | 46 | 29 | 75 | -//- | - | - | - | - | - | - | - | - |
| 42 | Yellicə | 71 | 215 | 164 | 379 | -//- | - | - | - | - | - | - | - | - |
| 43 | Daşkənd | 69 | 188 | 169 | 357 | -//- | - | - | - | - | - | - | - | - |
| 44 | Daş Keyti | 25 | 68 | 56 | 124 | -//- | - | - | - | - | - | - | - | - |
| 45 | Tatul qışlağı | 29 | 81 | 67 | 148 | -//- | - | - | - | - | - | - | - | - |
| 46 | Zarzebil | 41/2 | 119/5 | 83/4 | 202/9 | qarışıq | - | - | - | - | - | - | - | - |
| 47 | Zod | 44 | 145 | 100 | 245 | -//- | - | - | - | - | - | - | - | - |
| 48 | Ağyoxuş | 36 | 114 | 78 | 192 | -//- | - | - | - | - | - | - | - | - |
| 49 | Əyriçə (Ogruca) | 30 | 124 | 83 | 207 | -//- | - | - | - | - | - | - | - | - |
| 50 | Böyük Məzrə | 49 | 150 | 143 | 293 | -//- | - | - | - | - | - | - | - | - |

| № | Yaşayış yerləri | Yerli əhali (azərbaycanlı və ermәni) | | | | | Köçürülənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Qacarlar imperiyasından | | | | Osmanlı imperiyasından | | | |
| | | Ailə | Kişi | Qadın | Cəmi | Milliyyəti | Ailə | Kişi | Qadın | Cəmi | Ailə | Kişi | Qadın | Cəmi |
| 51 | Kiçik Məzrə | 39 | 130 | 97 | 227 | -//- | - | - | - | - | - | - | - | - |
| 52 | Kəsəmən | 31 | 94 | 72 | 166 | -//- | - | - | - | - | - | - | - | - |
| 53 | Şisqaya | 51 | 141 | 110 | 251 | -//- | - | - | - | - | - | - | - | - |
| 54 | Cil | 45 | 159 | 106 | 265 | -//- | - | - | - | - | - | - | - | - |
| 55 | Ardanış | 20 | 67 | 52 | 119 | -//- | - | - | - | - | - | - | - | - |
| 56 | Adatəpə | 22 | 82 | 47 | 129 | -//- | - | - | - | - | - | - | - | - |
| 57 | Şorəli | 24 | 86 | 54 | 140 | -//- | - | - | - | - | - | - | - | - |
| 58 | Ağbulaq | 26 | 79 | 57 | 136 | -//- | - | - | - | - | - | - | - | - |
| 59 | Toxluca | 50 | 177 | 119 | 296 | -//- | - | - | - | - | - | - | - | - |

İ.Şopenin kameral siyahıyaalmasına görə Erməni vilayətində ümumilikdə 1.111 kənd mövcud olmuşdur.[1] Bu kəndlərdən 831 İrəvan xanlığının ərazisində olmuşdur. Bunlardan 521 kənd yaşayış üçün yararlı, 310 kənd isə dağıdılmış və xarabalığa çevrilmiş kəndlər olmuşdur. Qeyd olunan kəndlərdən 126-sı Göyçə mahalına aid idi. Mahalda olan 126 kəndin 59-u yaşayış üçün yararlı, 67-i isə dağıdılmış və xarabalığa çevrilmiş kəndlər idi.

Göyçə mahalının inzibati ərazisində 59 dağıdılmamış kənd mövcud olmuşdur: Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Əyrivəng, Qızılçıq (Əbülkənd), Nərədüz, Qışlaq, Kəvər, Quləli, Kosa Məmməd, Paşakənd, Dəliqardaş, Kuzəcik, Başkənd, Heyranıs, Atamxan, Vəliağalı, Təzəkənd, Dəlikdaş, Gölkəndi, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdul Ağalı, Gözəldərə, Ağqıraq, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Zolağac, Kolanı Qırılan, Alçalı, Qarasaqqal qışlağı, Yarpızlı,

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, s. 486.

Zağalı, Qızılbulaq, Qırxbulaq, Qanlı Allahverdi, Basarkeçər, Qoşabulaq, Aşağı Keyti (Salman kənd), Baş Keyti, Yellicə, Daşkənd, Daş Keyti, Tatul qışlağı, Zarzebil, Zod, Ağyoxus, Əyriçə (Ogruca), Böyük Məzrə, Kiçik Məzrə, Kəsəmən, Şisqaya, Cil, Ardanış, Adatəpə, Şorəli, Ağbulaq, Toxluca kəndləri daxildir.[1]

Osmanlı imperiyası ərazisindən köçürülən 1485 ailə (8557 nəfər) Göyçə mahalında yerləşdirilmişdir. Göyçə mahalında ermənilər kəndlər üzrə aşağıdakı sayda yerləşdirilmişdilər: Qışlaq 30 ailə (179 nəfər), Kəvər 258 ailə (1.346 nəfər), Qul Əli 140 ailə (709 nəfər), Kosa Məmməd 73 ailə (489 nəfər), Paşakənd 81 ailə (464 nəfər), Dəliqardaş 116 ailə (700 nəfər), Kuzəcik 42 ailə (266 nəfər), Başkənd 28 ailə (178 nəfər), Heyranis 44 ailə (251 nəfər), Atamxan 28 ailə (169 nəfər), Vəliağalı 56 ailə (322 nəfər), Təzəkənd 12 ailə (77 nəfər), Dəlikdaş 20 ailə (127 nəfər), Gölkəndi 49 ailə (273 nəfər), Aşağı Adyaman 62 ailə (331 nəfər), Yuxarı Adyaman 16 ailə (94 nəfər), Əbdulağalı 15 ailə (96 nəfər), Gözəldərə 97 ailə (560 nəfər), Ağqıraq 30 ailə (180 nəfər), Aşağı Qaranlıq 54 ailə (303 nəfər), Yuxarı Qaranlıq 60 ailə (389 nəfər), Zolağaç 46 ailə (298 nəfər), Kolanı Qırılan 23 ailə (151 nəfər).[2]

Göyçə mahalında dağıdılmış 67 kənd var idi. Həmin kəndlərə Göyçə mahalında Buğdatəpə, Hacı Mumuxan, Allahverdibəy, Üçtəpə və onunla qonşuluqda yerləşən adı unudulmuş bir kənd, Kərim kəndi və onunla qonşuluqda yerləşən adı unudulmuş dörd kənd, Yuxarı Altıntaxt, Aşağı Altıntaxt, Də-

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 515-517.
[2] Yenə orada, c. 591-598.

mirçi-poqos və onlarla qonşuluqda yerləşən adı unudulmuş beş kənd, Ağrıca, Atdaş, Ağsağtovuz, Karvansaray və onunla qonşu olan adı unudulmuş bir kənd, Qasımbaşı, Mədinə və adı unudulmuş 6 kənd, Baş Gözəldərə, Xancığazoğlu və adı unudulmuş 4 kənd, Qızılkilsə və adı unudulmuş 5 kənd, Böyükağa və adı unudulmuş 9 kənd, Ağkilsə və adı unudulmuş 2 kənd, Göyçay (Göyçə), Sultanəli, Sultanağac, Karvansaray, Ağrıca və adı unudulmuş 2 kənd, Kərimağa kəndi, Dəli-Arıtyun, Hamasar kəndləri daxil idi.[1]

Beləliklə, rus işğalından sonrakı ilk illərdə həyata keçirilən köçürmələrdən sonra Göyçə hövzəsində etnik-demoqrafik vəziyyət kəskin şəkildə dəyişdirilməyə başladı. Göyçə mahalına 1828-1830-cu illərdə Bitlis, Alaşkert, Muş, Sasun və Bəyazid vilayətlərindən köçürülən 8.557 nəfər erməni (1485 ailə) əhalisi hesabına mahalda əhalinin ümumi sayı 14.254 nəfərə (2.499 ailə), ermənilərin xüsusi çəkisi isə 1,5%-dən 60,7%-ə yüksəlmişdir.

Göyçə mahalında 59 kənd yaşayış üçün yararlı, qismən dağıdılmış kəndlər idi. Göyçə mahalında dağıdılmamış 59 kənddən 36-sında yaşayış olmuşdur.[2]

Onu da qeyd edək ki, Qacarlar dövlətindən Göyçə mahalına ermənilərin köçürülməsi qeydə alınmamışdır.

İ.Şopenin həyata keçirdiyi siyahıyaalmanın nəticələrini təhlil etməklə XİX əsrin 20-30-cu illərində Göyçə mahalı əhalisinin say və etnik tərkibi ilə bağlı müəyyən qənaət hasil etmək mümkündür.

---

[1] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 515-517.

[2] Yenə orada, с. 591-599.

Bu siyahıyaalmadan məlum olur ki, ermənilərin keçmiş İrəvan xanlığının ərazisinə köçürülüb gətirilməsinədək, Göyçə mahalında 999 müsəlman və cəmi 15 erməni ailəsi olmaqla 1014 ailə yaşamışdır. Göyçə mahalının yaşayış olan 36 kəndindən yalnız birinin – Heyranıs kəndinin (13 ailə) 81 nəfərdən ibarət olan əhalisi tamamilə ermənilərdən ibarət olmuşdur. Zarzebil kəndində yaşayan 43 ailədən cəmi 2 ailə (9 nəfər) erməni ailəsi olmuşdur.

Beləliklə, rus işğalından sonrakı ilk illərdə Göyçə mahalında azərbaycanlıların sayı 5.607 nəfər, ermənilərin sayı isə cəmi 90 nəfər olmuşdur. Başqa sözlə desək, işğal başa çatandan sonrakı ilk illərdə ermənilər Göyçə mahalı əhalisinin yalnız 1,5%-ni təşkil etdiyi halda, Azərbaycan türklərinin ümumi faiz nisbəti 98,5% idi.

Göyçə mahalının yaşayış olan kəndləri əsasında müharibə zamanı dağıdılmış və yaşayış olmayan kəndlərin əhalisinin və ümumilikdə işğal ərəfəsində bölgədə yaşayan əhalinin ümumu sayını da təxmini olaraq müəyyənləşdirmək mümkündür. Məlum olduğu kimi, işğaldan sonrakı ilk illərdə mahalın ümumilikdə 36 kəndində 999 ailə yaşayırdı. Ailələrin sayını kəndlərin sayına bölməklə aydın olur ki, hər kənd orta hesabla təxminən 28 ailədən ibarət olmuşdur. Bu nisbətlə götürsək Göyçə mahalındakı 90 dağıdılmış və yaşayış olmayan kənddə təxminən 2 520 ailənin yaşadığı məlum olur. Tarixşünaslıqda qəbul olunmuş ümumi bölgüyə əsaslanaraq hər ailəni orta hesabla 5 nəfərdən ibarət olaraq götürsək, onda dağıdılmış kəndlərdə işğal ərəfəsində 12 000-dən çox nəfərin yaşadığı məlum olur. Bu rəqəmlə 1829-1831-ci illər kameral siyahıyaalması nəticəsində müəyyənləşmiş rəqəmi (5 607) toplasaq işğal ərə-

fəsində Göyçə mahalında 18 minə yaxın azərbaycanlının yaşadığı qənaətinə gəlmək olar. Yuxarıda adı çəkilən cədvəldə əks olunmuş adlardan da göründüyü kimi, dağıdılan kəndlərin, demək olar ki, əksəriyyəti azərbaycanlıların yaşadığı kəndlər olmuşdur. Yuxarıda sadalanan faktları ümumiləşdirsək, birmənalı olaraq söyləmək mümkündür ki, Qərbi Azərbaycanın bütün bölgələri kimi Göyçə mahalında da Azərbaycan türklərinin tarixən məskun olduğu və dominantlıq təşkil etdikləri bir ərazi olmuşdur. XIX əsrin 20-30-cu illərində də burada Azərbaycan türkləri bölgə əhalisinin etnik əksəriyyətini təşkil edirdi və ermənilərlə müqayisədə mütləq say üstünlüyünü qoruyub saxlamışdı.

Məlumdur ki, 10 aprel 1840-cı il tarixli fərmana əsasən "Erməni vilayəti" ləğv edilmişdi. Cənubi Qafqaz 2 böyük inzibati əraziyə – Gürcüstan-İmeretiya quberniyasına və Xəzər vilayətinə bölündü. Bu qanuna əsasən Göyçə mahalı İrəvan qəzasının bir hissəsi kimi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi.

1849-cu il iyunun 9-da Rusiya çarı II Nikolayın fərmanı ilə İrəvan quberniyası yaradıldı. 1850-ci yanvarın 1-dən qüvvəyə minən həmin fərmanla İrəvan quberniyası 5 qəzaya – İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid qəzalarına bölünürdü. Elə həmin tarixdən etibarən İrəvan quberniyası tərkibində təşkil olunan qəzalardan biri də Yeni Bəyazid qəzası idi ki, Göyçə mahalı bütövlükdə bu qəzanın tərkibinə daxil idi.

Beləliklə, XIX əsrin ortalarından etibarən əhalisinin mütləq əksəriyyətini – 98,5%-ni azərbaycanlılar təşkil edən Göyçə mahalı torpaqlarında tamamilə yeni inzibati ərazi vahi-

di – Yeni Bəyazid qəzası təşkil edildi. Əslində bu addımı atmaqda çar hökumətinin əsl məqsədi heç də inzibati-idarəçilik sistemini təkmilləşdirmək deyildi. Hökumət bu tədbirlə daha çox, Azərbaycanın tarixən formalaşmış ərazi bütövlüyünə növbəti dəfə qəsd etmək, azərbaycanlıların əksəriyyət təşkil etdiyi əraziləri ermənilər yaşayan ərazilərlə birləşdirib birincilərin təsir dairəsini azaltmaq, idarə aparatında ermənilərin nümayəndələrini yerləşdirmək, beləliklə, ərazini tədricən, planlı şəkildə erməniləşdirmək niyyəti güdürdü.

Çar Rusiyasının Göyçə mahalında həyata keçirdiyi etnik siyasət nəticəsində sonrakı onilliklərdə də bölgənin demoqrafik vəziyyəti azərbaycanlıların ziyanına dəyişməkdə davam edirdi. Bunu aşağıda gətirilən cədvəllərdə də görmək mümkündür:

**Yeni Bəyazid qəzasının cənub-qərb hissəsi üzrə demoqrafik vəziyyəti (1873-cü ilin məlumatına görə)[1]**

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti |
| 1 | Abdulağalı | 41 | 227 | 223 | 450 | erm. |
| 2 | Yuxarı Adyaman | 74 | 395 | 386 | 781 | erm |
| 3 | Aşağı Adyaman | 107 | 579 | 522 | 1.101 | -//- |
| 4 | Əliqırıx | 97 | 461 | 492 | 953 | -//- |

[1] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 1, с.319.

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti |
| 5 | Atamxan | 72 | 398 | 342 | 740 | -//- |
| 6 | Yuxarı Alçalı | 61 | 255 | 214 | 469 | azərb. |
| 7 | Aşağı Alçalı | 114 | 494 | 506 | 1.000 | erm |
| 8 | Basarkeçər | 164 | 831 | 806 | 1.637 | -//- |
| 9 | Başkənd | 73 | 391 | 342 | 733 | qar. |
| 10 | Baş Gözəldərə | 38 | 117 | 119 | 236 | azərb. |
| 11 | Vəliağalı | 132 | 625 | 680 | 1.305 | erm |
| 12 | Gödəkbulaq | 68 | 347 | 328 | 675 | qar. |
| 13 | Gölkənd | 101 | 514 | 568 | 1.082 | erm |
| 14 | Gözəldərə | 241 | 1124 | 1181 | 2.305 | erm |
| 15 | Dəliqardaş | 189 | 1240 | 1117 | 2.357 | erm |
| 16 | Zağalı | 66 | 316 | 347 | 663 | -//- |
| 17 | Zolaxaç | 148 | 768 | 773 | 1.541 | -//- |
| 18 | Eşşək-Karvansaray | 33 | 119 | 126 | 245 | azərb. |
| 19 | Aşağı Qaranlıq | 95 | 500 | 512 | 1.012 | erm |
| 20 | Yuxarı Qaranlıq | 123 | 597 | 551 | 1.148 | erm |
| 21 | Kolanıqırılan | 85 | 523 | 466 | 989 | erm |
| 22 | Qızılbulaq (Çaxırlı) | 86 | 523 | 466 | 989 | erm |
| 23 | Qızılvəng | 59 | 238 | 206 | 444 | -//- |
| 24 | Qızılxaraba | 17 | 62 | 58 | 120 | -//- |
| 25 | Qızılxaraba (B.Zağalı) | 65 | 294 | 398 | 692 | -//- |
| 26 | Qırxbulaq | 62 | 352 | 398 | 750 | -//- |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti |
| 27 | Qışlaq | 112 | 555 | 450 | 1005 | erm |
| 28 | Qanlı Allahverdi | 25 | 154 | 139 | 293 | azərb. |
| 29 | Kosaməmməd | 107 | 638 | 645 | 283 | erm |
| 30 | Quləli | 186 | 707 | 663 | 1370 | |
| 31 | Küzəcik | 74 | 440 | 430 | 770 | erm |
| 32 | Kərimkənd | 37 | 216 | 206 | 422 | -//- |
| 33 | Kərkibaş | 23 | 124 | 115 | 239 | azərb |
| 34 | Yuxarı Mədinə | 13 | 71 | 60 | 131 | rus |
| 35 | Aşağı Mədinə | 15 | 71 | 51 | 122 | -//- |
| 36 | Nadejdino (Şorça) | 41 | 100 | 113 | 213 | rus |
| 37 | Nərədüz | 236 | 1018 | 1030 | 2048 | erm |
| 38 | Paşakənd | 234 | 945 | 884 | 1819 | erm |
| 39 | Subatan | 28 | 122 | 121 | 243 | azərb |
| 40 | Təzəkənd | 76 | 364 | 396 | 760 | erm |
| 41 | Tüstülü | 27 | 149 | 136 | 285 | erm |
| 42 | Xartlıq | 20 | 89 | 60 | 139 | azərb |
| 43 | Çakkar (Dəlikdaş) | 46 | 235 | 310 | 545 | erm |
| 44 | Çamırlı | 37 | 144 | 145 | 289 | azərb |
| 45 | Heyranıs | 111 | 682 | 634 | 1316 | erm |
| 46 | Yanıx | 57 | 181 | 162 | 243 | kürd |
| 47 | Yarpızlı | 39 | 236 | 216 | 452 | azərb |

## Yeni Bəyazid qəzasının şimal-şərq hissəsi üzrə[1]

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 1 | Ağbulaq | 75 | 305 | 22 | 527 | azərb. |
| 2. | Ağverən | 35 | 126 | 113 | 239 | -//- |
| 3. | Ağzıbir | 67 | 290 | 240 | 530 | -//- |
| 4. | Əyrivəng | 57 | 229 | 213 | 442 | -//- |
| 5. | Alapars | 178 | 902 | 841 | 1743 | erm. |
| 6. | Aleksandrovka | 31 | 77 | 63 | 140 | rus |
| 7. | Ardanış | 52 | 29 | 235 | 526 | azərb. |
| 8. | Ağqala | 31 | 143 | 105 | 248 | -//- |
| 9. | Ağkilsə | 30 | 179 | 147 | 326 | -//- |
| 10. | Ağpara | 43 | 253 | 284 | 537 | erm. |
| 11. | Yuxarı Axta | 118 | 645 | 587 | 1232 | -//- |
| 12. | Aşağı Axta | 195 | 770 | 696 | 1966 | -//- |
| 13. | Aşağı Axta | 47 | 157 | 165 | 322 | rus |
| 14. | Babakişi | 54 | 298 | 302 | 600 | erm. |
| 15. | Babacan dərəsi | 16 | 68 | 58 | 126 | azərb. |
| 16. | Bığlı Hüseynsaraclı | 43 | 263 | 225 | 488 | -//- |
| 17. | Hacı Muxan | 60 | 12 | 13 | 625 | -//- |
| 18. | Hüseynquluağalı | 65 | 367 | 354 | 721 | -//- |
| 19. | Gümüş | 31 | 163 | 150 | 313 | -//- |
| 20. | Dəvəxaraba | 28 | 152 | 152 | 304 | kürd |
| 21. | Dəvəqışlaq | 21 | 155 | 129 | 284 | azərb. |
| 22 | Dəlləkli | 20 | 138 | 131 | 269 | azərb. |

[1] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 1, с.320.

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 23 | Dəlipaşa (Paşakənd) | 44 | 245 | 203 | 448 | -//- |
| 24 | Cil | 63 | 294 | 271 | 565 | -//- |
| 25 | Yelenovka | 182 | 583 | 559 | 1142 | rus |
| 26 | Zarzebil | 48 | 314 | 276 | 590 | azərb. |
| 27 | Zod | 119 | 541 | 501 | 1042 | -//- |
| 28 | İnəkdağı | 23 | 239 | 220 | 459 | -//- |
| 29 | Qabaxlı (Zar) | 13 | 73 | 69 | 142 | kürd |
| 30 | Qaraqoyunlu | 33 | 217 | 194 | 411 | azərb. |
| 31 | Ellicə | 20 | 106 | 105 | 211 | -//- |
| 32 | Karvansaray (Qarnıyarıx) | 116 | 701 | 692 | 1393 | erm. |
| 33 | I Qaraqala (Misxan) | 17 | 113 | 113 | 226 | azərb. |
| 34 | II Qaraqala (Qırxbulaq) | 44 | 236 | 207 | 443 | -//- |
| 35 | Qaxsı | 119 | 616 | 565 | 1181 | erm. |
| 36 | Qayabaşı | 21 | 89 | 78 | 167 | azərb. |
| 37 | Yeni Keyti | 54 | 275 | 236 | 511 | -//- |
| 38 | Qızqala | 14 | 103 | 93 | 196 | -//- |
| 39 | Konstantinovka (Dərəçiçək) | 37 | 149 | 120 | 269 | rus |
| 40 | Qoruxgüney | 18 | 93 | 82 | 175 | azərb. |
| 41 | Qorçalı (Allahverdi kənd) | 18 | 107 | 124 | 231 | -//- |
| 42 | Qoşabulaq | 33 | 214 | 207 | 422 | -//- |
| 43 | Küylü | 26 | 107 | 91 | 198 | azərb. |
| 44 | Quşçudərəsi | 23 | 112 | 110 | 222 | -//- |
| 45 | Kankan | 66 | 375 | 386 | 761 | -//- |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 46 | Kəsəmən | 46 | 228 | 227 | 455 | -//- |
| 47 | Böyük Məzrə | 162 | 629 | 598 | 1227 | -//- |
| 48 | Kiçik Məzrə | 119 | 484 | 455 | 939 | -//- |
| 49 | Makravəng | 68 | 315 | 289 | 604 | erm. |
| 50 | Novo-Mixayılovka (Misxan kənd) | 19 | 82 | 58 | 140 | yunan |
| 51 | Orğuca (Qaraiman) | 49 | 304 | 255 | 559 | azərb. |
| 52 | Ördəkli | 137 | 651 | 581 | 1232 | erm. |
| 53 | Rəndəməl | 184 | 939 | 928 | 1867 | -//- |
| 54 | Rəhmankənd (Əfəndi kənd) | 48 | 194 | 161 | 355 | azərb. |
| 55 | Sarıyaqub | 33 | 226 | 190 | 416 | -//- |
| 56 | Semyonovka | 51 | 153 | 160 | 313 | rus |
| 57 | Sədənəxaç | 17 | 105 | 100 | 205 | azərb. |
| 58 | Solak | 129 | 568 | 527 | 1095 | erm. |
| 59 | Soyuqbulaq | 31 | 144 | 126 | 270 | kürd |
| 60 | Sultanəli qışlağı (Ca-nəhməd) | 46 | 171 | 125 | 296 | azərb. |
| 61 | Suxoy Fontan | 29 | 73 | 70 | 143 | rus |
| 62 | Tayçarıx | 87 | 539 | 504 | 1043 | erm. |
| 63 | Təkəli | 45 | 239 | 225 | 464 | azərb. |
| 64 | Daşkənd | 88 | 427 | 314 | 741 | -//- |
| 65 | Tezxarab | 52 | 220 | 214 | 434 | qarışıq |
| 66 | Toxluca | 93 | 340 | 306 | 646 | azərb. |
| 67 | Tutmaşen | 106 | 822 | 844 | 1566 | erm. |
| 68 | Üləşik | 26 | 155 | 149 | 304 | azərb. |
| 69 | Fərrux | 50 | 347 | 322 | 669 | erm. |

| № | Kəndlərin adı | Əhali | | | | |
|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | milliyyəti |
| 70 | Çaxkunq (Çiçəkli) | 118 | 662 | 620 | 1282 | -//- |
| 71 | Çerçer | 61 | 319 | 305 | 624 | erm. |
| 72 | Çobanqorxmaz | 6 | 17 | 19 | 36 | azərb. |
| 73 | Çubuqlu | 146 | 749 | 713 | 1462 | erm. |
| 74 | Şəhriz | 115 | 562 | 546 | 1108 | -//- |
| 75 | Şişqaya | 78 | 403 | 375 | 778 | azərb. |
| 76 | Şorca | 13 | 87 | 79 | 166 | -//- |
| 77 | Yaycı | 61 | 452 | 417 | 869 | erm. |

1873-cü ildə aparılmış kameral təsvirlərə görə, Yeni Bəyazid qəzası 56 azərbaycanlı, 51 erməni, 9 rus, 3 qarışıq, 4 kürd, 1 yunan yaşayan 124 kənddən ibarət olmuşdur.[1]

Qəzada ümumilikdə 64567 nəfər (7106 ev-təsərrüfat), o cümlədən 19897 azərbaycanlı (2335 ev-təsərrüfat), 42270 erməni (4388 ailə), 2056 rus (malakan 328 ailə), 248 kürd (36 ailə), 96 yunan (19 ailə) yaşamışdır. Əhalinin xüsusi çəkisində 65,46% erməni, 30,81% azərbaycanlı, 3,18% rus, 0,38% kürd, 0,14% yunanlar təşkil edirdilər.[2] Erməni əhalisinin artması əsasən 1877-ci ildə erməni generalı Ter-Qukasovun rəhbərliyi ilə Osmanlı dövlətindən köçürülən erməni ailələrinin hesabına baş vermişdir.[3]

---

[1] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 1, с.319.
[2] Yenə orada, s. 317-318.
[3] Yenə orada, s. 319.




Yeni Bəyazid qəzası

Yeni Bəyazid qəzası 4239 kv verst (təxminən 4519 kv km) ərazisinə görə quberniyanın ən böyük qəzası idi. Göyçə gölü ilə birlikdə ərazisi İrəvan və Şərur-Dərələyəz qəzalarının ərazisindən böyük olmuşdur.[1]

Qəza inzibati cəhətdən 4 nahiyəyə bölünürdü: I Dərəçiçək, II Göyçə, III Gözəldərə, IV Məzrə.

Ümumilikdə, Yeni Bəyazid qəzasının 4 nahiyəsinə 16 kənd icması, bu kənd icmalarına da 127 kənd daxil idi.

Dərəçiçək nahiyəsi 8 kənd icmasından ibarət idi: Arza-

[1] Пагирев Д.Д. Эриванский сборник. Вып. 1. Эриван. 1892. 108 с., с.40-42.

kənd kənd icmasına Ağverən, Arzakənd, Bjni, Gümüş, Dəllər, Uzunlar (Ozanlar) kəndləri, Axta və ya Aşağı kənd icmasına Alapars, Yuxarı Axta, Aşağı Axta, Qaxsı, Solak kəndləri, Axta və ya Aşağı rus icmasına Aşağı (rus) Axta, Konstantinovka (Dərəçiçək), Suxoy Fontan kəndləri, Yelenovka kənd icmasına Aleksandrovka (Zeynal-Abidin), Yelenovka, Semyonovka kəndləri, Kənkan kənd icmasına Dəvəxaraba, Dəlləkli, Qaraqala, Küylü, Kənkan, Qızqala, Tezxarab, Çoban-Qorxmaz kəndləri, Rəndəmal kənd icmasına Ağqara, Babakişi, Karvansaray, Makravəng, Rəndamal, Fərrux, Yaycı kəndləri, Tayçarığ kənd icmasına Dədəqışlaq, Dəlipaşa (Paşakənd), Qabağlı, Birinci Qaraqala, Qoruqgüney (Allahverdi), Qorçalı (Allahverdikənd), Novo-Mixaylovka (Misxana, Berzen), Soyuqbulaq, Tayçarığ, Təkəli (Molla Əli kənd), Üləşik kəndləri, Çirçir kənd icmasına Komadzor, Tutmaşen (Çamakapert, Qarakeşiş), Çaxkunq (Çiçəkli), Çirçir, Çubuqlu, Şahriz kəndləri daxil idi.[1]

Göyçə nahiyəsi 3 kənd icmasından ibarət idi: Ağzıbir kənd icmasına Ağzıbir, Ağqala, Əyrivəng, Bığli-Hüseyn-Saraclı, Qışlaq, Quləli, Nərədüz, Ördəkli, Rəhmankənd (Əfəndikənd), Hacı Muxan (Hacı Avdi) kəndləri, Gölkənd kənd icmasına Yuxarı Adyaman. Aşağı Adyaman, Atamxan, Gölkənd, Vəliağalı, Təzəkənd, Çakarkar (Dəlikdaş), Heyranıs kəndləri, Dəliqardaş kənd icmasına Başkənd (Göyçə), Dəliqardaş, Kosaməmməd, Küzəcik, Kərimkənd, Paşakənd (Məmmədağalı) kəndləri daxil idi.[2]

---

[1] Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии. Тифлис: Тип. И.Мартиросианца, 1893, с.26-27.

[2] Yenə orada, s. 28.

Gözəldərə nahiyəsində 3 kənd icması var idi: Basarkeçər kənd icmasına Basarkeçər, Zağalı, Qanlı Allahverdi, Qayabaşı, Yeni Keyti (Şorcalı), Qızılbulaq (Çaxırlı), Qırxbulaq, Qoşabulaq, Kərkibaş, Sarıyaqub, Subatan, Daşkənd, Tüstülü, Şorca, Hüseynquluağalı, Ağkilsə kəndləri, Gözəldərə kənd icmasına Yuxarı Alçalı, Aşağı Alçalı, Gödəkbulaq (Girdəbulaq), Gözəldərə, Qızılvəng, Qızılxaraba (Tatar Zağalı), Kolanıqırılan, Çəmərli (Çamırlı), Yarpızlı kəndləri, Yuxarı Qaranlıq kənd icmasına Abdulağalı, Əliqırığ, Zolaxaç, Karvansaray (Ayrıc), Yuxarı Qaranlıq, Aşağı Qaranlıq, Qızılxaraba (Ayrıc), Mədinə, Siçanlı, Xartlıq, Yanığ kəndləri daxil idi.[1]

Məzrə nahiyəsi 2 kənd icmasından ibarət idi: Cil kənd icmasına Ağbulaq, Babacandərəsi, Cil, Quşındərəsi (Pəmbəkli), Nadejdino (Şorcalı), Ordaniç, Sadanaxaç, Toxluca kəndləri, Böyük Məzrə kənd icmasına Ağkilsə, Ellicə-Qaraqoyunlu, Zarzebil, Zod, İnəkdağı, Kəsəmən, Böyük Məzrə (Quluağalı), Kiçik Məzrə, Oğruca (Qaraiman), Sultanəli qışlağı (Can Əhmədli), Şişqaya kəndləri daxil idi.[2]

## Yeni Bəyazid qəzası (1886-cı il)[3]

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| | **DƏRƏÇİÇƏK SAHƏSİ** | | | | | | | | | | |
| 1 | Ağverən | 50 | 155 | 147 | 302 | azərb. | | + | | | |
| 2. | Arzakənd (I kənd cəmiyyəti) | 94<br>39 | 415<br>180 | 319<br>132 | 734<br>312 | qar. | | + | + | | |

[1] Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии, с.29.

[2] Yenə orada, s. 30.

[3] Yenə orada, s. 52-60.

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 3. | Bjni | 94<br>75 | 391<br>294 | 273<br>262 | 564<br>554 | qar. | | + | + | | |
| 4. | Gümüş | 46 | 172 | 139 | 311 | azərb. | | + | | | |
| 5. | Dəllər | 43 | 146 | 121 | 267 | -//- | | + | | | |
| 6. | Uzunlar (Ozanlar) | 33 | 125 | 104 | 229 | -//- | | + | | | |
| 7. | Aşağı Axta (II kənd cəmiyyəti) | 206 | 800 | 723 | 1523 | erm. | | | + | | |
| 8. | Alparas | 257 | 1000 | 923 | 1923 | -//- | | | + | | |
| 9. | Yuxarı Axta | 150 | 720 | 636 | 1356 | -//- | | | + | | |
| 10. | Qaxsı | 151 | 680 | 615 | 1295 | -//- | | | + | | |
| 11. | Solak | 162 | 589 | 527 | 1116 | -//- | | | + | | |
| 12. | Aşağı Axta (III kənd cəmiyyəti) | 55 | 174 | 176 | 350 | rus | | | | + | |
| 13. | Konstantinovka (Dərəçiçək) | 44 | 147 | 119 | 266 | -//- | | | | + | |
| 14. | Suxoy Fontan | 31 | 72 | 71 | 143 | -//- | | | | + | |
| 15. | Yelenovka | 207 | 622 | 604 | 1226 | -//- | | | | + | |
| 16. | Aleksandrovka (Zeynalabdin) | 3<br>26 | 9<br>80 | 6<br>63 | 15<br>143 | qar. | | | | | |
| 17. | Semyonovka | 52 | 161 | 177 | 338 | rus | | | | + | + |
| 18. | Kənkan | 122 | 408 | 364 | 772 | azərb. | | + | | | |
| 19. | Dəvəxaraba | 41 | 155 | 150 | 305 | kürd | + | | | | |
| 20. | Dəİləkli | 48 | 168 | 149 | 317 | azərb. | | + | | | |
| 21. | 2-ci Qaraqala | 77 | 276 | 234 | 510 | -//- | | + | | | |
| 22 | Küylü | 38 | 126 | 100 | 226 | azərb. | | + | | | |
| 23 | Qızqala | 35 | 102 | 108 | 210 | -//- | 1 | + | | | |
| 24 | Tezxarab | 53<br>8 | 207<br>24 | 192<br>23 | 399<br>47 | erm.<br>azərb. | | | | | |
| 25 | Çobanqorxmaz | 5 | 17 | 19 | 36 | azərb. | | | | | |
| 26 | Rəndəmal | 226 | 1095 | 1043 | 2138 | erm. | | | | | |
| 27 | Ağpara | 2<br>68 | 11<br>290 | 8<br>306 | 19<br>587 | kürd<br>erm. | + | | | | |
| 28 | Babakişi | 1<br>64 | 3<br>313 | 1<br>307 | 4<br>620 | kürd<br>erm. | + | | | | |
| 29 | Karvansaray (Qarnıyarıx) | 139 | 741 | 745 | 1486 | erm. | | | | | |
| 30 | Makravəng | 76 | 321 | 300 | 621 | -//- | | | | | |
| 31 | Fərrux | 68 | 373 | 347 | 720 | -//- | | | | | |
| 32 | Yaycı | 78 | 471 | 434 | 905 | -//- | | | | | |
| 33 | Tayçarıx | 108 | 579 | 524 | 1103 | -//- | | | | | |
| 34 | Dədəqışlaq | 26 | 155 | 123 | 278 | azərb. | | | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 35 | Dəlipaşa (Paşakənd) | 52 | 247 | 189 | 436 | -//- | | + | | | |
| 36 | Qabaxlı | 17 | 73 | 65 | 138 | -//- | | + | | | |
| 37 | 1-ci Qaraqala | 25 | 114 | 113 | 227 | -//- | | + | | | |
| 38 | Qoruxgüney (Allahverdi) | 24 | 81 | 67 | 148 | -//- | | + | | | |
| 39 | Qorçalı (Allahverdikənd) | 26 | 124 | 133 | 257 | -//- | | + | | | |
| 40 | Novomixaylovka (Misxana, Berzen) | 24 | 71 | 47 | 118 | qar. | | | | | |
| 41 | Soyuqbulaq | 32 | 138 | 131 | 269 | kürd | yezid | | | | |
| 42 | Təkəli (Mollaəlikənd) | 49 | 245 | 224 | 469 | azərb. | | + | | | |
| 43 | Üləşik | 35 | 159 | 154 | 313 | -//- | | + | | | |
| 44 | Çerçer | 70 | 331 | 308 | 639 | erm. | | | + | | |
| 45 | Qumadzor | 50 | 226 | 209 | 435 | erm. | | | + | | |
| 46 | Tutmaşen | 206 | 869 | 789 | 1658 | kürd erm | + | | + | | |
| 47 | Tsaxmaberd (Qarakeşiş) | 43 | 181 | 175 | 356 | erm. | | | + | | |
| 48 | Çaxkunq (Çiçəkli) | 142 | 717 | 616 | 1333 | erm. | | | + | | |
| 49 | Çubuxlu | 166 | 783 | 733 | 1521 | erm. | | | + | | |
| 50 | Şahriz | 116 | 595 | 558 | 1153 | erm. | | | + | | |
| 51 | Ağzıbir | 78 | 307 | 250 | 557 | azərb. | | + | | | |
| | **II GÖYÇƏ SAHƏSI** | | | | | | | | | | |
| 52 | Ağqala | 36 | 140 | 113 | 253 | azərb. | | + | | | |
| 53 | Əyrivəng | 66 | 240 | 211 | 451 | azərb. | | + | | | |
| 54 | Bığlı Hüseyn Saraclı | 65 | 274 | 231 | 505 | azərb. | | + | | | |
| 55 | Qışlaq | 115 | 597 | 494 | 1091 | erm. | | | + | | |
| 56 | Quləli | 1 158 | 2 777 | 3 717 | 5 1494 | azərb. erm. | | + | + | | |
| 57 | Nərədüz | 261 | 1148 | 185 | 2233 | erm. | | | + | | |
| 58 | Ördəkli | 125 | 695 | 603 | 1298 | erm. | | | + | | |
| 59 | Rəhmankənd | 51 | 171 | 143 | 314 | azərb. | 81 90 | 62 81 | | | |
| 60 | Hacımuxan (Hacıavdı) | 80 | 313 | 297 | 610 | azərb. | | + | | | |
| 61 | Gölkənd (II kənd cəmiyyəti) | 95 | 550 | 564 | 1114 | erm. | | | + | + | |
| 62 | Yuxarı Adyaman | 65 | 435 | 360 | 795 | erm. | | | + | | |
| 63 | Aşağı Adyaman | 131 | 667 | 595 | 1262 | erm. | | | + | | |
| 64 | Atamxan | 86 | 439 | 365 | 804 | erm. | | | + | | |
| 65 | Vəliağalı | 126 | 690 | 653 | 1343 | erm. | | | + | | |
| 66 | Təzəkənd | 78 | 411 | 416 | 827 | erm. | | | + | | |
| 67 | Tsakarkar (Dəlikdaş) | 51 | 318 | 294 | 612 | erm. | | | + | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 68 | Heyranıs | 1<br>116 | 5<br>779 | 4<br>690 | 9<br>1469 | azərb.<br>erm. | + | | + | | |
| 69 | Dəliqardaş | 259 | 1311 | 1163 | 2474 | erm. | | | + | | |
| 70 | Başkənd (Göyçə) | 34<br>45 | 125<br>215 | 118<br>170 | 243<br>385 | azərb.<br>erm. | + | | + | | |
| 71 | Kosaməmməd | 144 | 706 | 674 | 1380 | erm. | | | + | | |
| 72 | Küzəcik | 82 | 477 | 442 | 919 | erm. | | | + | | |
| 73 | Kərimkənd | 47 | 256 | 233 | 489 | erm. | | | + | | |
| 74 | Paşakənd (Məmmədağalı) | 244 | 1030 | 935 | 1965 | erm. | . | | + | | |
| | **III GÖZƏLDƏRƏ SAHƏSİ** | | | | | | | | | | |
| 75 | Basarkeçər (1- k/cəmiyyəti) | 188 | 927 | 764 | 1691 | erm. | | | + | | |
| 76 | Zağalı | 83 | 344 | 345 | 689 | erm. | | | + | | |
| 77 | Qanlı (Allahverdi) | 46 | 170 | 147 | 317 | azərb. | + | | | | |
| 78 | Qayabaşı | 30 | 95 | 86 | 181 | azərb. | + | | | | |
| 79 | Yeni Keyti (Şorçalı) | 82 | 283 | 241 | 524 | azərb. | + | | | | |
| 80 | Qızılbulaq (Çaxırlı) | 160 | 540 | 480 | 1020 | azərb. | + | | | | |
| 81 | Qırxbulaq | 8<br>74 | 32<br>425 | 24<br>379 | 56<br>804 | Kürd<br>erm. | | + | + | | |
| 82 | Qoşabulaq | 62 | 218 | 201 | 419 | azərb. | | + | | | |
| 83 | Kərkibaş | 33 | 139 | 116 | 255 | azərb. | | + | | | |
| 84 | Sarıyaqub | 69 | 234 | 182 | 416 | azərb. | | + | | | |
| 85 | Subatan | 43 | 135 | 128 | 263 | azərb. | | + | | | |
| 86 | Daşkənd | 129 | 446 | 370 | 816 | azərb. | | + | | | |
| 87 | Tüstülü | 39 | 179 | 47 | 326 | erm. | | | + | | |
| 88 | Şorca | 24 | 83 | 75 | 158 | azərb. | 29<br>26 | 54<br>49 | | | |
| 89 | Hüseynquluağalı | 101 | 418 | 342 | 760 | azərb. | 554 | 363 | | | |
| 90 | Gözəldərə (2-ci k/cəmiyyəti) | 316 | 1415 | 1327 | 2742 | erm. | | | + | | |
| 91 | Yuxarı Alçalı | 84 | 279 | 226 | 505 | azərb. | | + | | | |
| 92 | Aşağı Alçalı | 120 | 541 | 519 | 1060 | enn. | | | + | | |
| 93 | Gödəkbulaq | 4<br>78 | 15<br>348 | 11<br>326 | 26<br>674 | azərb.<br>erm | | + | + | | |
| 94 | Qızılvəng | 74 | 259 | 210 | 469 | azərb. | | + | | | |
| 95 | Qızılxaraba (Tatar Zağalısı) | 112 | 371 | 346 | 717 | azərb. | | + | | | |
| 96 | Kolanıqırlan | 105 | 576 | 549 | 1125 | erm. | | | + | | |
| 97 | Yarpızlı | 78 | 247 | 218 | 465 | azərb. | | + | | | |
| 98 | Çamırlı | 55 | 176 | 153 | 329 | azərb. | | + | | | |

| № | Kəndlərin adı | Əhali | | | | | Dini etiqadı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Evlərin sayı | Kişi | Qadın | Ümumi sayı | Milliyyəti | Sünni | Şiə | Erməni qriq. | Rus | Sekt. |
| 99 | Yuxarı Qaranlıq | 130 | 655 | 616 | 1271 | erm. | | | + | | |
| 100 | Abdülağalı | 59 | 271 | 272 | 543 | erm. | | | + | | |
| 101 | Əliqırıx | 121 | 537 | 512 | 1049 | erm. | | | + | | |
| 102 | Zolaxaç | 204 | 893 | 803 | 16% | erm. | | | + | | |
| 103 | Karvansaray | 25 | 105 | 101 | 206 | azərb. | | + | | | |
| 104 | Aşağı Qaranlıq | 143 | 694 | 613 | 1307 | erm. | | | + | | |
| 105 | Qızılxaraba | 18 | 70 | 66 | 136 | azərb. | | + | | | |
| 106 | Mədinə | 41 | 161 | 135 | 296 | azərb. | | + | | | |
| 107 | Siçanlı | 36 | 156 | 146 | 302 | kürd | + | | | | |
| 108 | Xartlıq | 21 | 92 | 70 | 162 | azərb. | | + | | | |
| 109 | Yanıx | 23<br>30 | 81<br>148 | 6997 | 150<br>245 | kürd<br>azərb. | 81<br>69 | 148<br>97 | | | |
| | **IV MƏZRƏ SAHƏSİ** | | | | | | | | | | |
| 110 | Cil (1-ci k/cəmiyyəti) | 98 | 306 | 281 | 587 | azərb. | | + | | | |
| 111 | Ağbulaq | 83 | 318 | 257 | 575 | azərb. | + | | | | |
| 112 | Babacandərəsi | 23 | 92 | 81 | 173 | azərb. | | + | | | |
| 113 | Quşçu dərəsi(Pəmbəkli) | 47 | 120 | 117 | 237 | azərb. | | | | 89<br>14 | 107<br>16 |
| 114 | Nadejdeno (Şorcalı) | 44 | 103 | 123 | 226 | rus | | + | | | |
| 115 | Ardanış | 91 | 329 | 273 | 602 | azərb. | | + | | | |
| 116 | Sədənəxaç | 35 | 117 | 97 | 214 | azərb. | | + | | | |
| 117 | Toxluca | 104 | 371 | 310 | 681 | azərb. | | + | | | |
| 118 | Böyük Məzrə (Quluağalı) | 207 | 726 | 653 | 1379 | azərb. | | = + | | | |
| 119 | Kiçik Məzrə | 134 | 508 | 470 | 978 | azərb. | | + | | | |
| 120 | Ağkilsə | 54 | 180 | 141 | 321 | azərb. | | + | | | |
| 121 | Yellicə Qaraqoyunlu | 85 | 315 | 276 | 591 | azərb. | 85 | 230 | | | |
| 122 | Zarzebil | 94 | 349 | 304 | 653 | azərb. | | + | | | |
| 123 | Zod | 162 | 610 | 478 | 1088 | azərb. | 337<br>246 | 273<br>232 | | | |
| 124 | İnəkdağı | 62 | 248 | 221 | 469 | azərb. | 186 | 62 | | | |
| 125 | Kəsəmən | 81 | 247 | 245 | 492 | azərb. | | + | | | |
| 126 | Oğruca (Qaraiman) | 91 | 312 | 257 | 569 | azərb. | | + | | | |
| 127 | Sultanəli qışlağı (Canəhməd) | 67 | 192 | 156 | 348 | azərb. | | + | | | |
| 128 | Şişqaya | 136 | 482 | 423 | 905 | azərb. | | + | | | |

1886-cı ildə aparılmış kameral təsvirin nəticəsinə görə Yeni Bəyazid qəzasında 16 kənd icmasında birləşmiş 128

kənd qeydə alınmışdır. Bunlardan 62 azərbaycanlı, 43 erməni, 14 qarışıq, 6 rus və 3 kürdlər yaşayan kənd olmuşdur. Qəzada əhalinin ümumi sayı 103611 nəfər (10104 ev) idi. Bunlardan 29523 nəfər azərbaycanlı (4392 ev), 68793 nəfər erməni (7868 ev), 2567 nəfər rus (436 ev), 2443 nəfər kürd (353 ev), 143 nəfər mordvan (26 ev) idi. Əhalinin xüsusi çəkisində ermənilər 66,4%, azərbaycanlılar 28,49%, ruslar 2,48%, kürdlər 2,36% və nəhayət, mordvanlar 0,14% təşkil edirdilər.[1]

Müxtəlif illərdə aparılmış siyahıyaalmalar da Yeni Bəyazid qəzasında etnodemoqrafik vəziyyətin qeyri-sabitliyindən xəbər verir. Belə ki, 1897-ci ildə burada azərbaycanlıların sayı 37,7 min nəfər, 1905-ci ildə 41,8 min nəfər, 1916-cı ildə 50,7 min nəfər olmuşdur. Azərbaycanlıların xüsusi çəkisi 1897-ci ildə 28,3%, 1905-ci ildə 28,7%, 1916-cı ildə 26,9% olmuşdur. Ermənilərin sayı 1897-ci ildə 81,1 min, 1905-ci ildə 91,6 min, 1916-cı ildə 129,6 min nəfər olmuşdur.[2]

Bu faktlardan göründüyü kimi, qəzada ermənilərin sayı köçürülən ermənilər hesabına xeyli artmış, azərbaycanlıların sayında isə orta illik artım 3-10 min nəfər arasında tərəddüd etmişdir. Əlbəttə ki, azərbaycanlıların artımının ermənilərə nisbətən geriləməsinin səbəblərindən biri də onların gəlmə ermənilər tərəfindən sıxışdırılmaları olmuşdur. Bu, daha çox 1905-1906-cı illərdə İrəvan quberniyasında azərbaycanlılara qarşı törədilən qırğınlar zamanı özünü daha qabarıq şəkildə büruzə vermişdir.

Beləliklə, XX əsrdə çar Rusiyasının aborigen türk əhali-

---

[1] Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии, с.52-60.

[2] Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, s.28.

sinin deportasiyası, ermənilərin köçürülməsi hesabına Göyçə mahalının yenidən məskunlaşdırılması istiqamətində həyata keçirildiyi planlı, məqsədyönlü siyasətin gedişində bölgənin etnik-demoqrafik xəritəsi büsbütün dəyişmiş, burada ermənilərin sayının sürətlə artmasına müvafiq olaraq azərbaycanlıların sayı kəskin surətdə azalmış, bu yolla Qərbi Azərbaycanın digər əraziləri ilə yanaşı Göyçə mahalının da aborigen Azərbaycan türklərindən təmizlənməsi üçün zəmin hazırlanmışdır.

Onu da qeyd etmək lazımdır ki, həm XIX əsrin ilk illərinin müharibələri dövründə hərbi əməliyyatlar zamanı, həm də kütləvi erməni köçürmələri nəticəsində Göyçənin aborigen türk əhalisinin müxtəlif yollarla sıxışdırılması prosesləri həyata keçirilmiş, nəticədə əhalinin müəyyən hissəsi qonşu bölgələrə, hətta qonşu müsəlman ölkələrinə üz tutmuşdu ki, bu da demoqrafik duruma, əhalinin etnik tərkibindəki nisbətin dəyişməsinə təsir etməyə bilməzdi.

Yeni Bəyazid qəzasının cənub-qərb hissəsi isə Havarçayın mənsəbindən başlayaraq Ağmanqan dağlarına qədər, qərbdən və cənubdan Paltəpə dağlarından Alagöllərinbaşı dağlarına qədər uzanmaqla İrəvan və Şərur-Dərələyəz, Cavanşir qəzaları ilə həmsərhəd idi. Bu qəza şərqdən Gilli və Göyçə göllərini birləşdirən çaylara qədər, şimal və şimal-şərqdə isə Göyçə gölü sahili və Şorgöl meşələrinə qədər uzanırdı.[1]

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində də İrəvan bölgəsinin inzibati-ərazi bölgüsündə nəzərə çarpacaq əhəmiyyətli dəyişikliklər baş vermədi. Bütün bu dövr ərzində Göyçə mahalı Yeni Bəyazid qəzasının tərkibində qaldı.

XX əsrin əvvəllərində bütün Rusiya imperiyası ərazilə-

---

[1] Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Новобаязетского уезда Эриванской губернии, с.315.

rində və o cümlədən də Cənubi Qafqazda baş verən inqilabi çıxışlar, milli-azadlıq hərəkatının nəticəsində çar üsul-idarəsinin devrilməsi və yeni müstəqil milli dövlətlərin yaranması bütün sahələrdə olduğu kimi bölgənin tarixi coğrafiyasında da yeni reallıqlar yaratdı. 90 illik fasilədən sonra milli dövlətçilik ənənələrimizin yenidən bərpa olunması və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra milli dövlətimizin xarici siyasətinin əsas prioritet kəsb edən hədəflərindən biri də tarixi torpaqlarımızın yenidən milli dövlətimizin tərkibinə qatılması məsələsi oldu. 1918-ci ilin yazında Cənubi Qafqazda üç dövlətin – Azərbaycan, Ararat və Gürcüstan Respublikalarının təxminən eyni vaxtda öz müstəqilliklərini elan etməsi bu dövlətlərin təcili öz sərhədlərini müəyyən etmək zərurətini də meydana çıxardı. İrəvan şəhərinin Ermənistanın paytaxtı elan edilməsinə icazə verilməsi barədə erməni nümayəndələrinin Azərbaycan hökumətinə israrlı müraciətindən sonra Batumda 1918-ci ilin mayın 29-da iki dövlətin nümayəndələri arasında danışıqlar keçirildi. Osmanlı dövlətinin ciddi təzyiqlərindən sonra Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiədzin qəzasının Ermənistana verilməsinə razılaşdı və bununla bağlı Azərbaycanın Müvəqqəti Milli Şurasının iclasında qərar qəbul edildi. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər.

Elə həmin qərarla da tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan torpaqlar – Göyçə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Azərbaycan Xalq Cümhuriyyətinin qərb sərhədləri Göyçə gölü ilə məhdudlaşdı. Göyçə gölü iki respublika – Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq

hissəsi «Göyçə dairəsi» statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bəyazid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göyçə gölünün şimalındakı Maralicə dağın qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı.[1]




Paris Sülh Konfransına (18 yanvar 1919 – 21 yanvar 1920) təqdim olunçuş rəsmi Azərbaycan xəritəsi

Azərbaycan Milli Şurasının 29 may 1918-ci ildə qəbul etdiyi bu qərar, atdığı bu addım həqiqətən də «kobud səhv və ümummilli mənafeyə vurulmuş ağır zərbə", tələsik çıxarılmış qərar idi. Lakin onu da qeyd edək ki, 23 aylıq fəaliyyəti dönəmində milli hökumət bütün istiqamətlərdə olduğu kimi qonşu dövlətlərlə ərazi problemləri məsələsinin həllində də ardıcıl

[1] Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, s.57.

və qətiyyətli şəkildə yalnız milli mənafelərimizi nəzərə almaqla fəaliyyət göstərirdi. Gərgin proseslər fonunda cümhuriyyət rəhbərliyinin Göyçə gölünün heç olmazsa şərq hissəsinin əlimizdə saxlamasına nail olması və burada Göyçə dairəsi adlı inzibati vahidin yaradılması özü böyük bir uğur idi. Bölgəyə nəzarətə tam nail olunmamasının səbəbini isə təkcə milli hökumətin qətiyyətsiz mövqeyi ilə yox, həm də o zamankı gərgin beynəlxalq siyasi vəziyyət, Cənubi Qafqazda cərəyan edən proseslər, Osmanlı dövlətinin ziddiyyətli mövqeyi, ən əsası isə çar Rusiyasının yüz illik məqsədyönlü işğalçılıq fəaliyyətinin nəticələrində axtarmaq lazımdır.

Mübahisəli ərazilər nəzərə alınmasa Azərbaycan Xalq Cümhuriyyətinin qərb sərhədləri Naxçıvanın cənubi-qərbində Sədərək yaşayış məntəqəsinə çatır və buradan şimali-şərq istiqamətində, Soğanlı məntəqəsindən isə birbaşa şimala gedərək Göyçə gölünə qovuşurdu. Göyçə gölü Azərbaycan Xalq Cümhuriyyəti ilə Ararat Respublikası arasında sərhəd idi və Göyçə mahalının şərq hissəsi Azərbaycanın, gölün qərbi isə Ararat Respublikasının tərkibində idi.[1]

Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz sahələrinin inzibati-ərazi bölgüsü – quberniyalar, qəzalar, dairələr demək olar ki, əvvəlki kimi qalmışdı, yeganə dəyişiklik Göyçə gölünün şərq hissəsində təsis olunmuş «Göyçə dairəsi» idi.[2]

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ərazi məsələsinə baxıldıqda, Yeni Bəyazid qəzasının 1-ci və 2-ci polis sahələri mübahisəsiz Azərbaycan ərazisi, 3-cü polis sahəsinin bir hissəsi isə mübahisəli ərazilər sırasına daxil edil-

---

[1] Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, s.59.
[2] Yenə orada.

miş, Azərbaycan daxilində Göyçə dairəsi yaradılmışdı. Xarici işlər nazirliyinin məlumatına görə, "Göyçə rayonu" adı altında Göyçə gölü və Kiçik Qafqaz dağları arasında yerləşən İrəvan quberniyası Yeni Bəyazid qəzasının şərq hissəsi nəzərdə tutulurdu. Göyçə mahalının əhalisi özünü Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı.[1]

Azərbaycan hakimiyyətinin son günlərində parlamentin qəbul etdiyi sonuncu qanun da bu qəbildən əhəmiyyətli məzmun daşıyır. 1920-ci il aprelin 22-də Şamxor qəzasının yaradılması barədə 5 bənddən ibarət xüsusi qanun qəbul edildi. Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının Yeni Bəyazid qəzasının ona bitişik hissələrində yaradılırdı. 34 kənd icmasının daxil edildiyi Şamxor qəzasına İrəvan quberniyasının Yeni Bəyazid qəzasının, yəni tarixi Göyçə mahalının kəndləri də (Cil, Məzrə, Zod, Basarkeçər, Sarıyaqub və b.) daxil idi. Lakin 5 gün sonra cümhuriyyət hakimiyyətinin devrilməsi bu qanunun gerçəkləşdirilməsinə imkan vermədi.[2]

Bu faktlar da aydın şəkildə göstərir ki, bütün beynəlxalq təzyiqlərə və daxili gərginliklərə baxmayaraq Cümhuriyyət rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və qorunub saxlanmasında nə dərəcədə böyük israrlı mövqe nümayiş etdirirdi.

Rus-bolşevik təcavüzü nəticəsində Azərbaycanın müstə-

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider nəşriyyat, 2005, 440 s., s. 429.

[2] Əhmədova F. Cümhuriyyət parlamentinin sonuncu qanunu: Gerçəkləşməyən qanunda itiriləcək Azərbaycan torpaqlarına sahiblik təsbit olunmuşdu // Füyuzat jurnalı №5(49), Bakı, 2009, s.63.

qilliyinə son qoyulduqdan, 1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan, onun ərazisində Azərbaycan Sovet Sosialist Respublikası təsis olunduqdan sonra ölkə ərazilərinin itirilməsi prosesi daha da sürətləndi. Aprel çevrilişindən sonra ermənilərin Azərbaycana qarşı olan ərazi iddiaları daha da genişləndi. Sovet Rusiyasının, daha sonra isə Sovet rəhbərliyinin havadarlığına bel bağlayan ermənilər XI Qızıl Ordunun köməyindən istifadə edərək hələ Azərbaycan Xalq Cümhuriyyəti vaxtında mübahisəli ərazilər kimi qələmə verilən, əslində isə mübahisəli ərazilər olmayan Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və Şərur-Dərələyəz torpaqları ilə yanaşı Göyçə gölünün şərq ərazilərini qamarlamaq niyyətlərini də həyata keçirməyə başladılar. 1920-ci ilin yayında Dro və Njdenin başçılığı altında ermənilərin bölgədə, o cümlədən Göyçənin mərkəzi Basarkeçərdə həyata keçirdikləri qırğınlar nəticəsində əslində bu bölgə də erməni daşnaklarının nəzarəti altına keçdi. 1920-ci il avqustun 10-da Sovet Rusiyası ilə Ararat Respublikası arasında imzalanan müvəqqəti sazişə görə qeyd-şərtsiz Ermənistana keçən ərazilərə Şərur-Dərələyəzlə yanaşı Göyçə gölünün şərq hövzəsi də aid idi.

Erməni daşnakları ilə apardığı bir neçə aylıq müharibəni uğurla başa çatdıran yeni Türkiyə hökuməti də Sovet Rusiyasının maraqlarını nəzərə alaraq əlində olan imkanlardan tam istifadə etmədi və 1920-ci ilin dekabrın 2-də Ermənistan ilə imzaladığı Gümrü (Aleksandropol) müqaviləsi ilə bütün digər Ermənistan ərazilərini himayəsinə alsa da İrəvan bölgəsi və Göyçə gölü hövzəsinin ermənilərdə qalmasına razılıq verdi. Bu addım Göyçə gölü hövzəsinin itirilməsi prosesini daha da sürətləndirdi.

1905-1906-cı və 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilən qətliyamlar və soyqırımından sonra Basarkeçərdən didərgin salınaraq Azərbaycanın digər ərazilərində, habelə Cənubi Azərbaycan və Türkiyə torpaqlarında sığınacaq tapmış azərbaycanlı əhalinin (26918 nəfər) bir hissəsi (11413 nəfər) sovet hakimiyyətinin ilk dövrlərində çox çətinliklə də olsa öz yurdlarına geri qayıtmağı bacardı.

SSRİ-nin 1926-cı il yanvarın 1-ə olan ərazi inzibati bölgüsündə ZSFSR-in tərkibinə daxil olan Ermənistan SSR-nin inzibati cəhətdən 8 qəzadan, 936 nahiyədən və 827 kənd sovetindən ibarət olduğu bildirilirdi.[1] Həmin qəzalardan biri də Göyçə gölü hövzəsini əhatə edən Yeni Bəyazid qəzası idi.

XX əsrin 20-ci illərinin sonunda Cənubi Qafqazda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. Həmin dəyişikliklərin gedişində qəzaların ləğv edilməsi lazım bilindi və rayonlaşdırmanın əsasında üç dərəcəli bölgü – dairə, rayon, kənd sovetləri yaradıldı.

1930-cu ildə "İrəvan quberniyası" inzibati bölgüsü ləğv olundu. Ermənistan SSR-nin ərazisində 5 dairə təşkil olundu: Zəngəzur, Leninakan, Lori, Sevan və Yerevan. Göyçə gölü hövzəsinə daxil olan torpaqlar Sevan dairəsinin tərkibinə daxil idi. Bu ərazilərdə 3 rayon – Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları yaradıldı.

Yeni Bəyazid rayonu da 1930-cu il sentyabrın 9-da Er-

---

[1] Территориальное и административное деление союза ССР на 1-е января 1926 г. Народный комиссариат внутренних дел. Статистический отдел. Издательство Главного Управлений Коммунального Хозяйства НКВД. Москва: 1926. 284 с., с.21.

mənistan SSR-nın şimalında, Göyçə gölü sahilində təşkil olunmuşdu. O, Abovyan, Axta (Hrazdan), Sevan və Martuni rayonları ilə həmsərhəd idi. Ərazisi 637 kv km idi. 1978-ci il məlumatına görə rayonda 26704 nəfər əhali yaşayırdı.[1] 1959-cu ildən etibarən rayonun adı dəyişdirilərək Kamo adlandırılmışdır.[2] Rayona verilən bu ad erməni daşnak və bolşevik təşkilatının üzvü olan Simon Arşakoviç Ter-Petrosyanın inqilabı təxəllüsü olmuş "Kamo" adından götürülmüşdür.

Yeni Bəyazid (Kamo) rayonunun tərkibinə Abbasgölü (Güllücə), Ağqala, Ağzıbir, Başkənd, Qul Əli, Əyrivəng, Əli kənd, Çopur Əli, Əhmədli, Kəvər (Yeni Bəyazid), Noraşen, Hacı Muğan, Hüseynbəyli kimi kənd və yaşayış məntəqələri daxil idi.[3]

Amma hamıya məlum idi ki, buranın erməni əhalisinin Qafqaz kökləri yox idi. Buranın yerli, avtoxton əhalisi məhz Azərbaycan türkləri olmuşdur. Təsadüfi deyildir ki, K.Sevanskinin hələ 1926-cı il 12 oktyabr tarixli 1299 saylı "Zarya Vostoka" qəzetində dərc olunmuş məqaləsində ermənilərin ancaq 1828-ci ildə Osmanlı imperiyasının Bəyazid paşalığından Göyçə mahalına köçürüldüyünün 100 illiyinin tamam olduğu qeyd edilirdi.[4]

Aşağı Qaranlıq (Martuni) rayonu Göyçə gölünün cənubqərbindəki əraziləri əhatə edirdi. O Yeni Bəyazid (Kamo) və

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, s.295.

[2] Большая Советская Энциклопедия, том 11, 3-й выпуск. Москва: 1973, с. 282.

[3] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.295.

[4] Севанский К. Столетие Нор-Байазета // Заря Востока, 1926, 12 октября, №1299.

Basarkeçər (Vardenis) rayonları ilə həmsərhəd idi. Sahəsi 1 185 kv km olan bu rayonda 1981-ci il məlumatlarına görə 71 727 nəfər əhali yaşayırdı. Martuni rayonun adı əvvəl Yeni Bəyazid qəzasına daxil olan Aşağı Qaranlıq kəndinin adı idi və ancaq 1926-cı ildən etibarən belə adlandırılmışdı.[1] Martuni adı Aleksandr Fyodoroviç Myasnikyan adlı erməni sovet inqilabçısının təxəllüsü olan "Martuni" adından götürülmüşdür.[2]

Martuni rayonunun tərkibinə Aşağı Alçalı (Ardzvanisit), Aşağı Gözəldərə (Vartenik), Vəliağalı (Zorakyuğ), Qızılxaraba (Əyricə), Yanıq, Yuxarı Alçalı (Ardzvanisit), Karvansara, Kəsikbaş (Lernkert), Mədinə, Xartlıq (Zaxqaşen) kəndləri daxil idi.[3]

İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra təşkil olunan Erməni vilayətinin Göyçə qəzasına daxil olan 59 kənddən biri də Basarkeçər idi.[4] Toponim qıpçaq mənşəli bazar//basar etnoniminə qeyri-qəti gələcək zamanda işlənən "keçər" sözünün qoşulmasından əmələ gəlmişdir, «Bazar//basar tayfasının keçdiyi, getdiyi yer» mənasını bildirir. «...bazar sözü mürəkkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın bir komponenti... yerində işlənir».[5] Basarkeçər də 1849-cu ildə təşkil olunan İrəvan quberniyasının Yeni Bəyazid qəzasına daxil edilmişdi.

1930-cu il sentyabrın 9-da Göyçə mahalında yaradılmış rayonlardan biri də Basarkeçər rayonu idi. Ümumi sahəsi təxminən 1120 kv km olan rayon bir tərəfdən Göyçə gölü, Ermənistanın Krasnoselo və Martuni rayonları, digər tərəfdən isə

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.301-302.
[2] Большая Советская Энциклопедия, том 17, 3-й выпуск. Москва: 1974, s 180.
[3] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.301-302.
[4] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, с. 592.
[5] Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, s. 122.

Azərbaycan SSR-in Kəlbəcər və Gədəbəy rayonları ilə həmsərhəd idi. Rayonun mərkəzi Basarkeçər şəhər tipli qəsəbə idi.

## BASARKEÇƏR RAYONU[1]

Mərkəzi – Basarkeçər kəndi

| Ərazisi 1120 kv km | İnzibati ərazi vahidlərinin sayı |
|---|---|
| Yaxın dəmir yol stansiyasının adı və orayadək məsafə – İrəvan – 178 km | Kənd sovetləri . . . . . . . . . . . . . 19 |
| İrəvandan Basarkeçər kəndinədək olan məsafə – 178 km | |
| Rayonun yarandığı tarix 9 sentyabr 1930-cu il | |

Kənd sovetləri və onların mərkəzləri

| № | Kənd sovetlərinin adları | Kənd sovetləri mərkəzinin adları | Rayon mərkəzinədək olan məsafə | Ərazisi kv km-lə | Kənd sovetlərinin ərazisində olan yaşayış məskənləri |
|---|---|---|---|---|---|
| 1. | Akunk | Akunk (Qırxbulaq) | 4 | 36 | Akunk kəndi |
| 2. | Basarkeçər | Basarkeçər | – | 38 | Basarkeçər kəndi |
| 3. | Daşkənd | Daşkənd | 8 | 26 | Daşkənd kəndi |
| 4. | Canəhməd | Sultan Əli qışlağı (Canəhməd) | 15 | 43 | Canəhməd kəndi, Ağyoxuş kəndi (Zod sovxozu), İnəkdağ kəndi |
| 5. | Zərkənd | Zərkənd (Zərzibil) | 16 | 27 | Zərkənd kəndi, Azad kəndi (Ağkilsə kəndi) |
| 6. | Zod | Zod | 18 | 41 | Zod kəndi |
| 7. | Qaraiman | Qaraiman (Oğruca) | 12 | 19 | Qaraiman kəndi |
| 8. | Qarcaxbyur | Gödəkbulaq | 10 | 27 | Qarcaxbyur kəndi |
| 9. | Qayabaşı | Qayabaşı | 6 | 23 | Qayabaşı kəndi, Qoşabulaq kəndi, Sarıyaqub kəndi |

[1] Армянская ССР. Административно-территориальное деление. Ереван: АрмГИЗ, 1948, с. 23.

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. | Kərkibaş | Kərkibaş | 4 | 11 | Kərkibaşı kəndi, Qamışlı (Qanlı) kəndi |
| 11. | Böyük Məzrə | Böyük Məzrə | 5 | 35 | Böyük Məzrə kəndi |
| 12. | Nərimanlı | Nərimanlı (Hüseynquluağalı) | 8 | 29 | Nərimanlı kəndi, Qaraqoyunlu (Pokr Qaraqoyunlu) kəndi, Əzizli (Böyük Qaraqoyunlu) kəndi |
| 13. | Aşağı Şorca | Nerkin Şorca | 11 | 36 | Nerkin Şorca kəndi, Verin Şorca kəndi |
| 14. | Pəmbək | Pəmbək | 27 | 40 | Pəmbək kəndi, Babacan kəndi, Dərə kəndi |
| 15. | Pokr Məzrə | Pokr Məzrə | 9 | 53 | Pokr Məzrə kəndi, Norakert kəndi, Kəsəmən kəndi |
| 16. | Tsovak | Tsovak (Nerkin Zağalı) | 7 | 15 | Tsovak kəndi |
| 17. | Çaxırlu | Çaxırlı | 4 | 49 | Çaxırlu kəndi, Tüstülü kəndi, Subatan kəndi |
| 18. | Çiçəkli | Çiçəkli (Qızılvəng) | 13 | 57 | Çiçəkli kəndi, Verin Zağalı kəndi, Yarpızlı kəndi |
| 19. | Şişqaya | Şişqaya | 18 | 49 | Şişqaya kəndi, Göysu kəndi, Güney (Satanaxaç) kəndi |

### Kənd sovetləri mərkəzinin adları

1. Akunk (Qırxbulaq) – Akunk (Qırxbulaq); 2. Basarkeçər – Basarkeçər kəndi; 3. Daşkənd – Daşkənd kəndi; 4. Sultanəli qışlağı (Canəhməd) – Canəhməd kəndi, Ağyoxuş kəndi (Zod sovxozu), İnəkdağ kəndi; 5. Zərkənd (Zərzibil) – Zərkənd kəndi, Azad kəndi (Ağkilsə kəndi); 6. Zod – Zod kəndi; 7. Qaraiman (Oğruca) – Qaraiman kəndi; 8. Gödəkbulaq (Qar-

caxbyur) – Gödəkbulaq (Qarcaxbyur kəndi); 9. Qayabaşı – Qayabaşı kəndi, Qoşabulaq kəndi, Sarıyaqub kəndi; 10. Kərkibaş – Kərkibaşı kəndi, Qamışlı (Qanlı) kəndi; 11. Böyük Məzrə – Böyük Məzrə kəndi; 12. Nərimanlı (Hüseyn Quluağalı) – Nərimanlı kəndi, Qaraqoyunlu (Kiçik Qaraqoyunlu) kəndi, Əzizli (Böyük Qaraqoyunlu) kəndi; 13. Aşağı Şorca – Aşağı Şorca kəndi, Yuxarı Şorca kəndi; 14. Pəmbək – Pəmbək kəndi, Babacan kəndi, Dərə kəndi; 15. Kiçik Məzrə – Kiçik kəndi, Norakert kəndi (Təzəkənd), Kəsəmən kəndi; 16. Zovak (Aşağı Zağalı) – Zovak (Aşağı Zağalı); 17. Çaxırlı – Çaxırlu kəndi, Tüstülü kəndi, Subatan kəndi; 18. Çiçəkli (Qızılvəng) – Çiçəkli kəndi, Yuxarı Zağalı kəndi, Yarpızlı kəndi; 19. Şişqaya – Şişqaya kəndi, Göysu kəndi, Güney (Satanaxaç) kəndi.

Krasnoselsk rayonu yaradılanda Basarkeçər rayonunun Ağbulaq, Ardanış, Toxluca, Cil və Şorca kəndləri həmin rayonun tərkibinə verilmişdir.

## KRASNOSELSK RAYONU[1]
## Mərkəzi – Krasnoselsk k.

| Ərazisi 689 kv.km | | İnzibati vahidlərin sayı | |
|---|---|---|---|
| Ən yaxın dəmiryolu stansiyasının adı və oraya qədər olan məsafə – Kirovakan | 96 km | Kənd sovetləri | 14 |
| İrəvandan Krasnoselsk kəndinə qədər olan məsafə | 166 km | | |
| Rayonun yaradıldığı tarix 31 dekabr 1937-ci il | | | |

[1] Армянская ССР. Административно-территориальное деление, с. 40.

## Kənd sovetləri və onların mərkəzləri

| № | Kənd sovetinin adı | Kənd soveti mərkəzlərinin adları | Rayon mərkəzinə qədər olan məsafə – km | Kənd sovetinin ərazisində olan yaşayış məskəni | Kənd sovetinin ərazisi kv.km |
|---|---|---|---|---|---|
| 1 | Ağbulaq | Ağbulaq | 14 | Ağbulaq | 31 |
| 2 | Ardanış | Ardanış | 24 | Ardanış | 30 |
| 3 | Başkənd | Başkənd | 24 | Başkənd | 38 |
| 4 | Yuxarı Çəmbərək | Yuxarı Çəmbərək | 1 | Yuxarı Çəmbərək Aşağı Çəmbərək | 31 |
| 5 | Gölkənd | Gölkənd | 21 | Gölkənd, Cıvıxlı | 33 |
| 6 | Cil | Cil | 31 | Cil | 41 |
| 7 | Qaraqaya | Qaraqaya | 27 | Qaraqaya Yanıqpəyə | 10 |
| 8 | Krasnoselsk | Krasnoselsk (Mixaylovka) | – | Krasnoselsk | 40 |
| 9 | Yeni Başgöy | Yeni Başgöy | 10 | Yeni Başgöy Martuni | 26 |
| 10 | Orconikidze | Orconikidze | 4 | Orconikidze | 22 |
| 11 | Toxluca | Toxluca | 25 | Toxluca | 23 |
| 12 | Tutucur | Tutucur | 7 | Tutucu | 18 |
| 13 | Çaykənd | Çaykənd | 25 | Çaykənd Əmirxeyir Bəyrəvad | 30 |
| 14 | Şorca | Şorca | 17 | Şorca | 20 |

## Kənd soveti mərkəzlərinin adları

1. Ağbulaq – Ağbulaq; 2. Ardanış – Ardanış; 3. Başkənd – Başkənd; 4. Yuxarı Çəmbərək – Yuxarı Çəmbərək Aşağı Çəmbərək; 5. Gölkənd – Gölkənd, Cıvıxlı; 6. Cil – Cil; 7. Qa-

raqaya – Qaraqaya, Yanıqpəyə; 8. Krasnoselsk (Mixaylovka) – Krasnoselsk; 9. Yeni Başgöy – Yeni Başgöy, Martuni; 10. Orconikidze – Orconikidze; 11. Toxluca – Toxluca; 12. Tutucur – Tutucur; 13. Çaykənd – Çaykənd, Əmirxeyir, Bəyrəvad; 14. Şorca – Şorca.

**Ağbulaq** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 13 km şimal-qərbdə yerləşir. 1831-ci ildə 136 nəfər, 1873-cü ildə 422 nəfər, 1886-cı ildə 575 nəfər, 1908-ci ildə 940 nəfər, 1914-cü ildə 982 nəfər, 1919-cu ildə 1329 nəfər, 1922-ci ildə kənddə 1053 nəfər, 1926-cı ildə 1113 nəfər, 1931-ci ildə 1392 nəfər, 1970-ci ildə 1542 nəfər, 1979-cu ildə 1450 nəfər azərbaycanlı yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Ağberk» edilmişdir. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°31'47"şm. e., 45°16' 46" ş.u.[3]

**Ardanış** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Göyçə (Sevan) gölünün sahilində yerləşir. Rayon mərkəzindən 23

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 86.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края. Издания Кавказского военно-топографического отдела. Тифлис, 1913, E8, 62-45, 40-45, s.4.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 23.

km şimaldadır. 1831-ci ildə 119, 1873-cü ildə 389, 1886-cı ildə 602, 1897-ci ildə 788, 1908-ci ildə 1000, 1914-cü ildə 1045, 1916-cı ildə 1158, 1919-cu ildə 1154 nəfər, 1922-ci ildə Ardanışda 1138, 1926-cı ildə 1235, 1931-ci ildə 1246, 1970-ci ildə 1993, 1979-cu ildə 2102, 1986-cı ildə 2500 nəfər azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 29'şm. e., 45°21' ş.u.[3]

**Toxluca** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 24 km cənub-şərqdə, Göyçə (Sevan) gölünün sahilində yerləşir. 1831-ci ildə kənddə 296 nəfər, 1873-cü ildə 466 nəfər, 1886-cı ildə 681 nəfər, 1897-ci ildə 935 nəfər, 1914-cü ildə 1373 nəfər, 1916-cı ildə 1330 nəfər, 1919-cu ildə 1199 nəfər, 1922-ci ildə kənddə 1176 nəfər, 1926-cı ildə 1403 nəfər, 1931-ci ildə 1723 nəfər, 1970-ci ildə 2415 nəfər, 1979-cu ildə 2632 nəfər, 1987-ci ildə 2985 nəfər azərbaycanlı əhali yaşamışdır.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[5]

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 86.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, E8, 63-00,40-30, s.18.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 40.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 90.

[5] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Draxtik» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 34' şm. e., 45° 13' ş.u.[1]

**Cil** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında azərbaycanlı kəndi. Krasnoselo rayonu təşkil edilənə kimi – 1937-ci ilədək Erm. SSR-in Basarkeçər (Vardenis) rayonunun tərkibində olmuşdur. Rayon mərkəzindən 28 km cənub-şərqdə, Göyçə (Sevan) gölünün sahilində yerləşir.

1831-ci ildə 265 nəfər, 1873-cü ildə 287 nəfər, 1886-cı ildə 587 nəfər, 1897-ci ildə 442 nəfər, 1904-cü ildə 975 nəfər, 1914-cü ildə 1035 nəfər, 1916-cı ildə 893 nəfər, 1919-cu ildə 888 nəfər, 1922-ci ildə kənddə 697 nəfər, 1926-cı ildə 824 nəfər, 1931-ci ildə 1041 nəfər, 1970-ci ildə 1595 nəfər, 1979-cu ildə 1490 nəfər, 1987-ci ildə 1500 nəfər azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

---

Кавказского края, E8, 62-45, 40-45, s.206.

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 272.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 91-92.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, E8, 63-00, 40-30, s.82.

Coğrafi koordinatları: 40° 27' şm. e., 45° 27' ş.u.[1]

**Şorca** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Şorca kəndi Göyçə (Sevan) gölünün şərqində, rayon mərkəzindən 13 km cənub-şərqində, Sevan-Zod dəmiryolunun, Sevan-Krasnoselo, Krasnoselo-Basarkeçər (Vardenis) avtomobil yollarının kənarında yerləşir. Burada azərbaycanlılarla yanaşı, XVIII əsrdə Rusiyadan sürgün edilmiş malakanlar da yaşamışdır.

1831-ci ildə kənddə 140 nəfər, 1873-cü ildə 196 nəfər, 1886-cı ildə 180 nəfər, 1904-cü ildə 329 nəfər, 1914-cü ildə 381 nəfər, 1916-cı ildə 280 nəfər, 1919-cu ildə 320 nəfər, 1922-ci ildə cəmi 6 nəfər, 1931-ci ildə 196 nəfər, 1970-ci ildə kənddə 880 nəfər, 1979-cu ildə 944 nəfər, 1987-ci ildə 1200 nəfər azərbaycanlı yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°30' şm. e., 45° 16' ş.u.[4]

Cənubi Qafqazda müsəlmanlara, ilk növbədə də Azərbaycan türklərinə qarşı genişmiqyaslı cinayətkar əməllərindən

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.82.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 92.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, E8, 62-45,40-45, s.183.

[4] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.

heç vaxt əl çəkməyən ermənilər və ruslar tərəfindən XX əsrin ortalarında azərbaycanlılara qarşı növbəti deportasiya siyasəti həyata keçirildi. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və 1948-ci il 10 mart tarixli 754 saylı sərəncamı Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı oldu. Bu cinayətkar qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olundu.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi – Respublika günü münasibətilə söylədiyi nitqində demişdir: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1948-1953-cü illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik".[1]

Həmin dövrdə bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu proses erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti nəticəsində həyata keçirilmişdir.

Erməni tarixçilərinə gəlincə isə onlar Ermənistan SSR-dən Azərbaycan türklərinin deportasiyasının əsas səbəbini

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.4.

Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırovun İ.V.Stalinə ünvanladığı xahiş müraciətində görürlər. Onlar belə hesab edirlər ki, azərbaycanlıların köçürülməsi iqtisadi səbəblə bağlı olmuş, onlar Kür-Araz ovalığının inkişaf etdirilməsi ilə əlaqədar köçürülmüşlər.[1] Bu da növbəti erməni yalanından başqa bir şey deyil və tarixi həqiqətdən çox-çox uzaqdır.

Tarixi faktlar onu göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistn SSR-dən köçürülməsi qərarı iqtisadi amillərlə bağlı olmayan sırf siyasi qərar idi. Məqsəd tarixi Azərbaycan torpaqları olan Ermənistan SSR ərazisindən azərbaycanlıları tamamilə çıxarmaq, əvəzində xaricdə yaşayan erməniləri bu ərazilərə köçürmək Türkiyə ilə sərhəd boyunca xristian koridorunu bir qədər də genişləndirmək idi.

Bunu 23 dekabr 1947-ci il Ermənistan SSR-dən "azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin" qərarı da təsdiq edir. Bu qərarın 11-ci maddəsində açıqca deyilir: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər".[2]

Azərbaycanlıların Ermənistan SSR-dən bu deportasiyası ərəfəsində Göyçə mahalını əhatə edən inzibati ərazi hissələrində – Krasnoselo, Basarkeçər, Martuni, Yeni-Bəyazid ra-

---

[1] Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan depor-tasiyası (1947-1953-cü illər). Bakı: Ağrıdağ, 2004, 116 s., s.11.

[2] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Müqəddimənin müəllifi və məsul redaktor A.Ə.Paşayev. Bakı: Zərdabi LTD, 2013, 784 s., s. 83.

yonlarında ümumilikdə 37850 nəfər əhali yaşayırdı. Biz bu statistikanı yaşayış sahələri üzrə aşağıdakı cədvəldə izləyə bilərik:

**Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayon və kəndlərinin siyahısı**[1]

| № | Rayonların adları və burada məskunlaşmış əhalinin sayı | Azərbaycanlıların yaşadıqları kəndlər | Azərbaycanlılar və ermənilər qarışıq yaşadıqları kəndlər |
|---|---|---|---|
| 1 | Krasnoselo-7250 nəfər | Ardanış<br>Ağbulaq<br>Cil<br>Toxluca<br>Şorca | |
| 2 | Basakeçər-14750 nəfər | Babacan<br>Pəmbək<br>Güney<br>Şişqaya<br>Göysu<br>Kəsəmən<br>Canəhməd<br>Bala Məzrə<br>İnəkdağ<br>Zod<br>Qanlı<br>Azad<br>Zərkənd<br>Nərimanlı | Böyük Məzrə<br>Yuxarı Zağalı<br>Yarpızlı<br>Çaxırlı |

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s. 236.

| № | Rayonların adları və burada məskunlaşmış əhalinin sayı | Azərbaycanlıların yaşadıqları kəndlər | Azərbaycanlılar və ermənilər qarışıq yaşadıqları kəndlər |
|---|---|---|---|
| | | Qayabaşı<br>Əzizli<br>Qaraqoyunlu<br>Sarıyaqub<br>Daşkənd<br>Aşağı Subatan<br>Çiçəkli<br>Qoşabulaq<br>Tustülü | |
| 3 | Martuni – 350 nəfər | | Yuxarı Alçalı<br>Karvansaray<br>Mədinə |
| 4 | Yeni Bəyazid –750 nəfər | | Başkənd<br>Əyrivənd<br>Ağzıbir |

Artıq yuxarıda da qeyd edildiyi kimi, 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı çıxır. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərarın faktiki reallaşdırılması üçün xüsusi bir sərəncam qəbul edir. Köçürmə ilə əlaqədar tədbirlər bu sərəncamda ətraflı şərh olunurdu.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min azər-

baycanlı kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülsün. Onlardan 10 min nəfərin 1948-ci ildə, 40 min nəfərin 1949-cu ildə və isə 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Azərbaycan SSR və Ermənistan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən 7 güzəşt haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hesablar aparılsın, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakın, o cümlədən heyvan və quşların aparılmasına da şərait yaradılsın.[1]

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı "güzəştlər" edilməsi nəzərdə tutulurdu: köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı heyvanları aparılması; köçürülən ailələrin ailə başçısına 1000[*] manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün Kür-Araz ovalığında nağd pulla hər ailə başçısına 1,5 sentner və hər ailə üzvünə isə 0,5 sentner taxıl satın almağa icazə verilsin və s.

"Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Həmin qərara əsasən Ermənistandan köçürülən kolxozçu və digər azərbaycanlı əhaliyə öz taxıl və kartoflarını Ermənistan-

---

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 8-9.

[*] Sovet-alman müharibəsi və ondan sonrakı ilk illərin sürətli inflyasiyası şəraitində bu çox cüzi məbləğ idi – B.Ə.

da taxıl tədarükü orqanlarına, mal-qaranı isə ət birliklərinə təhvil verməyə icazə verilirdi. Azərbaycana gəldikdə isə burada onlar yerli taxıl tədarükü orqanlarından və ət birliklərindən müvafiq çəkidə taxıl kartof və mal-qara ala bilərdilər. Qərarda kənd təsərrüfatı banklarına tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülənlərə hər ailəyə ev tikmək üçün 20 min rubl, mal-qara almaq üçün isə 3 min rubl kredit verilsin. Kreditlərin ödənilməsi onlar verildikdən üç il sonra başlamalı, ev tikmək üçün ayrılmış kredit on il müddətinə, mal-qara almaq üçün ayrılmış kredit isə 5 il müddətinə ödənilməli idi.[1]

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin İ.Stalinin imzası ilə "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi sərəncamda göstərilirdi ki, o, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir". 1948-ci il 10 mart tarixli sərəncamda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Burada qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçən kolxozçular özləri ilə əsas istehsal vasitələrini-kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini, bütün növdən olan ev heyvanlarını və quşları, arı ailələrini, nəqliyyat vasitələri və başqa əşyaları da apara bilərlər. Dəyirmanlar, çoxillik ağaclar, elektrik stansiyaları və başqa mədəni-məişət tikililəri isə buraya daxil deyildir.[2]

Qərarda Ermənistan SSR və Azərbaycan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, bir ay müddətində Ermənistandan

---

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 9.
[2] Yenə orada, s. 10.

Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı kolxozçular və digər azərbaycanlı əhalinin Ermənistandan köçürülə bilməyən əmlakının haqqının ödənilməsi qaydaları müəyyənləşdirilsin. Bu respublikaların nazirlər sovetlərinə tapşırılırdı ki, öz əmlakını satmaqda köçürülən əhaliyə kömək etsinlər.

Qərarda Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən kolxoz təsərrüfatları və əhalinin yerləşdirilməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilirdi. Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə tapşırılırdı ki, köçürülən kolxozçulara texniki yardım göstərilməsi, yaşayış evləri tikilməsi və yardımçı təsərrüfatlar yaradılması üçün tikinti materialları ilə köməklik etsin.

Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə icazə verilirdi ki, "Azərköçürmətikinti" kontoru əsasında Kür-Araz Düzənliyi Suvarılan Torpaqların İstifadəsi İdarəsi tabeliyində "Azərköçürmətikinti" tresti yaradılsın və həmin trestin nəzdində Salyan, Şirvan, Sabirabad və Biləsuvar rayonlarında tikinti-quraşdırma kontorları təşkil edilsin.

Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilirdi ki, Ermənistan SSR-dən azərbaycanlı kolxozçular və başqa əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə Yerevanda özünün xüsusi nümayəndəliyini açsın. Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq hazırlıq işləri üçün (layihələndirmə, köməkçi müəssisələrin tikintisi, tikinti avadanlıqlarının alınması, tikinti təşkilatlarının yaradılması və s.) 1948-ci ildə respublika üçün ayrılmış limitdənkənar vəsaitdən 11 milyon manat istifadə edilsin.[1]

---

[1] Paşayev A.Ə. Köçürülmə, s. 11.

SSRİ Nazirlər Sovetinin qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də xüsusi qərarlar qəbul etdi. Birinci qərarda həmin il Ermənistan SSR-dən köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək məsələlərindən bəhs olunurdu.

Burada Salyan, Saatlı, Sabirabad, Şirvan, Biləsuvar, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılırdı:

–1948-ci il fevralın 15-nə qədər köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq;

–onları lazımı nəqliyyat vasitələri və əmək alətləri ilə təmin etmək;

–öz yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları müəyyən etmək və uçota götürmək;

–kolxozlarda Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsinin qaydaları, şərtləri, təsərrüfat-siyasi əhəmiyyəti haqqında geniş izahat işləri aparmaq.

Azərbaycan SSR-in sovxozlar, kənd təsərrüfatı, su təsərrüfatı nazirliklərinə, Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi və Kür-Araz Su Tikintisi idarələrinə tapşırılırdı ki, 1948-ci ilin birinci yarısında köçürülənləri qəbul etmək üçün lazımi yaşayış sahələrinin hazırlanması, sovxozlarda, tikinti kontorlarında, su vuran qurğularda onların işlə təmin olunması üçün hazırlıq işləri görsünlər. Dövlət plan komitəsinə tapşırılırdı ki, kolxoz və sovxozlarda köçürülənlər üçün nəzərdə

tutulmuş yaşayış evlərinin təmiri üçün lazımi tikinti materialları ayırsın.[1]

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 14 aprel tarixli qərarında isə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları və bu qərarlardan irəli gələn vəzifələr geniş izah edilir, bunların yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələr dəqiqləşdirilirdi.

Azərbaycan K(b)P Mərkəzi Komitəsi 1948-ci il aprel ayının 13-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında" qərar, Azərbaycan SSR Nazirlər Soveti isə 1948-ci il mayın 13-də bu məsələ ilə əlaqədar əlavə qərar qəbul etdi.

Hələ 1948-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi H.Seyidov Ermənistanda olmuşdular. Onlar Ermənistan SSR rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonlara yollanaraq kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri aparmışdılar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə Basarkeçər, Vedi, Artaşat, Noyenberyan, Oktenberyan, Zəngibasar və başqa rayonlardan Azərbaycana 2757 təsərrüfatın (12177 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və

---

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 12.

Voroşilov rayonlarında, habelə Gədəbəy, Xanlar, Şamxor, Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan kənd rayonlarında yerləşdirilməli idi.[1]

Göyçə mahalının inzibati ərazi vahidlərindən 1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-yə köçürülməsi ilə bağlı nəzərdə tutulan planı aşağıdakı cədvəldə görə bilərik:

**1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə koçürülməsi ilə bağlı plan**[2]

| Rayonlar və kəndlər | Təsərrüfatların ümumi sayı | əhalinin ümumu sayı | Yazda köçürüləcək | | Payızda | |
|---|---|---|---|---|---|---|
| | | | Təsərrüfat-ların sayı | Əhalinin sayı | Təsərrüfatl arın sayı | Əhalinin sayı |
| 1. Basarkeçər r-nu | | | | | | |
| Yuxarı Zağalı | 71 | 287 | - | - | 71 | 287 |
| Çaxırlı | 148 | 748 | - | - | 148 | 748 |
| Qanlı | 66 | 343 | - | - | 66 | 343 |
| 2. Martuni r-nu | | | | | | |
| Mollalı | 33 | 193 | - | - | 33 | 193 |
| Karvansaray | 25 | 144 | - | - | 25 | 144 |
| 3. Yeni-Bəyazid r-nu | | | | | | |
| Qeqarakuni | 18 | 69 | - | - | 18 | 69 |

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 14.
[2] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.233.

| Rayonlar və kəndlər | Təsərrüfatların ümumi sayı | əhalinin ümumu sayı | Yazda köçürüləcək | | Payızda | |
|---|---|---|---|---|---|---|
| | | | Təsərrüfat-ların sayı | Əhalinin sayı | Təsərrüfatl arın sayı | Əhalinin sayı |
| Muxan | 15 | 80 | - | - | 15 | 80 |
| Ağqala | 31 | 204 | - | - | 31 | 207 |
| Lçap | 57 | 337 | - | - | 57 | 337 |

Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına ilk köçkünlər 1948-ci il iyunun əvvəllərində gəlmişdir. Azərbaycan SSR Sovxozlar Nazirliyinin həmin il iyunun 19-da verdiyi məlumatda bildirilirdi ki, qəbul olunan ilk eşelonlarla 44 azərbaycanlı ailəsi gəlmiş, onlar Jdanov (indiki Beyləqan) rayonundakı sovxozlarda yerləşdirilmişdir. Məlumatda göstərilirdi ki, gələnlər təmir olunmuş mənzillərlə təmin edilirlər. Onlar özləri ilə lazımi ev əşyaları gətirmiş, sovxozlar onları miçətkən ilə təmin etmiş, istəyənlər üçün bostan sahələri ayrılmış və imkan daxilində onlara toxum da verilmişdir. Əmək qabiliyyətli əhali işlə təmin edilmişdir. Onlar əsasən bağlarda və bostanlarda işlə təmin edilmişlər. "Köçürülənlər arasında bir neçə nəfər ixtisaslı traktorçu da var və onlar müvəffəqiyyətlə pambıq tarlalarında kultivasiya işi ilə məşğul olurlar". Məlumatda bildirilirdi ki, "bu günlərdə əlavə 23 ailəni qəbul etməyə hazırlaşırıq".[1]

Köçürmənin birinci ili Kür-Araz ovalığında hazır yaşayış evləri, həyətyanı sahələr və suvarılan torpaqlar olmadığı

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 16.

üçün əhalinin bir hissəsi Azərbaycanın boş yaşayış evləri olan rayonlarına köçürülürdü. Habelə Ermənistan SSR-in bir sıra dağ rayonları sakinlərinin tələbi ilə onlar düzən rayonlarının təbii şəraitinə davam gətirə bilməyəcəkləri üçün onları Azərbaycanın dağ rayonlarına köçürməyi xahiş edir və birinci il buna nail olurlar.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürməsinin nəticələri göstərdi ki, qırx min nəfər adamı yerləşdirmək o qədər də asan məsələ deyil. Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfər nisbətən daha çox mənzil ehtiyatı olduğu onların eyni bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına baxmayaraq onların çoxu qaramal tövlələrində yerləşdirilmişdi. Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi.[1]

1948-1953-cü illərdə Ermənistan SSR-in tərkibində olan Göyçə mahalını əhatə edən Basarkeçər, Yeni Bəyazid (Kamo), Aşağı Qaranlıq (Martuni) rayonlarından da azərbaycanlı əhali zorla köçürülməyə məruz qalmışdır.

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürülmə planına salınmışdır. Lakin rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağallı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi 1948-ci ildə köçürülməyə məruz qalmışdır.[2]

---

[1] Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s. 17.

[2] Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən

1948-1953-cü illərdə Basarkeçər rayonundan əhalinin Azərbaycan SSRİ-yə köçürülmə planını aşağıdakı cədvəllərdə izləyə bilərik.

**1948-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmə planı[1]**

| Ermənistan SSR-dən haradan, nə qədər və nə vaxt köçürülənlər | | | | | | | | Azərbaycan SSR-də köçürülənlər üçün nəzərdə tutulmuş | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Miqdarı | | O cümlədən | | | | Rayon | Kənd | Kolxoz | Miqdarı | | O cümlədən | | | |
| | | | | Yazda | | Payızda | | | | | | | Yazda | | Payızda | |
| | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | | | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qızıl-vəng | 54 | 245 | 54 | 245 | - | - | Gədəbəy | Novo-saratovka | «Qırmızı Oktyabr» | 70 | 320 | 70 | 320 | - | - |
| | Tüstü-lü | 10 | 56 | 10 | 56 | - | - | | Novo-saratovka | «Qırmızı Oktyabr» | 10 | 56 | 10 | 56 | - | - |
| | Yar-pızlı | 118 | 569 | 118 | 569 | - | - | | Novo-saratovka | Voroşilov adına | 118 | 569 | 118 | 569 | - | - |
| | | | | | | | | | Arıqı-ran | Zakfe-derasiya | 57 | 263 | 57 | 263 | - | - |
| | Zağalı | 57 | 263 | 57 | 263 | - | - | Xanlar | Xanlar | Telman adına | 100 | 400 | 100 | 400 | - | - |

xalqımızın başına gətirilmiş faciələr. Bakı: Nurlar, 2008, 320 s.195.

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.171-173.

| Ermənistan SSR-dən haradan, nə qədər və nə vaxt köçürülənlər | | | | | | | | Azərbaycan SSR-də köçürülənlər üçün nəzərdə tutulmuş | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Miqdarı | | O cümlədən | | | | Rayon | Kənd | Kolxoz | Miqdarı | | O cümlədən | | | |
| | | | | Yazda | | Payızda | | | | | | | Yazda | | Payızda | |
| | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | | | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər |
| | Zod | 70 | 403 | 70 | 403 | - | - | Şamxor | Lenin kənd | Həzi Aslanov adına | 50 | 200 | 50 | 200 | - | - |
| | | | | | | | | | Şamxor | Klara Setkin adına | 50 | 200 | 50 | 200 | - | - |

**1948-ci il üçün təsdiq olunmuş plana uyğun olaraq Ermənistan SSR-dən köçürülmüş kolxozçular haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin məlumatı sentyabr 1948-ci il[1]**

| Haradan və nə qədər köçürülür | | | | Harada və nə qədər məskunlaşdırılır | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Təsərrüfat | Nəfər | Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Yarpızlı | 118 | 569 | Gədəbəy | Novoivanovka | | 118 | 569 |
| | | | | Gədəbəy | Arıqıran | Voroşilov | | |
| | Zağalı | 57 | 263 | Gədəbəy | Orconikidze | adına | 57 | 263 |
| | | | | Gədəbəy | Ağamalı | «Zakfede- | | |
| | Çaxırlı | 145 | 515 | Gədəbəy | Maarif | rasiya» | 145 | 515 |
| | | | | Gədəbəy | Alekseyevka | | | |
| | **Cəmi:** | **320** | **1347** | | | **Cəmi:** | **320** | **1347** |

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.218.

## 1948-ci ildə azırbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülməsi haqqında[1]

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər | Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qızılvəng | İnternasional | 87 | 358 | Gədəbəy | Novaya Saratovka | Qırmızı Oktyabr | 87 | 235 |
| | Tustülü | İnternasional | 18 | 87 | Gədəbəy | Novaya Saratovka | Qırmızı Oktyabr | 18 | 87 |
| | Zod | Kirov ad. | 95 | 502 | Xanlar | Xanlar | Telman ad. | 95 | 502 |
| | Çaxırlı | | 26 | 136 | Gədəbəy | - | - | 26 | 136 |
| | Yarpızlı | Kirov ad. | 151 | 662 | Gədəbəy | - | - | 151 | 662 |

## 1949-cu il noyabrın 5-dək Ermənistan SSR-dən kolxozçu-ların və onların təsərrüfatlarının köçürülməsi sahəsində həyata keçirilmiş işlərin vəziyyəti haqqında Köçürmə idarəsinin rəisi N.D.Allahverdiyevin Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini İ.K.Abdullayevə arayışı[2]

| Haradan və nə qədər köçürülür | | | Haradan və nə qədər məskunlaşdırılır | | |
|---|---|---|---|---|---|
| Rayon | Təsərrüfat | Nəfər | Rayon | Təsərrüfat | Nəfər |
| Basarkeçər | 373 | 1725 | Yevlax | 120 | 560 |
| | | | Ucar | 90 | 394 |
| | | | Gədəbəy | 163 | 771 |

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.243.
[2] Yenə orada, s.336.

## 1953-cü ildə azırbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülməsi haqqında[1]

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** | **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** |
| Basarkeçər | Qaraimanlı | Molotov ad. | 55 | 273 | Mirbəşir | Qarraqan | Bağırov ad. | 55 | 273 |
| | Qoşabulaq | Stalin ad. | 74 | 377 | Mirbəşir | Borsunlu | Stalin ad. | 74 | 377 |
| | B.Məzrə | Kaqonoviç ad. | 17 | 90 | Mirbəşir | Borsunlu | H.Hacıyev ad. | 17 | 90 |
| | K.Məzrə | Əzizbəyov ad. | 75 | 382 | Mirbəşir | Kəngərli | Kirov ad. | 75 | 382 |
| | Basarkeçər | - | 1 | 6 | Bərdə | - | - | 1 | 6 |
| | Nərimanlı | Nərimanov ad. | 34 | 152 | Bərdə | Şərəfli | Telman ad. | 34 | 152 |
| | Daşkənd | Krasnı Paxar | 127 | 583 | Bərdə | Şirvanlı | T.Quliyev ad. | 127 | 583 |
| | Zarkənd | - | 24 | 114 | Bərdə | Mirbəşir | - | 24 | 114 |
| | Ağkilsə | Qızıl Şəfəq | 20 | 97 | Bərdə | İsmayıllı | Stalin ad. | 20 | 97 |
| | Ağkilsə | Qızıl Ordu | 5 | 27 | Mirbəşir | Qapanlı k/s | Bakı fəhləsi | 5 | 27 |

Bu dövrdə Basarkeçər rayonunun partiya komitəsinin birinci katibi Talıb Musayevin və yerli azərbaycanlı əhalinin ciddi müqaviməti rayondan azərbaycanlıların kütləvi köçürülməsinə mane olmuşdu.[2]

Ermənistan rəhbərləri türk əhalisinin olduqca sıx yaşadığı Basarkeçər rayonunun əhalisini köçürmək üçün Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Çarçoğluyan başda olmaqla respublikanın vəzifəli şəxsləri yük maşınları ilə birgə

[1] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.681.
[2] Yenə orada, s.276.

rayona gəlib, 600 ailənin köçməsini tələb etmişlər[1].

Basarkeçər RPK-nın birinci katibi Talıb Müsayevin göstərişi ilə RPK-nın əməkdaşları Y.Rzayev, T.Əmiraslanov, Q.Məmmədov və başqalarının səyi ilə rayonun azərbaycanlı əhalisinin müqaviməti təşkil edilmiş, komissiya üç gün rayonda qaldıqdan sonra 150 boş maşınla geri qayıtmışdır.[2]

T.Musayev köçürmə işində yol verdiyi səhv və nöqsanlara görə Ermənistan K(b)MK və Kirovakan Dairə Komitəsi bürosunda işdən azad edilərək ciddi partiya cəzası almışdır.[3]

Basarkeçər rayonunun tamamilə deportasiyaya məruz qalan kəndlərindən biri də Yarpızlı kəndi olmuşdur. 1931-ci ildə kənddə 547 nəfər azərbaycanlı, 284 nəfər erməni yaşamışdır. 1948-ci ildə bu kəndin azərbaycanlı əhalisi tamamilə köçürülmüş, kənd tamamilə ermənniləşdirilmişdir.[4]

1918-1920-ci illərdə ermənilər tərəfindən kütləvi qırğınlara məruz qalan və Türkiyədən köçürülən ermənilərin hesabına qarışıq kəndə çevrilən Qızılvəng kəndi də deportasiya edilən kəndlər siyahısındadır. 1931-ci ildə bu kənddə 282 nəfər azərbaycanlı, 421 nəfər gəlmə erməni əhalisi yaşayırdı. 1948-ci ildə yerli azərbaycanlı əhali zorla deportasiya edilmiş, kənd tamamilə ermənniləşdirilmişdir.[5]

---

[1] Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr, s.195.

[2] Deportasiya: azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1998, s.200; Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan depor-tasiyası (1947-1953-cü illər), s.10.

[3] Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr, s.223-224.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.288.

[5] Yenə orada, s.284.

Basarkeçər rayonunun Yuxarı Zağalı kəndi də 1948-1953-cü illər deportasiyasına məruz qalmışdır. 1916-cı ilə qədər tamamilə azərbaycan türklərinin yaşadığı bu kənddə, 1918-1920-ci illərdə ermənilər tərəfindən qırğınlara və sürgünlərə məruz qalmış bu kəndə Türkiyənin Muş vilayətindən ermənilər köçürülmüş və qarışıq kəndə çevrilmişdir. 1926-cı ildə bu kənddə 206 nəfər yerli azərbaycanlı, 397 nəfər gəlmə erməni yaşamışdır. 1948-ci ildə azərbaycanlı əhalinin bir hissəsi deportasiya edilmişdir.[1]

XX əsrin əvvəllərində erməni-daşnak qüvvələri tərəfindən qırğınlara məruz qalan kəndlərdən biri də Qanlı (Qamışlı) kəndi olmuşdur. 1916-cı ildə bu kənddə 483 nəfər azərbaycanlı yaşamış, 1918-1920-ci illərdə əhalinin bir qismi qətlə yetirilmiş, qalan hissəsi isə qovulmuşdur. 1922-ci ildə yalnız 165 nəfər kəndə qayıda bilmişdir. 1931-ci ildə azərbaycanlı əhalinin sayı 287 nəfər olmuşdur. 1948-1949-cu illərdə bütün əhali zorla Kür-Araz ovalığına köçürülmüşdür. Burada təbii-coğrafi və iqtisadi çətinliklər səbəbindən yaşaya bilməyən əhalinin bir qismi həlak olmuş, qalan hissəsi isə yenidən doğma yurdlarına qayıtmışdır[*].[2]

Göyçə mahalının Kərkibaş kəndi də zaman-zaman deportasiyalara məruz qalan kəndlərdən olmuşdur. 1919-cu ildə daşnaklar bu kəndi dağıtmış və əhalisini didərgin salmışdılar. 1920-ci ildən sonra kəndin sağ qalan qaçqınları öz doğma kəndlərinə qayıtmışdılar. 1931-ci ildə bu kənddə 224 nəfər əhali yaşamışdır. 1948-ci ildə deportasiyaya məruz qalmış və

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.288.

[*] İ.V.Stalinin ölümündən bir müddət sonra – B.Ə.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.282.

əhalinin bir hissəsi kənddən çıxarılmışdır.[1]

Basarkeçər rayonunda deportasiyaya qismən məruz qalan kəndlərdən biri də Zod kəndi olmuşdur. 1948-1951-ci illərdə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır.

Erməni vəhşiliklərinə dözə bilməyən Zod sakinləri məcburiyyət qarşısında qalaraq Azərbaycan rəhbərliyinə müraciət edərək onların köçürülməsini xahiş etmişdilər. 1948-ci ilin fevral ayında Zod kənd sakini Bala Hacıyev şəxsən özü Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olmuş və öz həmkəndliləri adından xahiş etmişdir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçməsinə icazə versin. Onların xahişi yerinə yetirilmiş və 100 ailə Xanlar rayonuna köçmüşdür.[2]

1948-1953-cü illərdə Göyçə mahalından deportasiya olunan azərbaycanlılar arasında Yeni Bəyazid rayonunun əhalisi də olmuşdur. Bu rayonun azərbaycanlılar yaşayan bir neçə kəndi də köçürülməyə məruz qalmışdır. Bu kəndlərdən biri də Ağzıbir kəndidir. Bu kənddə 1947-ci ildə 600 nəfərdən çox azərbaycanlı yaşamışdır. 1948-ci ildə bütün azərbaycanlı əhalisi zorla köçürülmüş, Azərbaycan SSR-nin Ağdaş rayonunda məskunlaşdırılmışdır.[3]

Yeni Bəyazid rayonunun Başkənd kəndi də deportasiyaya məruz qalan kəndlər arasındadır. Bu kəndə ermənilərin kütləvi şəkildə köçürülməsi nəticəsində, 1931-ci ildə ermənilərin sayı 1156 nəfərə çatmışdır. Azərbaycanlı əhali isə 194

---

[1] Yenə orada, s.289.

[2] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.25.

[3] Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, 107.

nəfər olmuşdur. 1948-1950-ci illərdə zorla deportasiya nəticəsində kənd sırf erməni kəndinə çevrilmişdir.[1]

1948-1953-cü illərdə Yeni Bəyazid rayonunun Hacı Muxan (1978-ci ildən sonra – Tsovazard), Ördəkli (Lcaşen – 1946), Güzəcik (Lancaxpyur – 1950), Ağqala kəndlərində də azərbaycanlıların deportasiyası həyata keçirilmişdir.[2]

Təkcə 1950-ci ilin yaz aylarında Yeni Bəyazid rayonunun Ağqala kəndinin Stalin adına kolxozundan 46 təsərrüfat – 237 nəfər, Muxan "Beynəlmiləl" kolxozundan 8 təsərrüfat – 46 nəfər, Ləncab kəndindən 66 təsərüffat – 368 nəfər əhali Azərbaycan SSR-ə köçürülmüşdür.[3]

1950-ci ilin payızında isə Yeni Bəyazid rayonunun Ağqala kəndindən 135 nəfər, Ləncab kəndindən 180 nəfər, Muxan kəndindən isə 27 nəfər (cəmi 342 nəfər) Azərbaycan SSR-in Ağdaş rayonuna köçürülmüşdür.

XIX-XX əsrlərdə Göyçə mahalının kütləvi şəkildə soyqırıma məruz qalmış bölgələrindən biri də Aşağı Qaranlıq (Martuni rayonu) bölgəsi olmuşdur. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına qədər bu bölgədə əsasən azərbaycanlılar yaşasa da, sonrakı dövrdə Osmanlı imperiyası ərazisindən ermənilər kütləvi şəkildə bu ərazilərə köçürülmüşdülər. Bunun nəticəsi idi ki, 1922-ci ildə burada 32104 nəfər erməni, cəmisi 363 nəfər azərbaycanlı yaşamışdır. 1948-1953-cü illərdə az sayda azərbaycanlılar yaşayan Karvansara, Mollalı, Mədinə, Qızılxaraba, Aşağı Alçalı (Artsvanist – 1968), Qaranlıq

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, 298.

[2] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s.217-220.

[3] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.414.

(Geğhovit – 1968) kəndlərindən bütün azərbaycanlı əhali deportasiya olunmuşdur.[1]

Ümumiyyətlə, Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə cəmisi 2419 ailənin (14361 nəfər) köçürülməsi üçün qərar qəbul etsə də, həmin il əslində 65 min nəfər köçürülmüşdür. 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş ailələrdən yalnız 4878-ni yaşayış evləri ilə təmin etmək mümkün olmuşdur. Bir çox ailələr tövlələrdə və digər insan yaşayışı üçün yararsız binalarda yerləşdirildikləri min bir cür xəstəlikdən, xüsusən də qızdırmadan əzab-əziyyət çəkirdilər.

1949-cu il sentyabrın 21-də vəziyyətin dözülməz olduğunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il üçün köçürülmə planını 10 min nəfərə endirsin.

1951-ci ilin əvvəlindən başlayaraq köçürülən əhalinin bir hissəsi məcbur olub Ermənistana – boşaldılmış kəndlərə geri qayıdır. Geri qayıtmanın kütləvi şəkil alacağından ehtiyat edən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Əslində isə xaricdən gələn erməniləri yerləşdirmək adı altında köçürülən kəndlər əsasən boş qalırdı.

1948-ci ildə Basarkeçər rayonunun Zod kəndindən gələn 100-dən çox ailənin 16-sı sonradan geri qayıtmışdır.[2]

948-1953-cü illərdə Göyçə mahalından deportasiya edilən azərbaycanlı yaşayış məntəqələri aşağıdakılardır:

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 301-302; Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s. 217-220.

[2] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər), s.564.

**Kəvər (Yeni-Bəyazid – Kamo) rayonundan**

1. Ağzıbir (Lcap – 1945), 2. Hacı Muxan (Tsovazard – 1978), 3. Ördəkli (Lcaşen – 1946), 4. Güzəcik (Lancaxpyur – 1950), 5. Başkənd (Qexarkunik – 1946), 6. Ağqala.

**Martuni (Aşağı Qaranlıq) rayonundan**

1. Karvansara, 2. Mollalı, 3. Mədinə, 4. Qızılxaraba, 5. Aşağı Alçalı (Artsvanist – 1968), 6. Qaranlıq (Geğhovit – 1968).

**Basarkeçər (Vardenis) rayonundan**

1. Zod (Sotk – 1991) – qismən, 2. Yuxarı Zağalı (Axpradzor – 1978), 3. Çaxırlı (Sovetakert – 1978), 4. Qanlı, 5. Qızılvəng, 6. Kərkibaş, 7. Yarpızlı.[1]

Azərbaycanlı köçkünlərin Ermənistan SSR-dən yola salınması prosesi də maraq doğuran məsələlərdən biridir. 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarının yeddinci bəndində Nəqliyyat Nazirliyinə bir vəzifə olaraq tapşırılırdı ki, azərbaycanlı əhalinin, onların mal-qarasının təchiz və dezinfeksiya edilmiş vaqonlarda xüsusi təşkil edilmiş eşelonlarla Azərbaycan SSR-ə daşınmasını təmin etsin.[2]

Bu qərardan irəli gələrək Basarkeçər, Yeni-Bəyazid, Axtadan köçürülənlər Uluxanlı stansiyasından yük vaqonlarına doldurulub İrəvan-Naxçıvan-Mincivan-Horadiz-Saatlı isti-

---

[1] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s.217-220.

[2] Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953-cü illər), s.96.

qamətində yola salınırdı. Köçkün əhali kütləvi surətdə Kür-Araz ovalığındakı Ucar, Zərdab, Əli-Bayramlı, Salyan, Saatlı, Ağdaş, Kürdəmir, Yevlax, Jdanov, Sabirabad rayonlarında yerləşdirilirdi.[1]

1948-1953-cü illərdə Ermənistan ərazisindən azərbaycanlı əhalinin köçürülməsi çox ciddi etirazlarla qarşılanmışdır. Bunu Ermənistan SSR daxili işlər naziri general-mayor X.Qriqoryanın hazırladığı məxfi arayışdan da görmək olar:

"Ermənistanın azərbaycanlı əhalisi arasında Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar əhval-ruhiyyə haqqında arayış (tamamilə məxfidir):

Basarkeçər rayonu üzrə Çaxırlı kəndində, Türkiyənin Sovet İttifaqına müharibə elan etməsi və bununla əlaqədar olaraq azərbaycanlıları köçürmələri barədə yayılmış provokasiya nəticəsində fevral ayında üç gün ərzində kolxozçular işə çıxmamışlar.

Rayonun bir sıra kəndlərində (Daşkənd, Çaxırlı, Zod) belə şayiə yayılmışdır ki, guya K(b)P rayon komitəsinin katibi Musayev yoldaş, rayon icraiyyə komitəsinin sədri Məmmədov yoldaş və digər azərbaycanlı məsul işçilər ermənilərlə əvəz edilmişlər.

Bu provokasiyalı şayiələr nəticəsində Zod kəndinin kolxozçuları işə səhlənkar yanaşmağa başlamışlar. Bu kəndin kolxozçularının əhval-ruhiyyəsinə partiya təşkilatçısı Nəsirov Gürzalı Həmid oğlunun və kənd sovetinin sədri Hacıyev Bala Əsgər oğlunun kənddən getməsi xüsusilə mənfi təsir etmişdir; həmin şəxslər Azərbaycan SSR-ə qarşıdakı köçürülmə üçün

[1] Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953-cü illər), s.97.

özlərinə yer axtarmağa getmişlər.

Şişqaya kəndində kolxozçuların xeyli hissəsi Azərbaycan SSR-ə köçmək istəmədikləri barədə qəti bəyan edirlər.

Ermənistan SSR daxili işlər naziri general-mayor X.Qriqoryan

№ 01/3745

3 may 1948-ci il. Yerevan şəhəri”.[1]

Bu məxfi sənəddən göründüyü kimi, Göyçə əhalisi bu deportasiyaya çox ciddi etiraz etmiş və bu deportasiya prosesi ciddi gərginlik şəraitində həyata keçirilmişdir.

Araşdırmalar göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların indiki Ermənistan Respublikası ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında SSRİ hökumətinin qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 23 rayonundan 100 min azərbaycanlı əhalinin könüllü köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində qərarın icrası zorakı təzyiqlər vasitəsi ilə həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200 yaşayış məntəqəsindən) 150 minə yaxın azərbaycanlı deportasiya edilmişdi.

1989-cu ildə SSRİ rəhbərliyi 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi su-

[1] Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953-cü illər), s.80-81.

rətdə deportasiyası haqqında" fərmanı[1] həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün çox ciddi bir zəmin yaratmışdır.

Ümumiyyətlə, 1948-1953-cü illərin deportasiyası dövründə Göyçə mahalını əhatə edən «Sevan», Kamo və Martuni rayonları ərazisində türk kəndləri birmənalı şəkildə ləğv edildi, hər üç rayon etnik tərkib etibarı ilə erməniləşdirildi. Belə ki, Kamo (əvvəlki Kəvər) rayonunun Ağqala kəndinin 587, Ağzıbir kəndinin 1351, Başkənd kəndinin 941, Kuzəcik kəndinin 634, Hacı Muğan kəndinin 244, Martuni rayonunun (əvvəlki Aşağı Qaranlıq) Karvansara kəndinin 938, Mollalı kəndinin 439, Mədinə kəndinin 197, Qızılxaraba kəndinin 345, Aşağı Alçalı kəndinin 174, Aşağı Qaranlıq kəndinin 423, Yanıx kəndinin 181, Sevan rayonunun Ördəkli kəndinin 186, Əfəndi kəndinin 86, Çubuxlu kəndinin 37 nəfər türk əhalisinə qarşı həyata keçirilən deportasiya tədbirlərindən sonra bu rayonlarda türk izi silinmiş oldu.

Qeyd etdiyimiz kimi, Basarkeçər rayonunda isə bu aksiya qismən ağrısız oldu. Daha doğrusu, o illərdə Basarkeçərdə türklərin demoqrafik üstünlüyü səbəbiylə rəhbərlər arasında türklərin üstünlük təşkil etməsi burada ermənilərə istədikləri qədər əl-qol açmağa imkan vermədi. O zaman Basarkeçər rayon partiya komitəsinin birinci katibi olan Talıb Musayevin

---

[1] Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 – dekabr, 1997. 13-cü Kitab:– Bakı: Azərnəşr. 2004, s.397-398.

və SSRİ Ali Sovetinin Ermənistandan olan yeganə azərbaycanlı deputat Aydın Məmmədovun qətiyyəti sayəsində Basarkeçərdə türklərin deportasiyası kütləvi xarakter almadı. Bu iki şəxsiyyət çevik manevrlə erməniləri Basarkeçərin boşaldılmasından bir növ çəkindirməyə müvəffəq oldular. Belə ki, onların birgə təşəbbüsü sayəsində Mircəfər Bağırov Basarkeçərdən köçürülənlərin Gəncə, Xanlar, Tərtər, Bərdə zonasında yerləşdirilməsini təmin etdi və bu da ermənilərin gözləmədiyi əks prosesə təkan verdi. Deportasiyaya məruz qalmış Basarkeçər əhalisinin gəlişindən az sonra Gəncə, Xanlar, Tərtər zonasında məskunlaşmış ermənilərin Ermənistan SSR-ə üz tutması erməni ideoloqlarının planları ilə əsla uyuşmurdu və ona görə də onlar Basarkeçərdən deportasiyanı dayandırmaq məcburiyyətində qaldılar. Bununla belə, Talıb Musayevin və Aydın Məmmədovun cidd-cəhdlərinə baxmayaraq, 1948-1953-cü illərdə Basarkeçərin 7 kəndindən təxminən 5591 türk deportasiyaya məruz qaldı ki, bu faciəvi statistikanın da göstəriciləri belədir: Yarpızlıdan 1400, Qanlıdan 640, Qızılvəngdən 1421, Zoddan 1400, Yuxarı Zağalıdan 400, Çaxırlıdan 200, Kərkibaşdan 130 nəfər hökumət səviyyəsində öz dədə-baba yurdundan didərgin salınmışdır. Amma bu, rəsmi qərarla köçürülənlərin sayıdır. Həmin dövrdə müəyyən təzyiqlər səbəbiylə Ağkilsə, Daşkənd, Göysu, Canəhməd, Tüstülü, Subatan kəndlərindən qeyri-rəsmi olaraq köçənlərin sayı təxminən rəsmi statistikadakı rəqəmə bərabər idi. Düzdür, sonrakı illərdə bu adamların bir qismi öz boş qalmış yurdlarına döndülər, amma dönənlərin ümumi sayı köçürülənlərlə müqayisədə heç 20 faiz belə təşkil etmirdi. Bu qayıdışı əngəlləyən əsas səbəblərdən biri həmin illərdə türk toponimlərinə və türk ziyalılarına qarşı

həyata keçirilən total genosid faktı idi.

Ermənistanda antitürk, antimüsəlman təbliğatı XX əsrin 60-cı illərində yenidən var gücü ilə işə salınmışdır. N.S.Xruşşovun hakimiyyətinin son illərində «Böyük Ermənistan» ideyası A.İ.Mikoyanın təşəbbüsü ilə sovet idarə aparatının gündəliyinə qaldırıldı. N.S.Xruşşovun aqrar siyasətindən – SSRİ-nin iqtisadi regionlara bölünməsi siyasətindən istifadə edən Mikoyan ona təklif etdi ki, Ermənistan SSR-də və Naxçıvan MSSR-də iqtisadiyyatın əlverişli inkişafı üçün Naxçıvan MSSR-nin Ermənistan SSR-ə birləşdirilməsi vacibdir. Xruşşov bu işi Azərbaycan ziyalılarının müzakirəsinə verdi. Nəticədə bu sərsəm ideya baş tutmadı. Bu illərdə Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə müəyyən sabitlik baş verdi. Bu dövrdə respublikanın stalinçi rəhbərlərinə qarşı həyata keçirilən kəskin və ədalətli tədbirlər yerlərdə məsuliyyət hissini müəyyən qədər artırır, hər hansı bir ekstremist hərəkətin qarşısı alınırdı. Lakin ermənilərin «mets yeğerni» – "böyük qırğın" adlandırdıqları 1915-ci il hadisələrinin 50-ci ildönümü yaxınlaşdıqca ərazi tələbləri, türklərə qarşı ögey münasibət baş qaldırmağa başlamışdı. 1962-1963-cü illərdə Ermənistan KP MK bürosunda Azərbaycan və Türkiyəyə torpaq iddiaları haqqında Moskvaya göndərilən ərizələrlə əlaqədar məsələlər müzakirə olunan zaman gizli söhbətlərdə belə bir fikir də söylənirdi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.İ.Mikoyan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini N.S.Xruşşov qarşısında qaldırmış, Xruşşov isə buna cavab olaraq demişdir ki, kifayət qədər hərbi avtomaşınlar ayırıb ermənilərin bir gecə ərzində Dağlıq Qarabağdan Ermənistana köçürülməsi barədə

tapşırıq verə bilər.[1]

Lakin 1964-cü ildə N.S.Xruşşovun hakimiyyətdən kənarlaşdırılması müvəqqəti sakitliyi pozdu. Ermənistanda «mets yeğerni» – «böyük qırğın» adlandırdıqları hadisəsinin 50-ci ildönümünü qeyd etməyə hazırlıq işləri genişləndi. Bu tədbirin keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən "Daşnaksütyun" partiyasının və digər irticaçı-millətçi partiya və qrupların məqsədləri, son qayəsi Ermənistan SSR rəhbərliyinin fəaliyyəti ilə üst-üstə düşür, hər iki tərəfdə aparılan təbliğat işi bu məqsədə yönəldilirdi. Belə ki, iddia edirdilər ki, «qırğın» üçün Türkiyə hökuməti və xalqı məsuliyyət daşıyır, "əzəli Ermənistan" torpaqları yenidən birləşdirilməli, «Böyük Ermənistan» dövləti yaradılmalıdır.[2]

Hələ 1960-cı illərdən başlayaraq Ermənistan SSR-də azərbaycanlılardan rəhbər vəzifədə olanların böyük əksəriyyətini ermənilərlə əvəz etdilər. Göyçə mahalının Basarkeçər, Krasnoselo, həmçinin Qarabağlar, Zəngibasar, Vedi rayonlarında (bu bölgələrdə əhalinin 75-90% azərbaycanlılar idi) rayon partiya komitələrinin azərbaycanlı olan birinci və ikinci katibləri heç bir əsas olmadan işdən azad edildilər.[3]

1964-cü ildə Ermənistan SSR-in rəsmi dairələri Moskvanın razılığı ilə uydurma "Erməni genosidi"nin 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etdilər. Erməni millətçiləri 1965-ci ilin fevralında cəllad Andranik Ozanyanın anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etdilər. Həmin

---

[1] Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, s.74.
[2] Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar NPM, 2009, s.112.
[3] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.54.

dövrdə Ermənistanı Yenidən Birləşdirmə Komitəsi yaradılmışdır. Bu hərəkata gizli surətdə Ermənistan KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyan, ikinci katibi H.Bağdasaryan, Ermənistan SSR Elmlər Akademiyasının prezidenti V.Hambarsumyan və b. rəhbərlik edirdilər.[1]

Bunu Ermənistanın KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyanın 1964-cü ildə etdiyi məruzəsindən də görmək olar: "...Vəzifə xarici ölkələrin mütərəqqi təşkilatları ilə əlaqəni bundan sonra da genişləndirməkdir... Xaricdəki ermənilərin kütləvi surətdə Sovet Ermənistanına qayıtmasının təşkil edildiyi xəbəri həmvətənlərimiz tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. 1962-1963-cü illərdə İrandan, Kiprdən, BƏR-dən, Yunanıstan və digər ölkələrdən bizə üç mindən artıq erməni gəlmişdir. Respublika, partiya, sovet və komsomol təşkilatlarının şərəfli işini qeyd etmək lazımdır ki, onlar ermənilərin nümunəvi qəbulu və yerləşdirilməsində böyük işlər görmüşlər...".[2]

Bu dövrdə Ermənistan SSR rəhbərliyi erməni şovinizmini gənclərin beyninə yeritmək üçün ideoloji təbliğatdan geniş istifadə edirdi. Bunun məntiqi davamı olaraq siyasi qərarla İrəvan şəhərində uydurma 1915-ci il "erməni soyqırımı"na abidə də qoyulmuşdur. Ermənistan SSR Nazirlər Sovetinin 18 mart 1965-ci il tarixli qərarı ilə 1915-ci il hadisələrində uydurma qurban getmiş ermənilərin xatirəsini əbədiləşdirmək üçün İrəvan şəhərində daş abidə qoyulması qərara alınmışdır. Bu qərarda deyilirdi: "Sultan Türkiyəsi hakimləri tərəfindən təşkil edilən erməni qırğınının əlli illiyi ilə əlaqədar olaraq

---

[1] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s.123.
[2] "Sovet Ermənistanı" qəzeti, 1964, 3 oktyabr, №117, 10 noyabr, №133.

respublika zəhmətkeşlərinin arzularını nəzərə alaraq Ermənistan SSR Nazirlər Soveti 1915-ci il qırğınlarının qurbanı olmuş ermənilərin xatirəsini əbədiləşdirmək üçün İrəvan şəhərində daş abidə qoymağı qərara almışdır".[1]

1965-ci il aprel ayının 23-25-ində İrəvan şəhərində keçirilən tədbirlər kulminasiya nöqtəsinə çatdı. İrəvan şəhərində 400 min erməni küçələrə çıxaraq, "genosid qurbanları"nın xatirəsinə ucaldılmış memoriala doğru axışırdı. Kütlənin önündə erməni katolikosu ilə birlikdə respublikanın rəhbərləri addımlayırdılar. Kütlənin başı üzərində qara parça ilə örtülmüş rəmzi tabut və «Böyük Ermənistan», «Qoparılmış ərazilər Ermənistana qaytarılmalıdır!», «İntiqam!» sözləri yazılmış şüarlar aparılırdı. Bu hadisədən sonra Ermənistan SSR-in azərbaycanlı əhalisinin sıxışdırılmasına başlanıldı, xüsusən İrəvanda, Göyçədə, Leninakanda, Kirovakanda, Qafanda avtobuslarda, bazarlarda, ictimai yerlərdə azərbaycanlılar təhqir olunur, döyülürdü.[2]

XX əsrin 60-cı illərində Ermənistan SSR-də aparılan milli ayrı-seçkilik və diskriminasiya siyasəti nəticəsində İrəvan və onun ətraf rayonlarından minlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdur.

1961-ci ildə SSRİ hökuməti xaricdə yaşayan ermənilərin yeni dəstəsinin qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Ermənistan KP MK-nın 1961-ci il oktyabr plenumunda qərara alınmışdır ki, ermənilərin 1946-1948-ci illərdə köçürülməsi zamanı əldə edilən təcrübəyə əsaslanaraq, onlara mənzil fondu ayırmaqla, məktəblər və s. sosial obyektlər təşkil etməklə

---

[1] "Sovet Ermənistanı" qəzeti, 1965, 13 mart, №31.

[2] Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər, s. 113; Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 55.

repatriantların yerləşdirilməsinə başlanılsın. 1962-ci ilin əvvəlindən başlayaraq Kiprdən, Misirdən, İrandan, ABŞ-dan, Türkiyədən, Uruqvaydan, Argentinadan ermənilərin yeni köç dalğası başladı. 1962-1965-ci illərdə xarici ölkələrdən Ermənistan SSR-ə 7 min erməni köçürülmüşdür. Ümumiyyətlə isə 1962-1973-cü illərdə xaricdən gəlmiş 26 min nəfər erməni burada yerləşdirilmişdir.[1]

Bu dövrdə xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi faktlarını, "Sovet Ermənistanı" qəzetində çap olunmuş məqalələrdən də görmək olar.

Bu qəzetin 3 oktyabr 1964-cü ildə çap olunmuş sayında "Misir erməniləri Leninakana gəlmişlər" adlı məqalədə yazılmışdı: "Ermənistan SSR Xarici İşlər naziri B.Martirosyan yoldaş Misirdən Sovet Ermənistanına gəlmiş ermənilərin yeni qrupunu salamladı və təbrik etdi... Sovet Ermənistanının yeni vətəndaşları, Misirdən gəlmiş 41 ailənin üzvləri münasib və işıqlı mənzillərdə yerləşdirildilər".[2]

Bu qəzetin 10 noyabr 1964-cü ildə çap olunmuş 133-cü sayında "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı Sovet Ermənistanına gəlmişdir" adlı məqalədə yazılmışdı: "Suriyadan vətənə qayıdan ermənilərin ikinci karvanı noyabrın 9-da xüsusi qatarla Batumdan Sovet Ermənistanına gəlmişdir. 329 nəfər erməni doğma torpaqda əbədi məskən salmışdır... Təkcə son iki ildə Kiprdən, Birləşmiş Ərəb Respublikasından, İrandan, Suriyadan qayıtmış 1200 erməni Kirovakanda məskən salmışdır...".[3]

---

[1] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s.124.

[2] "Sovet Ermənistanı" qəzeti, 1964, 3 oktyabr, №117, 10 noyabr, №133.

[3] Yenə orada.

"Sovet Ermənistanı" qəzetinin 1965-ci il 13 mart tarixli 31-ci sayında Sovet Ermənistanının yeni vətəndaşlarının respublika toplanışında çıxış edən təqaüdçü Nşan Hovhannesyan deyirdi: "Biz Ermənistana qayıtdıqdan dərhal sonra həm mənzillə, həm də işlə təmin olunmuşuq. İndi təkcə Kirovakanda repatriantlardan 682 nəfər dövlətdən təqaüd alır. Son iki ildə Kirovakanda 1 187 repatriant qayıdan məskən salmışdır…".[1]

Bu dövrdə də həyata keçirilən diskriminasiya siyasəti nəticəsində azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycana kütləvi axını davam etmişdir.

1918-ci ildə Ermənistanda azərbaycanlılar respublika əhalisinin 45 faizini (575 min) nəfər təşkil etdiyi halda, 1979-cu ildə keçirilən Ümumittifaq siyahıyaalmasına görə, Ermənistan SSR-də azərbaycanlılar 160 841 nəfər, yaxud Ermənistan əhalisinin (3 037 259 nəfər) cəmisi 5,3 faizini təşkil edirdilər. Məlumdur ki, 1926-cı ildə Ermənistan SSR-də türklərin sayı 84,6 min nəfər olmuşdur. Həmin dövrlə müqayisədə azərbaycanlılar cəmi 89 faiz, yaxud 1,9 dəfə artmışdır. Müqayisə olunan müddətdə ermənilər 743,6 min nəfərdən 2 725 000 nəfərə çatmışdır. Onların artımı 280 faiz yaxud 3,7 dəfə olmuşdur. Bu rəqəmlər azərbaycanlıların Ermənistanda nə dərəcədə diskriminasiya və repressiyaya məruz qaldıqlarının əyani nümunəsidir.[2] Bu, əslində gizli, üstüörtülü genosidin bir kökü, onun qanunauyğun nəticəsindən başqa bir şey deyildi.

Tarix boyu azərbaycanlıların öz dədə-baba torpaqları

---

[1] Yenə orada, 1965, 13 mart, №31.

[2] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq, s.125; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 56.

olan indiki Ermənistan Respublikası ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cu illərdə baş vermişdir.

1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti «Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında» qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi.

Bu qərardan sonra Ermənistanın siyasi dairələrində də milli münaqişəyə təhrik edən siyasi tələblər irəli sürülməyə başladı. 1988-ci il iyun ayında keçirilən on birinci çağırış Ermənistan SSR Ali Sovetinin yeddinci sessiyasında DQMV Xalq Deputatları Sovetinin bu qərarı müzakirəyə çıxarıldı. Bu sessiyada erməni deputatlar öz siyasi riyakarlıqlarını nümayiş etdirərək bu qərarı ciddi cəhdlə müdafiə etdilər. Sevan seçki dairəsindən deputat olan A.M.Kirakosyan öz nitqində deyirdi: "Deputat yoldaşlar! Ali Sovetin bugünkü sessiyasında müzakirə olunan məsələ-Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçməsi barədə DQMV Sovetinin qərarı qanuni tələbdir və bu, həyata keçirilməlidir...".[1] Bu sessiyada DQMV qəbul etdiyi qeyri-qanuni qərarı müdafiə olundu və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edildi.

Dağlıq Qarabağ ermənilərinin bu əsassız qərarı erməni katolikosu Vazgen tərəfindən də birmənalı şəkildə müdafiə olunmuşdur. Onun 1988-ci il iyulun 7-də Ermənistan televiziyası ilə çıxışında erməniçilik təfəkkürünə əsaslanılaraq tarixi

[1] "Sovet Ermənistanı" qəzeti, 1988, 12 iyul, №85; 23 iyun, №76; 17 noyabr, №138.

Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi qərarını alqışlanılmışdır. O, öz çıxışında ermənilərə müraciət edərək deyirdi: "Mən bütün dünya ermənilərinin katolikosu müqəddəs Eçmiədzindən yenidən öz sözümlə sizə müraciət edirəm. Keçən fevralın sonlarında Qarabağın erməni əhalisi birgə qərarla ana Ermənistana birləşmək arzusunu ifadə etdi. Sovet Ermənistanı və xarici ermənilər fəxr ediləcək birlik və intizamla qarabağlıların ədalətli arzularına tərəfdar çıxdılar... Erməni analar, bacılar, qardaşlar, xüsusilə siz gənclər xalqın və vətənin ali mənafeyini unutmayın. Araratı qoruyun...".[1]

Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-nı «Sumqayıtın qisas günü» elan etmiş «Krunk» cəmiyyətinin çağırışına cavab olaraq ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşmüşdülər. Guya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni faciəvi 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənilməsi üçün real şərait yaratmışdı. Belə ki, guya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqəladə vəziyyət rejimi, o vaxt cəmi 300-500 türkün yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadıqları kənd rayonları isə «unudulmuşdu». Əlverişli şəraitdən yararlanan «Krunk» əsasını Türkiyə və İrandan köçürülənlərin

[1] "Sovet Ermənistanı" qəzeti, 1988, 12 iyul, №85; 23 iyun, №76; 17 noyabr, №138.

təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəalları səfərbər edərək, onları demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər və …martın 26-da «Krunk» fəalları gözlənilənin tam əksi olan mənzərə ilə rastlaşdılar. Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində – «Zod ORS» deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Elə həmin gün Zod mədənlərində işləyən Nərimanlı kənd sakini Fazil adlı bir türk oğlu onunla axmaq zarafat edən bir erməni ağır traktorun təkərləri altında əzərək öldürmüş, cəmi 11 türk ailəsinin yaşadığı Tüstülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni həmyaşıdını bıçaqla yaralamışdı.[1]

1988-ci il iyun ayının 15-də Göyçə mahalında ermənilərin yaramaz hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səsini qaldırmalı oldular. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı kəndlərində də azərbaycanlılar mitinqə çıxdılar. Ümumilikdə bu mitinqlərdə iyirmi mindən çox adam iştirak etmişdir.[2]

Nəhayət, 1988-ci ilin yazında 17 türk kəndi nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə və Krasnoselo rayonu ərazisindəki türk kəndlərinin birləşmiş səyi ilə Şorça kəndində başlamış bu mitinqlərdə «Göyçənin Ermənistan SSR-in tərkibindən çıxarılaraq, Azərbaycan SSR-in ərazi – inzibati bölgəsinə daxil edilməsi» tələbi irəli sürülmüşdür. Təəssüflər olsun ki, Göyçə azərbaycanlılarının bu haqlı tələblərinə dəstək olaraq, noyabr ayının 17-də Bakıda

---

[1] Vilayətoğlu S. Oğuz elinin müqəddəs ocağı: Göyçə. Bakı: 2006, s. 113.
[2] İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı, s.22.

"Azadlıq" meydanında yüzminlərlə insanın iştirakı ilə keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul olunsa da, bu tələb o zamankı Azərbaycan SSR rəhbərliyi tərəfindən dəstəklənmədi.[1]

1988-ci ilin sentyabr-oktyabr aylarında erməni millətçiləri ardı-arası kəsilməyən mitinqlər keçirir, bu bölgələrdən türklərin çıxarılmasını tələb edirdilər. Azərbaycanlıların evlərinə od vurulur, insanlar işgəncə ilə öldürülür, qadınların sinəsinə xaç çəkilir, uşağa, qocaya rəhm edilmirdi. Bu ərazilərin iqtisadi blokadası davam etdirilirdi. SSRİ rəhbərliyi isə bütün bunlara laqeydcəsinə göz yumurdu.

1988-ci il noyabr ayında Ermənistanın SSR Ali Sovetinin sessiyasında aprelin 24-nün 1915-ci il ermənilərinin genosid günü elan edilməsi erməni şovinizmini daha da fəallaşdırdı. Bu haqda "Sovet Ermənistanı" qəzetinin 17 noyabr 1988-ci il tarixli sayında yazılmışdı: "Aprelin 24-nün 1915-ci ildə ermənilərin genosid qurbanlarının xatirə günü elan edilməsi barədə Ermənistan KP MK sentyabr (1988) plenumuna verilən məruzədəki təklif respublika zəhmətkeşləri tərəfindən bəyənilmişdir. Bu təklifin qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir...".[2]

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün instansiya rəhbərlərinə «noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək» tapşırığı verildi. Er-

---

[1] İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı, s.114.

[2] "Sovet Ermənistanı" qəzeti, 1988, 12 iyul, №85; 23 iyun, №76; 17 noyabr, №138.

mənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək Ermənistan SSR-in digər rayonlarından türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan SSR-in ali rəhbərliyinə həvalə edilirdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan SSR-dən azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. İllərdən bəri həyata keçirilən "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu planın həyata keçirilməsində bütün vasitələrdən istifadə olunmağa başladı. Hətta bu plana qarşı çıxan rayon rəhbərləri də işdən azad edilirdi.

Azərbaycanlıların kompakt yaşadığı Basarkeçər rayonunda birinci katibi dəyişməyə ehtiyac olmadı. Çünki Razmik Yenqoyan ikinci katib Aşot Akopyanla birlikdə həyata keçirilməkdə olan fitnəkarlıq hərəkatının başında dayanmışdılar. Rayon daxili işlər şöbəsinin rəisi Bahar Boxyan, Torf İstehsalat Birliyinin rəisi Qurgen Harutyunyan, Çaxırlı sovxozunun direktoru Arkadi Petrosyan, quşçuluq fabrikinin direktoru Albert Petrosyan "Türksüz Ermənistan" uğrunda başlanan avantürist kampaniyanın aparıcı liderlərindən idilər.[1]

Bu daşnak-kommunistlərin rəhbərliyi sayəsində Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycan SSR-ə "yola salındılar". Onlarla azərbaycanlı döyülərək yaralandılar və qarlı-boranlı dağ yollarında həlak oldular.

Basarkeçər rayonunun adı 1969-cu ildə növbəti dəfə də-

[1] İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı, s.26.

yişdirildi və Vardenis adlanmağa başladı. Bu rayonda ümumilikdə dağıdılmış və xarabalığa çevrilmiş kəndlərlə birlikdə 48 yaşayış məntəqəsi var idi. Həmin yaşayış məntəqələrinə Allahverdi bəy, Altundağ, Ağyoxuş, Ağkilsə (Azad), Aşağı Zağalı (Zovak), Aşağı Şorca, Babacan (Qızılkənd), Basarkeçər, Bahar, Buğdatəpə, Buzxana, Böyük Məzrə, Qayabaşı, Qamışlı, Qaraiman, Qoşabulaq (Kefli), Qızılvəng ( Makenis, Çiçəkli), Qırxbulaq (Aqunk), Daş Keyti, Daşkənd, Dərə (Babacan dərəsi), Əzizli, (Böyük Qaraqoyunlu), Zərkənd (Zarzebil), Zod, İnəkdağ (Yenikənd), Yarpızlı (Lcavan), Yuxarı Zağalı (Axbradzor), Yuxarı Şorca, Karvansaray (Səməd Ağa dərəsi), Kefli (İkinci Qoşabulaq), Kərkibaş (Şəfəq), Kiçik Qaraqoyunlu, Kiçik Məzrə, Gödəkbulaq (Qarcaxbur), Göyçə, Göysu, Göytəpə, Güney (Sətənxac), Günəşli, Nərimanlı, (Hüseynqulu ağalı), Quşçu dərəsi (Pəmbəkli), Sarıyaqub, Seyidlər, Subatan, Tatul qışlağı, Həsənli, Çaxırlı (Sovatakert), Şişqaya daxil idi.[1]

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.277.

# VARDENİS (BASARKEÇƏR) RAYONU[1]

## Mərkəzi – Vardenis ştq

| | | | |
|---|---|---|---|
| Ərazisi 1151 kv.km | | **İnzibati vahidlərin sayı** | |
| Ən yaxın dəmiryolu stansiyasının adı və oraya qədər olan məsafə – Vardenis | 3 km | Şəhər tipli qəsəbə | 1 |
| İrəvandan ştq. Vardenisə qədər olan məsafə | 168 km | Kənd sovetləri | 14 |
| Rayonun yaradıldığı tarix | | Yaşayış məntəqələrinin ümumi sayı | 36 |
| 9 sentyabr 1930-cu il | | Əhalisi min nəfərlə 60,4, o cümlədən: Şəhər – 13,3, kənd – 47,1 | |

## Şəhər tipli qəsəbələr

| № № | Şəhər tipli qəsəbənin adı | Yaranma tarixi | İnzibati durumu | Ən yaxın dəmiryolu stansiyasının adı və oraya qədər olan məsafə | Rayon mərkəzinə qədər olan məsafə – km |
|---|---|---|---|---|---|
| 1 | Vardenis | 1969 | Ray.mər. | Vardenis | |

## Kənd sovetləri

| № | Kənd sovetinin adı | Kənd soveti mərkəzlərinin adları | Rayon mərkəzinə qədər olan məsafə – km | Kənd sovetinin ərazisində olan yaşayış məskəni | Kənd soveti mərkəzinə qədər olan məsafə – km |
|---|---|---|---|---|---|
| 1 | Akunk | Akunk | 3 | Akunk | – |
| 2 | Günəşli | Günəşli | 15 | Günəşli | – |

[1] Армянская ССР. Административно-территориальное деление на 1-ое августа 1988 года, с. 127-128.

| № | Kənd sovetinin adı | Kənd soveti mərkəzlərinin adları | Rayon mərkəzinə qədər olan məsafə – km | Kənd sovetinin ərazisində olan yaşayış məskəni | Kənd soveti mərkəzinə qədər olan məsafə – km |
|---|---|---|---|---|---|
| | | | | Ağyoxuş<br>Yenikənd<br>Sovetkənd | 1<br>4<br>5 |
| 3 | Daşkənd | Daşkənd | 8 | Daşkənd<br>Yuxarı Şorca<br>Aşağı Şorca | –<br>7<br>5 |
| 4 | Zod | Zod | 14 | Zod<br>Azad<br>Zərkənd<br>Zod qəsəbəsi | –<br>2<br>3<br>8 |
| 5 | Qarcaxbyur | Qarcaxbyur | 13 | Qarcaxbyur | – |
| 6 | Qayabaşı | Qayabaşı | 9 | Qayabaşı<br>Qoşabulaq<br>Sarıyaqub | –<br>1<br>4 |
| 7 | Makenis | Makenis | 17 | Makenis<br>Axpradzor<br>Lcavan | –<br>5<br>3 |
| 8 | Böyük Məzrə | Böyük Məzrə | 4 | Böyük Məzrə | – |
| 9 | Nərimanlı | Nərimanlı | 10 | Nərimanlı<br>Əzizli | –<br>4 |
| 10 | Pəmbək | Pəmbək | 35 | Pəmbək<br>Dərə<br>Qızılkənd | –<br>3<br>7 |
| 11 | Kiçik Məzrə | Kiçik Məzrə | 11 | Kiçik Məzrə<br>Bahar<br>Norakert | –<br>4<br>2 |
| 12 | Sovetakert | Sovetakert | 4 | Sovetakert<br>Lusakunk<br>Subatan | –<br>1<br>7 |
| 13 | Zovak | Zovak | 9 | Zovak | – |

| № | Kənd sovetinin adı | Kənd soveti mərkəzlərinin adları | Rayon mərkəzinə qədər olan məsafə – km | Kənd sovetinin ərazisində olan yaşayış məskəni | Kənd soveti mərkəzinə qədər olan məsafə – km |
|---|---|---|---|---|---|
| | | | | Torfavan<br>Şəfəq | 5<br>4 |
| 14 | Şişqaya | Şişqaya | 20 | Şişqaya<br>Göysu<br>Güney | –<br>3<br>7 |

**Kənd soveti mərkəzlərinin adları**

1. Akunk (Qırxbulaq) – Akunk (Qırxbulaq); 2. Günəşli (Canəhməd) – Günəşli (Canəhməd), Ağyoxuş, Yenikənd (İnəkdağı), Sovetkənd (Qaraiman); 3. Daşkənd – Daşkənd, Yuxarı Şorca, Aşağı Şorca; 4. Zod – Zod, Azad (Ağkilsə), Zərkənd (Zərzibil); 5. Qarcaxbyur (Gödəkbulaq) – Qarcaxbyur (Gödəkbulaq); 6. Qayabaşı – Qayabaşı, Qoşabulaq, Sarıyaqub; 7. Makenis (Qızılvəng) – Makenis (Qızılvəng), Axpradzor (Yuxarı Zağalı), Lcavan (Yarpızlı); 8. Böyük Məzrə – Böyük Məzrə; 9. Nərimanlı – Nərimanlı, Əzizli (Qaraqoyunlu); 10. Pəmbək – Pəmbək, Dərə, Qızılkənd (Babacan); 11. Kiçik Məzrə – Kiçik Məzrə, Bahar (Kəsəmən), Norakert (Təzəkənd); 12. Sovetakert (Çaxırlı) – Sovetakert (Çaxırlı), Lusakunk (Tüstülü), Subatan; 13. Zovak (Aşağı Zağalı) – Zovak (Aşağı Zağalı), Torfavan (Qanlı), Şəfəq (Kərkibaş); Şişqaya – Şişqaya, Göysu, Güney (Sədənəxaç).

**Ağyoxuş (1935-ci ilədək Zod sovxozu)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 13-14 km şimal-şərqdə, dəniz səviyyəsindən 2091 m hündürlükdə, üç tərəfdən təpəliklərlə əhatə olunmuş geniş düzənlikdə yerləşmişdir.

1935-ci ilədək Zod sovxoz qəsəbəsi adlandırılmışdır. 1831-ci ildə bu kənddə 192 nəfər azərbaycanlı yaşamışdır. Erməni mənbələrində 20-ci yüzilliyədək orada yaşayan əhali haqqında məlumat ybxdur. Yalnız göstərilir ki, XIX yüzilliyin axırlarında kənd ləğv edilmiş, son əsrdə yenidən məskunlaşmışdır. Otuzuncu illərdə kənddə sovxoz qurulmuş, sonralar sovxoz qonşu Günəşli (Canəhməd) kolxozu ilə birləşdirilmişdir. Kənddə 1970-ci ildə 341 nəfər azərbaycanlı, 1988-ci ildə 400 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[1]



**Aşıq Ələsgərin qəbirüstü abidəsi**

4 iyul 2006-cı il tarixli qərarla kəndin adı dəyişdirilərək «Zariver» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°16'şm. e., 45°49' ş.u.[2]

**Ağkilsə** (Azad – 1935) İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 11-12 km şərqdə, dəniz səviyyəsindəi 2.085 m hündürlükdə, düzənlik yerdə yerləşmişdi.

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.278.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 30.

Kənddə 1873-cü ildə 263 nəfər, 1886-cı ildə 321 nəfər, 1897-ci ildə 389 nəfər, 1914-cü ildə 515 nəfər, 1922-ci ildə 198 nəfər, 1926-cı ildə 244 nəfər, 1931-ci ildə isə 307 nəfər, 1959-cu ildə 276 nəfər, 1979-cu ildə 448 nəfər, 1988-ci ildə 800 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Ermənistan SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Azad» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°11' şm. e., 45°52' ş.u.[3]

**Aşağı Şorca (Salman kəndi)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 13 km cənub-şərqdə, dəniz səviyyəsindən 2245 m hundürlükdə yerləşmişdi. Kənddə 1831-ci ildə 164 nəfər, 1879-cu ildə 411 nəfər, 1886-cı ildə 524 nəfər, 1908-ci ildə 721 nəfər, 1914-cü ildə 910 nəfər, 1922-ci ildə 394 nəfər, 1926-cı ildə 494 nəfər, 1931-ci ildə isə 617 nəfər, 1988-ci ildə 1500 nəfərdən çox azərbaycanlı əhali yaşamışdır.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.278.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, (J863-50, 40-15,) s.5.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.27.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.289.

haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°40' şm. e., 45°45'.[1]

**Aşağı Zağalı (Zovak-1946)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda qarışıq kənd. Rayon mərkəzindən 9 km qərbdə, Göyçə gölünün cənub-şərq sahilində yerləşmişdir. Qədim azərbaycanlı kəndi olan Aşağı Zağalı 1828-1829-cu illərdə Türkiyədən və İrandan gəlmə erməni mühacirlərinin hesabına qarışıq kənd olmuş, sonra isə azərbaycanlılar sıxışdırılıb tamamilə kənddən çıxarılmışlar. 1897-ci ildə kənddə 839 nəfər erməni, 49 nəfər azərbaycanlı olmuşdur.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Ermənistan SSR AS RH-nin 12 dekabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Tsovak» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°10' şm e., 45°38' ş.u.[3]

**Babacan (Qızılkənd-1978)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 24 km şimal-qərbdə, dəniz səviyyəsindən 1957 m hündürlükdə yerləşir. Kənddə

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.51.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 279.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.52.

1873-cü ildə 107 nəfər, 1886-cı ildə 173 nəfər, 1897-ci ildə 244 nəfər, 1908-ci ildə 259 nəfər, 1916-cı ildə 290 nəfər, 1922-ci ildə 309 nəfər, 1926-cı ildə 345 nəfər, 1931-ci ildə 373 nəfər, 1988-ci ildə 800 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Ermənistan SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə "Qızılkənd", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tsapatağ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 25' şm. e., 45°32' ş.u.[2]

**Basarkeçər (Vardenis-1969)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında 1831-ci ilədək tam azərbaycanlı kəndi, sonra qarışıq kənd. 1969-cu ildən şəhər tipli qəsəbə və eyni adlı rayonun mərkəzi. Göyçə gölünün cənub-şərqində tarixi Basarkeçər torpağında yerləşmişdir. 1831-ci ildə kənddə – 178 nəfər ancaq azərbaycanlı yaşamışdır. 1830-cu ildə Türkiyənin Baqrevand və Alaşkerd vilayətlərindən gəlmə ermənilər birbaşa Basarkeçər kəndinə yerləşdirildiyindən elə 1873-cü ildə kəndin 1296 *nəfər* erməni əhalisi olmuşdur, 1897-ci ildə kənddə ermənilərin sayı 2108 nəfərə çatmış, azərbaycanlılar isə azalıb 85 nəfərə enmişdir. 1918-ci ildə milli qırğın zamanı

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.279.
[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.57.

kəndin azərbaycanlı əhalisi qırılmış və qovulmuşdur.

Sovet hakimiyyəti illərində rayonda əhalinin 90 faizinin azərbaycanlılardan ibarət olmasına baxmayaraq, rayon mərkəzində yaşayanların 90 faizdən çoxu ermənilər idi. Çünki rayonda bütün partiya və dövlət aparatının işçiləri bütünlüklə ermənilər olmuşdur. Azərbaycanlılar isə ancaq kənddə yaşayırdılar. 1988-ci ildə rayonda vəzifədə olan icraiyyə komitəsinin sədri və qəzetin redaktoru «saqqallıların» köməyi ilə qovulmuşlar.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Ermənistan SSR AS RH-nin 2 may 1969-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 10' şm. e., 45° 43' ş.u.[2]

**Bahar (Kəsəmən – 1978-ci ilədək)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 10 km şimalda, dağ ətəyində, dəniz səviyyəsindən 2048 m hündürlükdə yerləşmişdir. Kənddə 1831-ci ildə 166 nəfər, 1873-cü ildə 379 nəfər, 1886-cı ildə 492 nəfər, 1897-ci ildə 671 nəfər, 1978-ci ilş 713 nəfər, 1914-cü ildə 744 nəfər, 1916-cı ildə 894 nəfər, 1922-ci ildə 249 nəfər, 1926-cı ildə kənddə 414 nəfər, 1939-cu ildə 758 qəfər, 1959-cu ildə 583 nəfər, 1970-ci ildə 891 nəfər,

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.280.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.61.

1979-cu ildə 955 şəfər, 1988-ci ildə 1200 nəfər azərbaycanlı yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 27 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bahar", 3 aprel 1991-cı il tarixli qərarı ilə bir daha dəyişdirilərək "Arpunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 17' şm. e., 45° 44' ş.u.[2]

**Böyük Məzrə (Quluağalı)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən və Basarkeçər dəmiryolu stansiyasından 5 km şimal-şərqdə Məzrə (Masrin) çayının sahilində, dəniz səviyyəsindən 1969 m hündürlükdə yerləşir. 1918-ciilədək sırf azərbaycanlı kəndi olmuşdur. 1915-1918-ci illərdə Türkiyənin Alaşgerd və Bayazid vilayətlərindən gələn erməni mühacirlərindən bir qrupu bu kənddə yerləşdirildikdən (azərbaycanlılar qovulandan sonra) sonra kənd qarışıq olmuşdur. Kənddə 1831-ci ildə 293 nəfər, 1873-cü ildə 956 nəfər, 1886-cı ildə 1379 nəfər, 1914-cü ildə 1970 nəfər, 1916-cı ildə 1.792 nəfər, Daşnak hökuməti yıxıldıqdan sonra qaçqınların təqribən dörddə biri, 572 nəfər (1922-ci il) öz doğma kəndinə qayıda bilmişdir. Lakin onlar kəndə qayıdanda evlərinin Türkiyədən gəlmiş ermənilər tərəfindən tutulduğunu gör-

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.280.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.167.

müşlər. 1922-ci ildə kənddə 561 nəfər erməni yaşamışdır, o zamandan qarışıq kəndə çevrilmişdir. 1926-cı ildə 594 nəfər azərbaycanlı, 638 nəfər erməni, 1931-ci ildə 1.199 nəfər erməni, 867 nəfər, 1988-ci ildə 2.500 nəfərə yaxın azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək “Mets Masrik” qoyulmuşdur. “Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında” 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°13' şm. e., 45° 46' ş.u.[2]

**Qayabaşı** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 8 km cənub qərbdə, dəniz səviyyəsindən 2035 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 131 nəfər, 1886-cı ildə 181 nəfər, 1897-ci ildə 219 nəfər, 1914-cü ildə 228 nəfər, 1916-cı ildə 234 nəfər, 1922-ci ildə 149 nəfər, 1931-ci ildə 181 nəfər, 1988-ci ildə 600 nəfərdən çox azərbaycanlı əhali yaşamışdır.[3] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək “Keğamabak” qoyulmuşdur. “Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında” 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vila-

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.280-281.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.74.

[3] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.281-282.

yətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45° 48' ş.u.[1]

**Qamışlı (Qanlı Allahverdi, Qanlı-1946-cıilədək)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 2,5 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir.

Kənddə 1831-ci ildə 99 nəfər, 1873-cü ildə 244 nəfər, 1886-cı ildə 317 nəfər, 1897-ci ildə 397 nəfər, 1908-ci ildə 445 nəfər, 1914-cü ildə 465 nəfər, 1916-cı ildə 483 nəfər, 1922-ci ildə 165 nəfər, 1926-cı ildə 218 nəfər, 1931-ci ildə 287 nəfər, 1988-ci ildə 800 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 12 avqust 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qamışlı" qoyulmuşdur. Ermənistan SSR Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə "Qanlı" adlı türk yurdu Kərkibaş kəndi ilə bir inzibati vahiddə birləşdirilmiş və birləşmiş kənd "Vanevan" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 12' şm. e., 45° 41' ş.u.[3]

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 195.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 282.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 180.

**Qaraiman (Oğruca, Sovetkənd – 1978)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 13 km şimal-şərqdə, dəniz səviyyəsindən 2091 m hündürlükdə yerləşmişdir. Kənddə 1831-ci ildə 207 nəfər, 1873-cü ildə 418 nəfər, 1886-cı ildə 569 nəfər, 1908-ci ildə 1033 nəfər, 1914-cü ildə 1079 nəfər, 1922-ci ildə 478 nəfər, 1931-ci ildə 652 nəfər əhali, 1988-ci ildə 2000-dən artıq azərbaycanlı əhali yaşamışdır. rayonda iri azərbaycanlı kəndlərindən biri olan Qaraimanın da əhalisi erməni silahlı dəstələri tərəfindən qovulmuşdur.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Sovetkənd», 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kaxakn" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°17' şm. e., 45°47' ş.u.[2]

**Qoşabulaq** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 6 km cənub-şərqdə, dəniz səviyyəsindən 2023 m hündürlükdə yerləşmişdir. Kənddə 1831-ci ildə 117 nəfər, 1873-cü ildə 316 nəfər, 1886-cı ildə 419 nəfər, 1897-ci ildə 456 nəfər, 1914-cü ildə 672 nəfər, 1922-ci ildə burada 387 nəfər, 1926-cı ildə 291 nəfər, 1931-ci ildə 383 nəfər, 1988-ci il-

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 282-283.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 186.

də 1800 nəfər azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndinadı dəyişdirilərək "Şadcrek" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45° 48' ş.u.[3]

**Qızılvəng** (Makenis – 1978) – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 15 km cənub-şərqdə, dəniz səviyyəsindən 2176 m hündürlükdə yerləşir. 1918-ci ilədək kənd sırf azərbaycanlı kəndi olmuşdur. 1915-1918-ci illərdə Türkiyədən gəlmiş ermənilər kənddə yerləşdirildiyindən qarışıq kəndə çevrilmişdir. Z.Korkodyanın verdiyi məlumata görə[4] 1873-cü ildə bu kənddə 429 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 563 nəfər, 1908-ci ildə 733 nəfər, 1916-cı ildə 807 nəfər, 1922-ci ildə 168 nəfər, 1931-ci ildə burada 282 nəfər azərbaycanlı, 421 nəfər erməni yaşamışdır.

Azərbaycanlılar tədriclə sıxışdırılıb çıxarılmış və nəhayət, 1948-ci ildə zorla Azərbaycana köçürülmüş və kənd tam erməniləşdirilmişdir.[5] Qafqazın beş verstlik xəritəsində qeyd

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 283.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15, 40-30, с. 192.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 204.

[4] Sovet Ermənistanının əhalisi, s. 26, 112-113.

[5] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 283-284.

olunmuşdur.[1]

Erm. SSR AS RH-nin 24 iyul 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çiçəkli", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Makenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 07' şm. e., 45° 36' ş.u.[2]

**Qırxbulaq** (Akunk – 1946) – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 2 km cənubda, Göyçə gölünün cənub-şərq sahilində, dəniz səviyyəsindən 1984 m hündürlükdə yerləşmişdi. Bu qədim azərbaycanlı kəndində (X əsr) 1830-cu ilədək ancaq azərbaycanlılar yaşamışdır. Z.Korkodyanın göstərdiyi kimi 1931-ci ildə Qırxbulaq kəndində 247 nəfər azərbaycanlı yaşamışdır.[3] Lakin 1828-1829-cu illərdə Türkiyənin Bəyazid vilayətindən gəlmiş ermənilər kənddə yerləşdirildikdən sonra əsrin axırınadək qarışıq kənd olmuşdur. Tədricən azərbaycanlılar sıxışdırılıb kənddən qovulmuş və XX əsrin əvvəllərindən kənd tam erməniləşdirilmiş, adı dəyişdirilib Aqunk qoyulmuşdur.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[5]

---

[1] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8,63-15,40-15, s.131.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 202.

[3] Sovet Ermənistanının əhalisi, s. 112.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 284.

[5] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказ-

Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Akunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45° 43' ş.u.[1]

**Daşkənd** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 8 km cənub-şərqdə, dəniz səviyyəsindən 2144 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 357, nəfər, 1873-cü ildə 560 nəfər, 1886-cı ildə 816 nəfər, 1897-ci ildə 1004 nəfər, 1914-cü ildə 1389 nəfər, 1916-cı ildə 1054 nəfər, 1922-ci ildə 882 nəfər, 1926-cı ildə 984 nəfər, 1931-ci ildə isə 1230 nəfər, 1988-ci ilin noyabrında 2000 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayrk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 07' şm. e., 45° 47' ş.u.[4]

---

ского края, J8, 63-15, 40-15, s.153.

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 202.

[1] Sovet Ermənistanının əhalisi, s. 198.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 284-285.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15, 40-15, s.76.

[4] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 95.

**Dərə (Babacan dərəsi)** – Azərbaycanlı kəndi. Rayon mərkəzindən 22 km şimal-şərqdə Basarkeçər-Şorca avtomobil yolunun üstündə, dəniz səviyyəsindən 1942 m. hündürlükdə yerləşmişdir. Kənd 1921-ci ildə həmin rayonun Pəmbək kəndindən gələn köçkünlərin hesabına yaradılmışdır. 1930-cu ildə kənddə kolxoz qurulmuş, yeni yaşayış binaları tikilmişdir. Kənddə səkkizillik məktəb, klub, kitabxana və tibb məntəqəsi var idi. 1988-ci ilin noyabrında erməni millətçiləri min nəfərə yaxın əhalisi olan kəndin camaatını 3 gün ərzində qovmuş, evlərini və əmlaklarını qarət etmişlər.[1]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Daranak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 22' şm. e., 45° 34' ş.u.[2]

**Əzizli (Yellicə – Böyük Yellicə, Yengicə, Böyük Qaraqoyunlu** – 1935-ci ilədək) – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 12 km cənub-şərqdə, dəniz səviyyəsindən 2091 m. hündürlükdə, Zod yolunun üstündə yerləşir. 1831-ci ildə kənddə 379 nəfər, 1873-cü ildə 408 nəfər, 1886-cı ildə 591 nəfər, 1897-ci ildə 447 nəfər, 1914-cü ildə 655 nəfər, 1922-ci ildə 392 nəfər, 1926-cı ildə 374 nəfər, 1931-ci ildə 488 nəfər, 1939-cu ildə 561 nəfər, 1970-ci ildə 1140 nəfər,

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 285.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 99.

1979-cu ildə 1407 nəfər, 1988-ci ildə isə 1800 nəfər azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə "Əzizli", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Norabak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45°52' ş.u.[3]

**Zərkənd (Qızılxaraba, 1935-ci ilədək Zərzəbil)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 15 km şərqdə, dəniz səviyyəsindən 2112 m hündürlükdə yerləşir. 1831-ci ildə kənddə 202 nəfər, 1873-cü ildə 462 nəfər, 1886-cı ildə 653 nəfər, 1897-ci ildə 754 nəfər, 1908-ci ildə 963 nəfər, 1914-cü ildə 1005 nəfər, 1916-cı ildə 968 nəfər, 1922-ci ildə 581 nəfəri, 1926-cı ildə 631 nəfər, 1931-ci ildə 808 nəfər, 1988-ci ildə ermənilər kənddə yaşayan 2000 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[5]

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 285-286.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-30,40-15, s.115.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 73.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 286.

[5] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-30, 40-15, s.96.

Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zərkənd", 3 aprel 1991-cı il tarixli qərarı ilə ikinci dəfə dəyişdirilərək "Kut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 10' şm. e., 45° 53' ş.u.[1]

**Zod** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 16 km şimal-şərqdə Zod çayının sahilində, dəniz səviyyəsindən 2016 m hündürlükdə yerləşir. 1831-ci ildə burada 245 nəfər, 1873-cü ildə 905 nəfər, 1886-cı ildə 1088 nəfər, 1897-ci ildə 1584 nəfər, 1908-ci ildə 1717 nəfər, 1914-cü ildə 1988 nəfər, 1916-cı ildə 1717 nəfər, 1922-ci ildə 1046 nəfər, 1926-cı ildə 1325 nəfər, 1931-ci ildə 1599 nəfər, 1988-ci ildə 5 min nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə Zod kəndinin adı dəyişdirilərək "Sotk" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 12' şm. e., 45° 51' ş.u.[4]

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 299.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 286-287.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-30,40-15, s.99.

[4] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan

**İnəkdağ** (Yenikənd) – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 16-18 km şimal-şərqdə, dəniz səviyyəsindən 2109 m hündürlükdə yerləşir. 1873-cü ildə burada 317 nəfər, 1886-cı ildə 469 nəfər, 1897-ci ildə 517 nəfər, 1908-ci ildə 507 nəfər, 1914-cü ildə 674 nəfər, 1916-cı ildə 423 nəfər, 1922-ci ildə burada 297 nəfər, 1926-cı ildə 281 nəfər, 1931-ci ildə 383 nəfər, 1988-ci ilin əvvəllərində 1800 nəfərdən çox azərbaycanlı əhali yaşamışdı.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yenikənd", 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tretuk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 14' şm. e., 45° 51' ş.u.[3]

**Yarpızlı (Lcavan-1967)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 12 km cənub-qərbdə, dəniz səviyyəsindən 2027 m hündürlükdə yerləşir. 1918-ci ilə qədər kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1831-ci ildə 121 nə-

---

Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 300.

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 287.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-30, 40-30, s.102.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 152.

fər, 1873-cü ildə 398 nəfər, 1886-cı il 465 nəfər, 1897-ci ildə 584 nəfər, 1908-ci ildə 719 nəfər, 1914-cü il 815 nəfər, 1916-cı ildə 771 nəfər, 1931-ci ildə 547 nəfər azərbaycanlı, 284 nəfər erməni yaşamışdır. Tədricən azərbaycanlılar sıxışdırılmış, nəhayət, 1948-ci ildə Ermənistandan azərbaycanlıların zorla köçürülməsi dövründə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürüldü. Beləliklə, kənd tam erməniləşdirildi.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lcavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45° 36' ş.u.[3]

**Yuxarı Zağalı (Tatar Zağalısı, Qızılxaraba, 1978-ci ildən-Axbradzor)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda Azərbaycanlı kəndi. Rayon mərkəzindən 15 km cənub-qərbdə, dəniz səviyyəsindən 2.198 m hündürlükdə təpəlik yerdə yerləşir. 1831-ci ildə 98 nəfər, 1873-cü ildə 515 nəfər, 1886-cı ildə 717 nəfər, 1897-ci ildə 774 nəfər, 1908-ci ildə 917 nəfər, 1914-cü ildə 1.018 nəfər, 1916-cı ildə 922 nəfər, 1918-1920-ci illərdə daşnak hökumətinin silahlı dəstələri kəndi dağıtdıqdan və əhalisini qovduqdan sonra, 1920-ci ildə Muş vilayətindən gəlmiş ermənilər

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 287.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8,63-15, 40-15, s.306.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 283.

burada yerləşdirildikdən sonra qarışıq kəndə çevrilmişdir. 1926-cı ildə 206 nəfər azərbaycanlı, 397 nəfər erməni yaşamışdır. 1988-ci ildə 500-ə yaxın azərbaycanlı zorla qovulmuş, evləri talan edilmişdir.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Axbradzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 06' şm. e., 45° 39' ş.u.[3]

**Yuxarı Şorca** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 15 km cənub-şərqdə, Tərsə çayının yuxarı axarında, dəniz səviyyəsindən 2245 m hündürlükdə, dağlıq yerdə yerləşir. 1831-ci ildə 75 nəfər, 1873-cü ildə 123 nəfər, 1886-cı ildə 158 nəfər, 1897-ci ildə 584 nəfər, 1908-ci ildə 248 nəfər, 1914-cü ildə 283 nəfər, 1922-ci ildə 204 nəfər, 1926-cı ildə kənddə 494 nəfər, 1931-ci ildə 495 nəfər, 1959-cu ildə 1.259 nəfər, 1988-ci ildə 1.440 nəfər azərbaycanlı əhali yaşamışdır.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[5]

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 288.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15, 40-15, s.94.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 296.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 288-289.

[5] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J9, 63-30, 40-15, s.128.

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 06' şm. e., 45° 48' ş.u.[1]

**Kərkibaş (Şəfəq-1967)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 5 km cənubda, dəniz səviyyəsindən 1952 m hündürlükdə, Göyçə gölünün şimal sahilində yerləşmişdir. 1873-cü ildə kənddə 183 nəfər, 1886-cı ildə 255 nəfər, 1897-ci ildə 301 nəfər, 1908-ci ildə 306 nəfər, 1914-cü ildə 377 nəfər, 1916-cı ildə 369 nəfər, 1922-ci ildə 166 nəfər, 1926-cı ildə 174 nəfər, 1931-ci ildə 224 nəfər, 1988-ci ildə 1.000 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[2]

Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şəfəq", 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Vanevan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 12' şm. e., 45° 41' ş.u.[3]

**Kiçik Qaraqoyunlu (Yengicə)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda Azərbaycanlı kəndi, Rayon mərkəzindən 12-14 km cənub-şərqdə,

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 295.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 289.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 166.

dəniz səviyyəsindən 2187 metr hündürlükdə yerləşmişdir. Vaxtilə Nərimanlı sovetliyinin tərkibində olmuşdur. 1897-ci ildə burada 235 nəfər, 1908-ci ildə 253 nəfər, 1914-cü ildə 328 nəfər, 1916-cı ildə 301 nəfər əhali olmuşdur. 1919-cu il aprelin 13-20-də daşnak qoşunları kəndi dağıtmış, əhalisini işgəncə ilə qovmuş, mal-dövlətlərini əllərindən almışlar. 1920-ci ildən sonra kənd qaçqınlarından bir qismi öz doğma ocaqlarına qayıtmışlar. 1922-ci ildə kənddə 197 nəfər, 1926-cı ildə 212 nəfər, 1931-ci ildə 209 nəfər azərbaycanlı yaşamışdır. Sonralar kənd ləğv edilmiş, əhalisi qonşu kəndlərə köçürülmüşdür.[1]

**Kiçik Məzrə (Bala Məzrə)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 9 km şimalda, Göyçə gölünün şərq sahilində, dəniz səviyyəsindən 1948 m hündürlükdə yerləşir. 1831-ci ildə bu kənddə 227 nəfər, 1873-cü ildə 675 nəfər, 1886-cı ildə 978 nəfər, 1897-ci ildə 1200 nəfər, 1908-ci ildə 1658 nəfər, 1914-cü ildə 1731 nəfər, 1922-ci ildə 859 nəfər, 1926-cı ildə 653 nəfər, 1931-ci ildə 962 nəfər, 1988-ci ildən 2000 nəfər azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 15' şm. e., 45°43' ş.u.[4]

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.289-290.

[2] Yenə orada, s. 290.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J10, 63-30, 39-15, s.164.

[4] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 59.

**Gödəkbulaq (Xırdabulaq, Qarcaxbyur-1946)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda qarışıq kənd. Göyçə gölünün cənub-şərq sahilində Basarkeçər-Yerevan avtomrbil yolunun üzərində rayon mərkəzindən 15 km cənub-şərqdə yerləşir. Qədim azərbaycanlı kəndi olmuşdur. 1828-1829-cu illərdə Türkiyədən gəlmiş ermənilər kənddə yerləşdirilmişdir. Mənbələrdə 1886-cı ildə kənddə 26 nəfər azərbaycanlının yaşadığı göstərilir. Sonralar sırf erməni kəndi olmuşdur.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

Erm. SSR AS RH-nin 12 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı hərfi tərcümə edilərək "Qarcaxbyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 09' şm. e., 45° 34' ş.u.[2]

**Göysu** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 12 km cənub-şərqdə, dəniz səviyyəsindən 2070 m hündürlükdə yerləşir. 1897-ci ildə 187 nəfər, 1908-ci il ildə 233 nəfər, 1914-cü ildə 360 nəfər, 1926-cı ildə 143 nəfər, 1931-ci ildə 215 nəfər, 1939-cu ildə 314 nəfər, 1959-cu ildə 264 nəfər, 1970-ci ildə 396 nəfər, 1979-cu ildə 531 nəfər azərbaycanlı yaşamışdır.[3] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[4]

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 290.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 123.

[3] Əsədov S.,Ermənistan azərbaycanlılarının tarixi coğrtafiyası, s. 290-291.

[4] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15,40-30, s.59.

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək “Avazan” qoyulmuşdur. “Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında” 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 18' şm. e., 45° 42' ş.u.[1]

**Güney (Hacı Qərib, Sətənəxaç – 1935-ciilədək)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 16-17 km şimal-qərbdə, Basarkeçər – Zovinar yolunun üzərində, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2016 m hündürlükdə yerləşir. 1873-cü ildə burada 132 nəfər, 1886-cı ildə 214 nəfər, 1897-ci ildə 299 nəfər, 1908-ci ildə 343 nəfər, 1914-cü ildə 659 nəfər, 1916-cı ildə 430 nəfər, 1922-ci ildə 300 nəfər, 1931-ci ildə 411 nəfər, 1939-cu ildə 481 nəfər, 1959-cu ildə 562 nəfər, 1979-cu ildə 1223 nəfər, 1988-ci ildə artıq 1890 nəfər azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək “Güney”, 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək “Arequni” adlandırılmışdır. “Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında” 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 126.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 291.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J63-15, 40-30, s.221.

Coğrafi koordinatları: 40° 20' şm. e., 45° 36' ş.u.[1]

**Günəşli (Sultanlı qışlağı, Əhmədli, 1968-ci ilədək Canəhməd)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 14 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşir. 1873-cü ildə kənddə 245 nəfər, 1886-cı ildə 348 nəfər, 1897-ci ildə 442 nəfər, 1908-ci ildə 422 nəfər, 1914-cü ildə 523 nəfər, 1922-ci ildə 194 nəfər, 1926-cı ildə 335 nəfər, 1931-ci ildə 383 nəfər, 1939-cu ildə 339 nəfər, 1959-cu ildə 337 nəfər, 1979-cu ildə 599 nəfər, 1988-ci ildə 1500 nəfər azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[3]

Erm. SSR AS RH-nin 3 iyul 1969-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Günəşli", 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kutakan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 16' şm. e., 45° 50' ş.u.[4]

**Nərimanlı (Hüseynquluağalı)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 10 km şərqdə, dəniz sə-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 248.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 291-292.

[3] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-30, 40-30, s.331,

[4] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 252.

viyyəsindən 1997 m hündürlükdə yerləşir. 1873-cü ildə kənddə 636 nəfər, 1886-cı ildə 760 nəfər, 1897-ci ildə 877 nəfər, 1908-ci ildə 778 nəfər, 1914-cü ildə 1.207 nəfər, 1922-ci ildə 527 nəfər, 1931-ci ildə qayıdanların 719 nəfər, 1959-cu ildə 2.000 nəfər, 1988-ci ildə 3.000 nəfər azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Bu ad 1924-cü ildə dəyişdirilərək Azərbaycan yazıçısı və ictimai xadimi N.Nərimanovun şərəfinə "Nərimanlı", Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Şatvan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 10' şm. e., 45° 49' ş.u.[3]

**Pəmbək (Quşçu dərəsi)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 24 km şimal-qərbdə Göyçə gölünün şərq sahilində, Basarkeçər-Krasnoselo avtomobil yolunun üzərində, dəniz səviyyəsindən 2 027 metr hündürlükdə yerləşmişdir. 1873-cü ildə kənddə 166 nəfər, 1886-cı ildə 237 nəfər, 1897-ci ildə 283 nəfər, 1908-ci ildə 352 nəfər, 1914-cü ildə 392 nəfər, 1922-ci ildə 390 nəfər, 1926-cı ildə 377 nəfər, 1931-ci ildə 512 nəfər, 1988-ci ildə 2 000 nəfər azərbaycanlı əhali yaşamışdır.[4] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrtafiyası, s. 292.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-25, 40-15, s.70.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 143.

[4] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 292-293.

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 23' şm. e., 45° 31' ş.u.[1]

**Sarıyaqub (Siyaqut, Baş Keyti)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən 10 km cənub-şərqdə, dəniz səviyyəsindən 2 102 m hündürlükdə yerləşir. 1873-cu ildə kənddə 294 nəfər, 1886-cı ildə 416 nəfər, 1897-ci ildə 436 nəfər, 1908-ci ildə 385 nəfər, 1914-cü ildə 675 nəfər, 1916-cı ildə 651 nəfər, 1922-ci ildə 343 nəfər, 1926-cı ildə 377 nəfər, 1931-ci ildə 471 nəfər, 1988-ci ildə 1 700 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[2] Qafqazın beş



Miskin Abdal

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 235.

[2] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 293.

verstlik xəritəsində qeyd olunmuşdur.[1]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Cağatsadzor" (Dəyirmandərə) qoyulmuşdur. 7 noyabr 1995-ci il tarixli "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 08' şm. e., 45° 48' ş.u.[2]

**Subatan** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndi. Rayon mərkəzindən cənubda, dəniz səviyyəsindən 2198 m hündürlukdə yerləşir. 1873-cü ildə kənddə 180 nəfər, 1886-cı ildə 263 nəfər, 1897-ci ildə 306 nəfər, 1908-ci ildə 368 nəfər, 1914-cü ildə 429 nəfər, 1922-ci ildə 208 nəfər, 1926-cı ildə 349 nəfər, 1931-ci ildə isə 259 nəfər azərbaycanlı əhali yaşamışdır.[3] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[4]

Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı kəndin daha dəyişdirilərək "Geğakar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 07' şm. e., 45° 41' ş.u.[5]

**Çaxırlı (Qızılbulaq, Sovetakert-1978)** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonun-

---

[1] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15, 40-15, s.221.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 244

[3] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 293.

[4] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8,63-15, 40-15, s.230.

[5] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 251.

da azərbaycanlı kəndi. Rayon mərkəzindən 2,5 km cənub-qərbdə. Göyçə gölünün cənub-şərq sahilində, dəniz səviyyəsindən 1963 m hündürlukdə yerləşir. 1918-ci ilədək bu kənddə ancaq azərbaycanlılar yaşamışdır. 1918-1920-ci illərdə kəndin əhalisi qovulmuş, 1915-1918-ci illərdə Türkiyədən gəlmiş ermənilər burada məskunlaşmış və qarışıq kəndə çevrilmişdir. Kənddə 1831-ci ildə 212 nəfər, 1873-cü ildə 770 nəfər, 1886-cı ildə 1020 nəfər, 1897-ci ildə 1204 nəfər, 1908-ci ildə 1349 nəfər, 1914-cü ildə 1653 nəfər, 1922-ci ildə 679 nəfər azərbaycanlı, 363 nəfər erməni, 1926-cı ildə 763 nəfər azərbaycanlı, 382 nəfər erməni, 1931-ci ildə 975 nəfər azərbaycanlı, 663 nəfər erməni əhali olmuşdur. 1988-ci ildə Çaxırlı kəndinin 1500 nəfər azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə “Sovetakert”, Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək “Xaçaxbyur” qoyulmuşdur. “Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında” 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 10' şm. e., 45°41'  ş.u.[3]

**Şişqaya** – İrəvan quberniyasının Yeni Bəyazid qəzasında indiki Basarkeçər rayonunda azərbaycanlı kəndn. Rayon mərkəzindən 9 km şimal-qərqdə, Göyçə dağlarının ətəyində, Basarkeçər – Krasnoselo avtomobil yolunun üstündə, dəniz

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 294.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8,63-15, 40-15, s.131.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 85.

səviyyəsindən 2059 m hündürlükdə yerləşir. 1831-ci ildə bu kənddə 251 nəfər, 1873-cü ildə 593 nəfər, 1886-cı 905 nəfər, 1897-ci ildə 1132 nəfər, 1908-ci ildə 1041 nəfər, 1914-cü ildə 1088 nəfər, 1916-cı ildə 1232 nəfər, 1922-ci ildə 461 nəfər, 1926-cı ildə 612 nəfər, 1931-ci ildə 863 nəfər, 1988-ci ildə 4000 nəfərdən artıq azərbaycanlı əhali yaşamışdır.[1] Qafqazın beş verstlik xəritəsində qeyd olunmuşdur.[2]

Kəndin adı Erm. SSR AS RH-nin 3 aprel 1991-cı il tarixli qərarı ilə dəyişdirilərək "Quqariç", 8 avqust 1991-ci il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Qeğamasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 18' şm. e., 45° 40' ş.u.[3]

**Tüstülü (**Lusakunk – 1978-ci ildən**)** – İrəvan quberniyasının Yeni-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda kənd. Vilayət mərkəzi Kəvər şəhərindən 76 km cənub-şərqdə, çay kənarında, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə yalnız azərbaycanlılar yaşamışdır. İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər bu kənddə də yerləşmişlər. 1873-cü il məlumatına görə, kənddə 241 nəfər azərbaycanlı, 123 erməni, 1898-ci ildə 196 nəfər azərbaycanlı, 144 erməni, 1914-cü ildə 237 nəfər azərbaycanlı, 217 erməni yaşamışdır. 1918-ci ildə erməni silahlı birləşmələrinin kəndə hücumu nəticəsində azərbaycanlılar kütləvi qırğınlara məruz qoyulmuş və kənddən de-

---

[1] Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 294-295.

[2] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края, J8, 63-15, 40-30, s.296.

[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.261.

portasiya olunmuşdur. 1922-ci ildə cəmi 42 azərbaycanlı kəndə qayıtmış, 1979-cu ildə kənddə 34 azərbaycanlı yaşamışdır. Toponim tüstülü tayfasının adı əsasında yaranmışdır. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.[1]

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusakunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40° 10' şm. e., 45° 41' ş.u.[2]

**Qeyd: Yuxarıda adları qeyd edilən yaşayış məntəqələrinin azərbaycanlı əhalisinin sayı rəsmi sənədlərə istinadən verilmişdir. Lakin siyahıyaalınma zamanı Qərbi Azərbaycanın, o cümlədən Göyçə mahalının azərbaycanlı əhalisinin sayı dəqiq ifadə edilməmişdir. Belə ki, keçirilən siyahıyaalmalar vaxtı deportasiya olunanlar, diskriminasiyaya məruz qalıb könüllü köçənlər, tələbələr, hərbi xidmətdə olan gənclər, həmçinin keçmiş SSRİ-nin müxtəlif respublikalarında mövsümi işlə məşğul olanlar nəzərə alınmamışdır. Buradan belə qənaətə gəlmək olur ki, Qərbi Azərbaycanda yaşayan azərbaycanlı əhalinin sayı rəsmi statistikada göstərilən rəqəmlərdən çox olmuşdur.**

[1] Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края. Издания Кавказского военно-топографического отдела, J8, 63-15, 40-15, s.249.

[2] Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 275.

## GÖYÇƏ MAHALINDA (YENİ BƏYAZİD QƏZASI) DAĞIDILMIŞ VƏ XARABALIĞA ÇEVRİLMİŞ KƏNDLƏR

**Abbasgölü** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə gölünün şimal-qərbində, indiki Sevan şəhərindən 12-13 kilometr cənub-şərqdə, üç tərəfdən yamaclarla əhatə olunmuş kiçik dağ gölünün ətrafında yerləşmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Camalgöl" adı ilə təqdim olunub. 1826-1828-ci illər Ru- siya-İran müharibəsi zamanı Abbasgölü kəndi dağıdılmışdır. XIX əsrin ortalarında kəndin əzəli sahibləri doğma ocaqlarını yenidən bərpa etmişlər. 1897-ci ildə Abbasgölü kəndində 670 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Qırğınlardan sağ çıxmış çox az əhali kompakt şəkildə Qars vilayətinin Meydancıq köyünə köç etmişdir.[1] Hazırda kənd xarabalıqdır.

**Abdullar** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Noradüz kəndindən 4-5 km şimal-qərbdə, Göyçə (Sevan) gölünün sahilində yerləşirdi.[2] Hazırda xarabalıqdır. Toponim Abdullar nəsil adı əsasında əmələ gəlmişdir.

**Adatəpə** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Ardanış kəndinin yaxınlığında, Ardanış və Şorca kəndləri arasında, Şorca kəndindən 3-4 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. – Bakı: Şərq-Qərb, – 2021, s. 301.

[2] Yenə orada, s. 302.

verstlik xəritəsində qeyd edilmişdir. Kənddə azərbaycanlılar yaşamışdır. XIX əsrin əvvəllərində kənd ləğv edilmişdir. Bəzən səhv olaraq indiki Ardanış kəndi ilə eyniləşdirilir. Erməni mənbələrində Adatəpənin "Adavəngin" adı əsasında yarandığı göstərilir. Toponim Azərbaycan dilində "hər tərəfi su ilə əhatə olunmuş quru sahə" mənasında işlənən "ada" sözü ilə "alçaq dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.[1]

**Ağcaquş** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə (Sevan) gölünün şərqində yerləşirdi. Hazırda xaraba kənddir.[2]

**Ağtala** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. 1926-cı ildə kənddə 26 nəfər azərbaycanlı yaşamışdır. 1930-cu illərdə Ermənistan hökumətinin qərarı ilə kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "kiçik", "balaca" mənasında işlənən "ağ" sözü ilə "meşə ortasında açıqlıq" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.[3]

**Ağtəpə** – kənd İrəvan quberniyasının Novo- Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Şorça kəndinin yaxınlığında yerləşirdi. 1831-ci ildə kənddə 129, 1926-cı ildə 16 nəfər yalnız azərbaycanlı yaşamışdır. XX əsrin ortalarında azərbaycanlılar deportasiya edilmiş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "alçaq, kiçik" mənasında işlənən "ağ" sözü ilə "alçaq dağ" mənası bildirən "təpə" oronimi əsasında yaranmışdır. Yaşayış məntəqəsi alçaq kiçik təpədə

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 303.

[2] Yenə orada, s.303.

[3] Yenə orada, s. 305.

yerləşdiyi üçün Ağtəpə adlanmışdir.[1]

**Altuntaxt** – kənd İrəvan xanlığının Göyçə mahalında, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. XIX əsrdə yeni yaradılan inzibati-ərazi bölgüsünə əsasən, İrəvan quberniyasının Novo-Bəyazid qəzasına, keçmiş Kəvər (Kamo) rayonu ərazisinə daxil olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini dikdi". 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə, 1763-1780-ci illərdə Eçmiədzin katolikosu olmuş Simeon Erivantsinin "Cambr" əsərində qeyd edilmişdir. Kənd XVIII əsrin axırları – XIX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "qızıl" (qırmızı) mənasında işlənən "altun" sözünə "dağın zirvəsində hamar, düzən yer" mənasında işlənən" taxt" sözünün artırılması yolu ilə yaradılmışdır.[2]

**Artdaş** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik ərazisində mövcud olmuşdur. Kənd 1950-ci ildə ləğv edilmişdir. Toponim türk dilində "dağlıq, dağ keçidi" mənasında işlənən "art" sözü ilə "dağ, qaya" mənasında işlənən "daş" sözü əsasında yaranmışdır.[3]

**Aşağı Altuntaxt** – kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Kəvər (Kamo) rayonunda, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim vulkan mənşəli qaya adlarında "qırmızı" mənasında işlənən "altun" sözü ilə "dağın zirvəsində hamar, düzən yer" mənasında işlənən "taxt" sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşa-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 305.

[2] Yenə orada, s.307.

[3] Yenə orada, s. 310.

ğı" sözü fərqləndirici əlamət bildirir.[1]

**Aşağı Çəmbərək** – kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kəndi XIX əsrdə Çəmbərək kəndindən köçənlər salmışdır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözündən və Azərbaycan dilində şam ağacının adını ifadə edən "çam" (çəm) sözü ilə "baraq" (bərək) türk etnonimindən əmələ gəlmişdir. Kənd indiki Çəmbərək kəndi ilə birləşdirilərək yaşayış məntəqələri siyahısından silinmişdir.[2]

**Aşağı Əliqrıx** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Gevond Alişanın "Sisakan" əsərində adı çəkilir. Sonradan xaraba qalıb.[3]

**Atqoç** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim türk dilində "ad" mənasında işlənən "at" sözü ilə, "düşərgə" mənasında işlənən "koç/koş" sözünün birləşməsindən əmələ gəlmişdir.[4]

**Azadxaraba** – kənd Göyçə (Sevan) gölünün ətrafında, Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazi-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.310.

[2] Yenə orada, s. 311.

[3] Yenə orada.

[4] Yenə orada, s.313.

sində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Xarabalığa çevrilib.[1]

**Azqala** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Xarabalığa çevrilib.[2]

**Bakər** – kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Aşağı Çəmbərək kəndindən 2 km cənub-qərbdə yerləşirdi. Hazırda xarabalıqdır. Evlərin və qəbiristanlığın uçuq divarları indi də durur.[3]

**Berdi xaraba** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd hazırda xarabalığa çevrilib. XIX əsrin axırlarına qədər kənddə dini məbədin qalıqları dururdu. Toponim türk dilində "çətin keçilən yer" mənasında işlənən "berd" (bert) sözü ilə "xaraba" sözünün birləşməsindən əmələ gəlmişdir.[4]

**Bığlı Hüseyn Saraclı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı erməni mənbələrində "Beqli Hüseyn", "Bexlu" formalarında da göstərilir. Kənd Kəvər yaşayış məntəqəsindən 22 km şimal-qərbdə, Göyçə gölünün şimal-qərbində yerləşirdi. Qafqa-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 314.
[2] Yenə orada, s.314.
[3] Yenə orada, s. 316.
[4] Yenə orada, s. 317.

zın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1930-cu ildə keçmiş Axta (Hrazdan) rayonunun ərazisinə daxil idi. Kənddə 1831-ci ildə 26, 1873-cü ildə 356, 1886-cı ildə 505, 1897-ci ildə 645, 1908-ci ildə 658, 1914-cü ildə 846, 1916-cı ildə 768 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri geri dönmüşlər. Kənddə 1922-ci ildə 53 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1923-1925-ci illərdə kənddə olan azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilmişdir. Toponim "Bığlı Hüseyn" antroponimi ilə qazax tayfalarından biri olan "saradı" etnonimi əsasında əmələ gəlib, "Saradı tayfasından olan Bığlı Hüseynə mənsub kənd" mənasını bildirir.[1]

**Böyük Ağa** – kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qanlı Ağalı kəndinin yaxınlığında yerləşirdi. Kənd XIX əsrin əvvəllərindən xaraba qalmışdır. Toponim Azərbaycan dilində "hörmətli, nüfuzlu" mənasında işlənən "böyük" sözü ilə şəxs adı bildirən "Ağa" sözünün birləşməsindən əmələ gəlmişdir.[2]

**Cıvıxlı** – kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.319.

[2] Yenə orada, s.320.

"Çivixli", "Çibuxli", "Çibixlı" formalarında da qeyd edilir. Krasnoselsk yaşayış məntəqəsindən 13 km şimal-qərbdə, meşəlik yerdə yerləşirdi. Gölkənd sovetliyinə tabe idi. Kənddə 1897-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 137, 1931-ci ildə 132, 1970-ci ildə 364, 1979-cu ildə 351 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişlər. Hazırda kənd xarabalığa çevrilib. Toponim çubuxlu türk tayfa adı əsasında əmələ gəlmişdir.[1]

**Çamırlı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qızılvəng kəndinin yaxınlığında, Alagöl çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə 1873-cü ildə 244, 1886-cı ildə 329, 1897-ci ildə 374, 1908-ci ildə 491, 1914-cü ildə 632, 1916-cı ildə 541 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.324.

42 nəfər azərbaycanlı yaşamışdır. Kənd sonradan ləğv edilmişdir. Hazırda xarabalıqdır.[1]

**Çopur Əli** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Rayonun Qorçulu (Mrqaşad), Dədəqışlaq (Axundov, Pyunik) kəndlərinin arasında yerləşirdi. 1831-ci ildə kənddə 28 nəfər azərbaycanlı yaşamışdır. XIX əsrin ortalarında kənd ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.[2]

**Daş Keyti** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Daşkənd kəndindən 3 kilometr cənubda yerləşirdi. 1831 – ci ildə kənddə 124 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1850-1860-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və yaşayış məntəqəsi kimi kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "dağ, qaya" mənasında işlənən "daş" sözü ilə türk dilində "axır, arxa hissə" mənasında işlənən "ket" sözü əsasında əmələ gəlmişdir.[3]

**Nazir Əhmədlinin "Göyçə mahalının kameral təsviri" kitabında 1842-ci ildə Daş Keyti həmin dövrdə insanların yaşadığı Qayabaşı kəndi yaşayış məskəni kimi göstərilmişdir**.[4]

**Dəllər** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qə-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.325.

[2] Yenə orada, s.328.

[3] Yenə orada, s.329.

[4] Əhmədli Nazir. Göyçə mahalının kameral təsviri. Bakı, Elm və Təhsil, 2017, s. 181.

zasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta (Hrazdan) yaşayış məntəqəsindən 13 km şimal-qərbdə, Zəngi çayının qolu olan Dəllər çayının sahilində, Zincirli dağının ətəyində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə, Qafqazın 5 verstlik xəritəsində[1] qeyd edilmişdir. Kənddə 1831-ci ildə 181, 1873-cü ildə 227, 1886-cı ildə 267, 1897-ci ildə 303, 1908-ci ildə 385, 1914-cü ildə 597, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Hun tayfa birliyinə daxil olan "tele" (dəli) türk etnoniminə cəm bildirən"lər" şəkilçi əlavə etməklə formalaşmışdır.[2]

**Əhmədli** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə çayının sahilində yerləşirdi. 1826-1828-ci illərdə – Rusiya- İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər. 1897-ci ilin rəsmi statistikasına görə, kənddə 35 azərbaycanlı ailəsi (141 nəfər) yaşamışdır. 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar nəticəsində kənd təkrar dağıdılmış və nəticədə, xaraba kəndə çevrilmişdir. Toponim səlcuq türklərindən olan "əhmədli" etnonimi əsasında əmələ gəlmişdir.[3]

---

[1] Əhmədli Nazir. Göyçə mahalının kameral təsviri, s. 74.
[2] Yenə orada, s. 331.
[3] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan

**Əlikənd** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəfləri"ndə bu qədim türk yurdu "Bəd Əlinin kəndi" kimi təsniflənir. 1826-1828-ci illərdə – Rusiya-İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar kəndi tərk etmişlər. Hazırda xarabalıqdır. Toponim "Əli" şəxs adı ilə "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir.[1]

**Fərrux** – kənd İrəvan quberniyasının Novo- Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Yaycı kəndinin yaxınlığında, Zəngi çayının sağ axarında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə əvvəllər azərbaycanlılar yaşamışlar. Sonra bura ermənilər köçürülmüş və azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. 1897-ci ildə kənddə 10 nəfər azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. Azərbaycanlılar erməni silahlıları tərəfindən tarixi torpaqlarından qovulmuş və kənddə yalnız ermənilər yaşamağa başlamışlar. Toponim şəxs adı əsasında düzəlmiş antropotoponimdir. Sonralar kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.[2]

**Göyçay** – kənd İrəvan əyalətinin Göyçə mahalında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin

---

Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.333.

[1] Yenə orada, s. 334.

[2] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.338.

ərazisində mövcud olmuşdur. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Göyçə mahalında xarabalığa çevrilmiş kəndlərin siyahısında Göyçay kəndinin də adı çəkilir. Toponim rəng bildirən "göy" sözü ilə "çay" sözünün birləşməsindən əmələ gəlmişdir.[1]

**Güney** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Gölkənd kəndindən 6 km şərqdə yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddəki evlərin və qəbiristanlığın xarabalığı indi də durur. Toponim Azərbaycan dilində "gün düşən, cənub" mənasında işlənən "güney" sözü əsasında əmələ gəlib, "güneydə olan kənd" mənasını ifadə edir.[2]

**Güneyqoruq** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Dərəçiçək kəndinin yaxınlığında yerləşirdi. XIX əsrin axırlarında 7 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində kənd ləğv edilmişdir. Toponim "cənub", "gün düşən yer" mənasında işlənən "güney" sözü ilə "əkilmiş yerlər", "istifadə edilməsi qadağan olunmuş mülkədar yerləri" mənasında işlənən "qoruq" sözündən əmələ gəlib.[3]

**Həsənsu** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.340.
[2] Yenə orada, s.341.
[3] Yenə orada.

Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd Zod kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 48 nəfər azərbaycanlı yaşamışdır. 1928-1930-cu illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Toponim şəxs adı bildirən "Həsən" sözü ilə türk dilində "çay" mənasında işlənən "su" sözünün birləşməsindən əmələ gəlmişdir.[1].

**Hüseynbəyli** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1906-cı ildə 658 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "hüseynbəyli" nəsil adı əsasında əmələ gəlmişdir.[2]

**Xartlıq** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qaranlıq kəndinin və Qaranlıq çayının yaxınlığında, Şahbulaq dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə 1873-cü ildə 144, 1886-cı ildə 162, 1897-ci ildə 190, 1914-cü ildə 282, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1930-cu ildə kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilin-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.344.

[2] Yenə orada.

də "uca, hündür, yaşlı, qoca" mənasında işlənən "qart" sözünə "lıq" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.[1]

**İkinci Qoşabulaq** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Basarkeçər (Vardenis) yaşayış məntəqəsindən 8 km cənub-qərbdə, Qoşabulaq kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin adının "Qırxbulaq", "Kefli" olduğu da göstərilir. Kənddə 1897-ci ildə 178, 1908-ci ildə 262, 1914-cü ildə 274, 1916-cı ildə 244 nəfər azərbaycanlı, eyni zamanda kürdlər yaşamışlar. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmışlar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. 1922-ci ildə kənddə 59 nəfər əhali qeydə alınmışdır. 1923-cü ildən sonra kəndin əhalisi Qoşabulaq kəndinə köçmüş və kənd xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində "cüt" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" hidronimi əsasında əmələ gəlmişdir.[2]

**Karvansara** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Qaranlıq yaşayış məntəqəsindən 10-12 km cənub-şərqdə, Mədinə kəndinin yaxınlığında, Əyriçayın sahilində yerləşirdi. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Əyriçay

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.345.

[2] Yenə orada, s. 347.

Karvansara" və "Əyricə Karvansara" kimi də qeyd edilmişdir. Kənddə 1873-cü ildə 168, 1886-cı ildə 205, 1897-ci ildə 309, 1904-cü ildə 341, 1914-cü ildə 441, 1916-cı ildə 294 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 78, 1926-cı ildə 45 nəfər azərbaycanlı, 1931-ci ildə 80 nəfər azərbaycanlı, 69 erməni, 29 kürd yaşamışdır. Ermənilər kəndə 1928-1930-cu illərdə köçürülmüşlər. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonra kənd ləğv olunmuşdur. Toponim "ticarət yolu üzərində tikili bina" mənasında işlənən "karvansara" sözü əsasında əmələ gəlmişdir.[1]

**Kiçik Qaraqoyunlu** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Basarkeçər (Vardenis) yaşayış məntəqəsindən 14 km cənub-qərbdə yerləşirdi. Kənddə 1897-ci ildə 235, 1908-ci ildə 253, 1914-cü ildə 328, 1916-cı ildə 301 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ilin aprel ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qır-

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 350.

ğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 197, 1926-cı ildə 212, 1931-ci ildə 209 nəfər azərbaycanlı yaşamışdır. Sonralar Böyük Qaraqoyunlu kəndinə birləşdirilərək ləğv edilmişdir. Toponim "qaraqoyunlu" türk etnonimi əsasında əmələ gəlmişdir.[1]

**Qabaxlı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Misxana (Marmarik) çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə 1873-cü ildə 94, 1886-cı ildə 138, 1897-ci ildə 154, 1908-ci ildə 181, 1914-cü ildə 431, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 87, 1931-ci ildə 128 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "qabaq" türk etnoniminə mənsubluq bildirən "lı" şəkilçisinin artırılması yolu ilə

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 352.

düzəldilib, "qabaq tayfasının yaşadığı kənd" anlamını ifadə edir.[1]

**Qamışlı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Göyçə gölünün cənub-şərq sahillərində, keçmiş Martuni rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Alçalı kəndindən 3 km şimal-şərqdə, Kötük çayın Göyçə gölə töküldüyü yerdən təxminən 1 km aralıda yerləşirdi. 1826-1828-ci illər aralığında baş vermiş Rusiya-İran müharibəsi zamanı kənd yerlə yeksan edilmişdir. Həmin illərdə dağıdılmış Qamışlının sağ qalan əhalisinin az qismi Aşağı Alçalıya, əksər hissəsi isə nisbətən təhlükəsiz olan Qanlı Allahverdi kəndinə pənah aparsalar da, XIX əsrin ortalarında kənd yenidən bərpa edilmişdir. Qamışlının 1873-cü ildə 93, 1898-ci ildə 161 nəfər azərbaycanlı əhalisi olmuşdur. XX əsrin əvvəllərində kənd ləğv edilmiş və yaşayış məntəqələri siyahısından silinmişdir. Toponim "qamış" bitki adına "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.[2]

**Qaraqala** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Misxana çayının sahilində, Tayçarıx kəndinin yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir. Kənddə 1831-ci ildə 76, 1873-cü ildə 140, 1886-cı ildə 227, 1897-ci ildə 261, 1908- ci ildə 290, 1914-cü ildə 413, 1916-cı ildə 247 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 357.

[2] Yenə orada, s.367.

silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 83, 1926-cı ildə 132, 1931-ci ildə 193 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim rəng bildirən "qara" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.[1]

**Qarasaqqal** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Alçalı kəndinin yaxınlığında yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Hazırda xarabalıqdır. Toponim "qarasaqqal" etnonimi əsasında düzəlmişdir.[2]

**Qarnıyarıq** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Hrazdan şəhərinin şimal-qərbində yerləşirdi. "İrəvan əyalətini icmal dəftəri"ndə, Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kəndin digər adı "Karvansara" olmuşdur. Köhnə Karvansaranın divarları

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.360.
[2] Yenə orada, s.362.

indi də durur. Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin kəndə köçürülüb məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər . Ermənilərlə yanaşı, 1897-ci ildə kənddə 50 nəfər azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. Hrazdan şəhərinin genişləndirilməsi nəticəsində kənd 1960-cı ildə ləğv edilərək şəhərə birləşdirilmişdir. Toponim "kiçik arx, kiçik su yolu" mənasında işlənən "qarnım" sözü əsasında formalaşan "qarın" sözü ilə, türk dilində "yer səthində olan çay", "yarılmış yer", "dərə" mənasında işlənən "yarıq" sözünün birləşməsindən əmələ gəlmişdir.[1]

**Qızılxaraba** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə kəndinin yaxınlığında, Arxaşan və Əbdülasar dağları arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.

Kənddə 1873-cü ildə 188, 1886-cı ildə 136, 1897-ci ildə 125, 1908-ci ildə 215, 1914-cü ildə 421, 1916-cı ildə 249 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin mart ayında kəndin sakinləri erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə qovulmuşdur. Kənddə 1930-cu illərə kimi heç kim yaşamamışdır. 1930-cu ildən sonra kəndə ermənilər köçürülmüşdür. Toponim Azərbaycan dilində "qırmızı" mənasında (torpağın süxurlarının rənginə görə) işlənən "qızıl" sözü ilə

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 363.

"dağıdılmış" mənasında işlənən "xaraba" sözündən əmələ gəlmişdir. "Qırmızı" – "torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yaxınlığındakı kənd" mənasını verir. Hazırda kənd ləğv edilmişdir.[1]

**Quşçu dərəsi (Quşçu)** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən 27 km şimal-qərbdə yerləşirdi. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə Məzrə nahiyəsinə daxil olduğu göstərilir. 1826-1828-ci illərdə baş vermiş Rusiya-İran müharibəsi zamanı Quşçu kəndi də darmadağın edilmişdir. İ.Şopenin tərtib etdiyi kameral siyahıyalmaya əsasən, kənd "adları unudulmuş ölü kəndlər" qrafasına salınmışdır. Quşçu kəndinin əzəli sahiblərinin sonrakı taleyi barədə dürüst məlumat yoxdur. Yalnız kəndin xarabalığından 200-300 metr kənarda yerləşən qədim məzarlıqdakı qəbirüstü kitabələrin qalıqlarına əsasən, oğuz türklərinin burada məskunluğunun 1.000-1.500 illik bir dövrü əhatə etdiyi məlum olur. Quşçu kəndinin ocaq yerləri Pəmbək kəndindən 4-5 km şimalda, dağlarla əhatələnmiş dərə içərisindədir.[2]

**Mollalı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Martuni şəhərindən 19 kilometr şərqdə yerləşirdi. Şimaldan Alçalı, şi-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 366.

[2] Yenə orada, s. 369.

mal-şərqdən Qamışlı, şərqdən Çamırlı, cənub-şərqdən Gödəkbulaq və Yuxarı Zağalı, qərbdən Aşağı Gözəldərə və Gözəldərə, cənubdan isə Dərələyəz mahalının Sallı kəndləri ilə həmsərhəd idi. XIV əsrin əvvəllərindən başlayaraq oğuz türklərinin Göyçədəki yurd yerlərindən biri olan və bu kənd onu binələşdirən tayfanın ağsaqqalının şərəfinə əvvəlcə "Yekəalılar", sonradan isə rəsmən bu kəndin bəyi olmuş Dünyamalı bəyin atası Molla Alı Sultanın şərəfinə "Mollalı" adlandırılıb. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə kənd məhz "Yekəalıca" kimi təqdim olunub. 1873-cü ilin rəsmi statistikasında Mollalı kəndinin 232 nəfər türk sakini olduğu göstərilir. 1914-cü ildə Mollalıda əhalinin sayı 278 nəfərə (73 təsərrüfat) çatmışdı. 1919-cu ildə Göyçədə həyata keçirilən soyqırımı zamanı Mollalı kəndi də viran qoyulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar doğma yurdlarına qayıtmışdılar. Həmin vaxt kənddə 50-yə yaxın erməni ailəsi yerləşdirilmişdi. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1949-cu ildə 58 azərbaycanlı ailəsi (315 nəfər) kənddən zorla Azərbaycana deportasiya edilmişdir. Kəndin erməni əhalisi Vedi rayonundakı boşalmış azərbaycanlı kəndlərinə köçürüldükdən sonra kənd 1950-ci ildə ləğv edilmişdir.[1]

**Oğruca (Əyricə)** – kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğar-

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 373.

kunik vilayətinin ərazisində mövcud olmuşdur. Qaraiman kəndinin yaxınlığında yerləşirdi. İ.Şopenin əsərində Göyçə mahalında ləğv edilmiş kəndlərin siyahısında Oğruca kəndinin adı "Ağrıca" formasında qeyd edilir. Z.Qorqodyan Göyçə mahalında ləğv edilən kəndlərin sırasında "Oğruca" kəndinin adını "Ağrıca" kimi çəkir. Əslində, kəndin adını yerli əhali "Əyricə" kimi ifadə edib. Kənd 1826-1828-ci illərdə – Rusiya-İran müharibəsindən sonra dağıdılıb. Hazırda xarabalıqdır. Toponim oğuzlardan olan oğur türklərinin adı əsasında əmələ gəlmişdir.[1]

**Ozanlar** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta yaşayış məntəqəsindən 10 km cənub-qərbdə, Alapars kəndinin yaxınlığında, Zəngi çayının sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə, Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə 1831-ci ildə 15, 1873-cü ildə 179, 1886-cı ildə 229, 1897-ci ildə 288, 1908-ci ildə 357, 1914-cü ildə 416, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1918-1919-cu illərdə Türkiyədən gələn erməni ailələri kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar kəndlərinə qayıda bilmişdilər. 1922-ci ildə kənddə 118 nəfər azərbaycanlı, 1939-cu ildə 198 nəfər azərbaycanlı, 1959-cu ildə 111 nəfər

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 375.

azərbaycanlı və erməni yaşamışdır. 1960-cı ildə kəndin azərbaycanlı sakinləri deportasiya olunmuş, kənd ləğv edilmiş, azərbaycanlılara məxsus tarixi abidələr dağıdılmışdır. İndi kəndin yeri əkin sahəsinə çevrilmişdir. Toponim "Kitabi-Dədə Qorqud" dastanında "aşıq" mənasında işlənən "ozan" sözünə, cəmlik, topluluq bildirən "lar" şəkilçisi artırmaqla düzəldilmişdir.[1]

**Seyidlər** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Hüseynquluağalı (sonradan Nərimanlı) kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 36 nəfər azərbaycanlı yaşamışdır. 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim ərəblərin qüreyş qəbiləsindən olan "seyidlər" tayfa adı əsasında formalaşmışdır.[2]

**Siçanlı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Təzəkəndin yaxınlığında yerləşirdi. Kənddə 1886-cı ildə 302, 1897- ci ildə 310, 1904-cü ildə 499, 1914-cü ildə 582, 1916-cı ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim oğuzların bəydili tayfasına mənsub olan "sincan" et-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s. 377.

[2] Yenə orada, s.381.

noniminə mənsubluq bildirən "lı" şəkilçisinin qoşulması ilə düzəlmişdir.[1]

**Soyuqbulaq** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Zəngi çayının sağ axarında, Soyuqbulaq çayının yuxarısında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1831-ci ildə 43, 1897-ci ildə 186 nəfər azərbaycanlı və yezdi kürd yaşamışdır. Erməni müəlliflərinin əsərlərində kənd sakinləri kimi yalnız kürdlər göstərilir. 1926-cı ildə kənddə yalnız bir nəfər azərbaycanlı yaşamışdır. Toponim Azərbaycan dilində "sərin" mənasında işlənən "soyuq" sözü ilə "bulaq" hidroniminin əsasında əmələ gəlmişdir. Sonralar kənd yaşayış məntəqələrinin siyahısından çıxarılmışdır.[2]

**Tatul qışlağı** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Daşkənd kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831- ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır. XIX əsrin 40-50-ci illərində azərbaycanlılar buradan qovulmuş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında düzəlmişdir.[3]

**Üçtəpələr** – İrəvan quberniyasının Novo-Bəyazid qəza-

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.382.

[2] Yenə orada, s.382.

[3] Yenə orada, s.387.

sında, keçmiş Axta (Razdan) rayonunda, indi Kotayk vilayəti ərazisində yaşayış məntəqəsi olmuşdur. Üçtəpələr dağının ətəyində, Novo-Bəyazid yolunun ağzında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Kənd Üçtəpələr dağının ətəyində yerləşdiyi üçün Üçtəpələr adı almışdır. Bu toponim say bildirən "üç" və relyef bildirən "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.[1]

**Üləşik** – kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta yaşayış məntəqəsindən 18 km şimal-qərbdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində, Təkəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı "Ulaşik" formasında qeyd edilməklə, onun qədim və ya başqa adının "Ulyaşeyx" olduğu da göstərilir. Kənddə 1831-ci ildə 66, 1873-cü ildə 225, 1886-cı ildə 313, 1897-ci ildə 337, 1908-ci ildə 425, 1914-cü ildə 733, 1916-cı ildə 385 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 121, 1926-cı ildə 209, 1931-ci ildə 302 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.390.

1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, 1950-ci ildə kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "ulaş" tayfa adına cəmlik bildirən "ik" şəkilçisinin qoşulması yolu ilə düzəlmişdir.[1]

**Yelli dərə –** kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Şorca kəndinin şimal-şərqində yerləşirdi. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "külək" mənasında işlənən "yel" sözü ilə "dərə" sözündən yaranmışdır.[2]

**Allahverdi bəy** – İrəvan xanlığının Göyçə mahalında azərbaycanlı kəndi. Coğrafi mövqeyi və əhalisi haqqında dəqiq məlumat yoxdur.[3]

**Buğda təpə (Buğa təpə)** – İrəvan xanlığının Göyçə mahalında qədim azərbaycanlı kəndi. 18-ci əsr müəllifi Simon Yerevanlı tərəfindən xatırlanır. Onun fikrincə, bu kənd Göyçə gölünün şimal sahilində, Buğda təpə dağının ətəklərində yerləşmişdir. 19-cu əsrin axırlarında ləğv olunmuşdur.[4]

**Buzxana** – İrəvan xanlığının Göyçə mahalında kənd. İlk dəf Simon Yerevanlı tərəfindən xatırlanır. Coğrafi mövqeyi məlum deyil.[5]

---

[1] Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması, s.390.

[2] Yenə orada, s.392.

[3] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. – Bakı: Gənclik, – 1995, – s.277.

[4] Yenə orada, s.281.

[5] Yenə orada.

**Karvansara (Səməd ağa dərəsi)** – İrəvan quberniyasının Yeni Bayazid qəzasında kiçik azərbaycanlı kəndi. Xarabalıqları indi Basarkeçər rayonundakı Pəmbək kəndinin yaxınlığındadır.[1]

**Göyçə** – İrəvan quberniyasının Göyçə mahalında kənd. Bu kəndi həmin mahalda Göyçə adlı ölü kəndlə qarışdırmaq olmaz.[2]

**Göytəpə** – ölü kənd. Xarabalıqları Qoşabulaq kəndindən 2 km şərqdədir. Kəndin yaxınlığında başqa bir kənd yeri vardır. Binalarının qalıqları qalmışdır.[3]

**Qaşkənd** – 1834-cü ildə çap olunmuş xəritədə və "Ermənistan Respublikasının yaşayış məntəqələrinin lüğəti" kitabında kənd Sarıyaqub kəndindən 1,5 km aralıda "Bardzraver" (Qaşkənd) yaşayış məntəqəsi kimi qeyd olunmuşdur.[4]

**Kükü kənd** – 1834-cü ildə çap olunmuş xəritədə göstərilmişdir.[5]

7 noyabr 1995-ci ildə Ermənistan Respublikasında rayon bölgüsü ləğv edilmişdi və ərazi 10 marza, yəni vilaytə bölünmüşdü: 1.Araqatsotn, 2.Ararat, 3.Armavir, 4.Vayotsdzor, 5.Geğarkunik, 6.Kotayk, 7.Lori, 8.Sünik, 9.Tavuş, 10.Şirak və marz hüquqlu Yerevan. Beləliklə, demək olar ki,

---

[1] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 289.

[2] Yenə orada, s. 291.

[3] Yenə orada.

[4] Հայաստանի Հանրապետության բնակավայրերի բառարան. Երևան, 2008, 184 էջ 184 (Ermənistan Respublikasının yaşayış məntəqələrinin lüğəti. İrəvan, 2008, 184 s.), s. 168.

[5] Карта Закавказского края с пограничными землями составленного из материалов Генерального штаба отдельного Кавказского корпуса в 1834 года.

İrəvan xanlığı dövrünün inzibati-ərazi bölgüsü bərpa edilmişdi, yalnız ”mahal” sözü “marz” ilə əvəz olunmuşdu. Əslində “mərz” özü də elə türk sözüdür və “sərhəd”, habelə ”əkin yeri” mənalarını daşıyır. Keçmiş Dərəçiçək mahalının ərazisini əhatə edən Axta (Hrazdan) rayonu Kotayk marzının tərkibinə, Göyçə mahalının və Yeni Bəyazid qəzasının ərazisi, o cümlədən Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları Geğarkunik marzının tərkibinə qatılmışdı.[1]




XX əsrin 20-30-cu illərindən etibarən Ermənistan SSR rəhbərliyinin ardıcıl və planlı siyasətinin tərkib hissəsinə yeni bir istiqamət də əlavə olundu: Qərbi Azərbaycanın türk mən-

[1] Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, s. 229-230.

şəli toponimlərinin tamamilə dəyişdirilməsi siyasəti. Əslində türk mənşəli toponimlərin uzun illər boyu dəyişdirilib erməni mənşəli adlarla əvəz edilməsi azərbaycanlıların min illər boyu bu ərazidə yaşamasını sübut edən faktları saxtalaşdırmaqla yanaşı, müxtəlif elm sahələrində aparılan tədqiqatlar üçün tarixi mənbə olacaq onomastik vahidlərin izini itirmək məqsədini daşıyır.[1]

Bu siyasət Göyçə mahalından da yan keçmədi. Belə ki, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il fərmanı ilə Ağkilsə kəndinin adı Azat, Qırxbulaq kəndinin adı Akunk, Böyük Qaraqoyunlu kəndinin adı Əzizli, Zarzebil kəndinin adı Zərkənd, 7 dekabr 1945-ci il fərmanı ilə Aşağı Gözəldərə kəndinin adı Vardenik, Kəsikbaş kəndinin adı Lernakert, 12 iyul 1946-cı il fərmanı ilə Qanlı Allahverdi kəndinin adı Qamışlı (Qarnışlı), Gödəkbulaq kəndinin adı Qarcaxpyur, Ağzıbir kəndinin adı Lçap, Başkənd kəndinin adı Qeğarkuni, Zağalı kəndinin adı Tsovak (Göllü), 5 may 1967-ci il fərmanı ilə Yarpızlı kəndinin adı Lçavan (Gölkənd), Kərkibaş kəndinin adı Şəfəq, 25 may 1967-ci il fərmanı ilə Yarpızlı kəndinin adı Lçavan (Gölkənd), Kərkibaş kəndinin adı Şəfəq, 5 iyul 1968-ci il fərmanı ilə Qaranlıq kəndinin adı Qexovit, 27 sentyabr 1968-ci il tarixli fərmanı ilə Aşağı Alçalı kəndinin adı Ardzvanist, 25 yanvar 1978-ci il tarixli fərmanı ilə Babacan kəndinin adı Tsanatağ, Kəsəmən kəndinin adı Bahar, Qaraiman kəndinin adı Sovetkənd, Qızılvəng kəndinin adı Makenis, İnəkdağ kəndinin adı Yenikənd, Yuxarı Zağalı

[1] Səmədova K.İ. Qərbi Azərbaycan – indiki Ermənistan etnotoponimlərinin arealları. Bakı: Nurlan, 2008, s.2.

kəndinin adı Axbradzor, Hacı Muxan kəndinin adı Dzovazard kimi dəyişdirildi.[1]

Ermənistan Respublikası prezidentinin 19 aprel 1991-ci il fərmanı ilə Göyçə gölü hövzəsinin kənd adlarına qarşı sonuncu soyqırımı həyata keçirildi. Həmin fərmanla Kəsəmən (Bahar) kəndinin adı dəyişdirilərək Artunk, Böyük Məzrə kəndinin adı Mets Masrik, Kiçik Məzrə kəndinin adı Pokr Masrik, Qayabaşı kəndinin adı Keğamabak, Qaraiman (Sovetkənd) kəndinin adı Kaxaki, Qoşabulaq kəndinin adı Şadcrek, Dərəkəndi (Səmədağa Dərəsi) kəndinin adı Daranak, Böyük Qaraqoyunlu (Əzizli) kəndinin adı Norabak, Zarzebil (Zərkənd) kəndinin adı Kut, Zod kəndinin adı Sotk, İnəkdağ (Yenikənd) kəndinin adı Tretuk, Kərkibaş (Şəfəq) kəndinin adı Vanevan, Göysu (Günəşli) kəndinin adı Kutakan, Hüseynquluağalı (Nərimanlı) kəndinin adı Şatvan, Sarıyaqub kəndinin adı Cağatsadzor, Subatan kəndinin adı Keğakar, Gödəkbulaq kəndinin adı Qarcaxbuyr, Şişqaya kəndinin adı Quqariç, Əyrivəng kəndinin adı Hayravan kimi dəyişdirildi.[2]

Tanınmış tədqiqatçı alim Nazim Mustafanın ermənilərin öz mənbələrinə əsaslanaraq yazdığı "Vandalizm. Tarixi adlara qarşı soyqırımı" adlı kitabında Göyçə mahalında adları dəyişdirilən azərbaycanlı yaşayış məntəqələrinin siyahısı aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:[3]

---

[1] Vandalizm: Tarixi adlara qarşı soyqırımı. Tərtib edən N.Mustafa. Bakı: Turxan, 2014, s. 92; Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 286-287.

[2] Vandalizm: Tarixi adlara qarşı soyqırımı, s. 92; Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s. 286-287.

[3] Vandalizm: Tarixi adlara qarşı soyqırımı, s. 7-54.

## Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarına əsasən Ermənistan ərazisində (Göyçə mahalında) adları dəyişdirilmiş azərbaycanlılara məxsus yer adları

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Erməniləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 1 | Adamxan | Vardadzor | Martuni | 03.07.1968 |
| 2 | Ağbulaq | Ağperek | Krasnoselo | 09.04.1991 |
| 3 | Ağkilsə | Azat | Vardenis | 03.01.1935 |
| 4 | Ağqala | Berdunk | Kamo (Kəvər) | 09.04.1991 |
| 5 | Ağzıbir | Lçap | Kamo (Kəvər) | 07.12.1945 |
| 6 | Aşağı Adıyaman | Nerkin Getaşen | Martuni | 07.12.1945 |
| 7 | Aşağı Alçalı | Artsvanist | Martuni | 27.09.1968 |
| 8 | Aşağı Gözəldərə | Vardenis | Martuni | 07.12.1945 |
| 9 | Aşağı Qaranlıq rayonu | Martuni rayonu | ---- | 09.09.1930 |
| 10 | Aşağı Zağalı | Tsovak | Vardenis | 12.08.1946 |
| 11 | Avdalağalı | Vağaşen | Martuni | 03.01.1935 |
| 12 | Babacan | Qızılkənd Çanatağ | Vardenis | 15.07.1978 09.04.1991 |
| 13 | Bahar | Artunk | Vardenis | 09.04.1991 |
| 14 | Basarkeçər | Vardenis | Vardenis | 11.06.1969 |
| 15 | Başkənd | Geğarkunik | Kamo (Kəvər) | 04.04.1946 |
| 16 | Böyük Qaraqoyunlu | Əzizli Norabak | Vardenis | 03.01.1935 09.04.1991 |
| 17 | Böyük Mərzə | Метс Masrik | Vardenis | 09.04.1991 |

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Ermənilləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 18 | Canəhməd (Sultanəliqışlağı) | Günəşli Kutakan | Vardenis | 03.07.1969 09.04.1991 |
| 19 | Çaxırlı | Sovetakert | Vardenis | 25.01.1978 |
| 20 | Çəmbərək | Krasnoselo Cambarak | Krasnoselo (Cambarak) | 1991-ci ildən sonra |
| 21 | Çırçır | Varser | Sevan | 26.04.1946 |
| 22 | Çubuxlu | Tsovagyuğ | Sevan | 03.01.1935 |
| 23 | Daşkənd | Hayrk | Vardenis | 09.04.1991 |
| 24 | Dəlikdaş | Tsakkar | Martuni | 21.06.1948 |
| 25 | Dəliqardaş | Saruxan | Kamo (Kəvər) | 21.06.1948 |
| 26 | Dərə | Daranak | Vardenis | 09.04.1991 |
| 27 | Əfəndi | Noraşen | Sevan | 04.01.1938 |
| 28 | Əliqırıx | Astğadzor | Martuni | 03.01.1935 |
| 29 | Gödəkbulaq | Qarcaxbyur | Vardenis | 12.08.1946 |
| 30 | Göl | Liçk | Martuni | - |
| 31 | Güney | Arevuni | Vardenis | 09.04.1991 |
| 32 | Hacı Muğan | Tsovazard | Kamo (Kəvər) | 25.01.1978 |
| 33 | Hüseynquluağalı | Nərimanlı Şatavan | Vardenis | 09.04.1991 |
| 34 | İnəkdağı | Yenikənd Tretuk | Vardenis | 25.01.1978 09.04.1991 |
| 35 | Kərimkənd | Tsaxkaşen | Kamo (Kəvər) | 02.03.1940 |
| 36 | Kərkibaş | Şəfəq Vanevan | Vardenis | 25.05.1967 09.04.1991 |
| 37 | Kəsəmən | Bahar | Vardenis | 25.01.1978 |

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Erməniləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 38 | Kəsikbaş | Lernakert | Martuni | 07.12.1945 |
| 39 | Qanlı | Qamışlı | Vardenis | 12.08.1946 |
| 41 | Qaranlıq | Geğhovit | Martuni | 03.07.1968 |
| 42 | Qayabaşı | Geğemabak | Vardenis | 09.04.1991 |
| 43 | Qırxbulaq | Akunk | Vardenis | 03.01.1995 |
| 44 | Qızılbulaq | Qarçaxbyur | Vardenis | 1991-ci ildən |
| 45 | Qızılkənd | Tsovatağ | Vardenis | 09.04.1991 |
| 46 | Qızılvəng | Çiçəkli<br>Makenis | Vardenis | 24.07.1940 |
| 47 | Qoşabulaq | Şadcrek | Vardenis | 09.04.1991 |
| 48 | Nərimanlı | Şatavan | Vardenis | 09.04.1991 |
| 49 | Oğruca | Qaraiman<br>Sovetkənd<br>Kaxakn | Vardenis | -<br>25.01.1978<br>09.04.1991 |
| 50 | Ördəkli | Lcaşen | Sevan | 26.04.1946 |
| 51 | Sarıyaqub | Cağatsadzor | Vardenis | 09.04.1991 |
| 52 | Satanağac | Güney<br>Arevuni | Vardenis | 03.01.1935<br>09.04.1991 |
| 53 | Subatan | Geğakar | Vardenis | 09.04.1991 |
| 54 | Şəfəq | Vanevan | Vardenis | 09.04.1991 |
| 55 | Şişqaya | Quqariç | Vardenis | 09.04.1991 |
| 56 | Toxluca | Draxtik | Krasnoselo<br>(Cambarak) | 19.04.1991 |
| 57 | Tüstülü | Lusakunk | Vardenis | 25.01.1978 |
| 58 | Vəliağalı | Dzoragyuğ | Martuni | - |
| 59 | Yarpızlı | Lçavan | Vardenis | 25.05.1967 |

| № | Azərbaycanlılara məxsus olan əvvəlki tarixi adı | Erməniləşdirilmiş yeni adı | Yerləşdiyi rayon | Adın dəyişdirilməsi haqqında fərmanların tarixi |
|---|---|---|---|---|
| 60 | Yaycı | Dzovaber | Sevan | 25.01.1978 |
| 61 | Yenikənd | Tretunk | Vardenis | 09.04.1991 |
| 62 | Yuxarı Adıyaman | Verin Getaşen | Martuni | 07.12.1945 |
| 63 | Yuxarı Zağalı | Axbradzor | Vardenis | 25.01.1978 |
| 64 | Zərkənd | Kut | Vardenis | 09.04.1991 |
| 65 | Zarzebil | Zərkənd | Vardenis | 03.01.1935 |
| 66 | Zod | Sotk | Vardenis | 09.04.1991 |
| 67 | Zolaxaç | Zolakar | Martuni | 03.01.1935 |

Bu cədvəldən də göründüyü kimi, erməni siyasi dairələri Azərbaycan türklərini etnik soyqırıma məruz qoymaqla yanaşı, xalqımızın tarixini və mənəvi mədəniyyətini özündə yaşadan toponimləri də vəhşicəsinə tarix səhnəsindən silmişlər. Bu, mənəvi-mədəni soyqırımın başlıca məqsədi ermənilərin müxtəlif yollarla qamarladıqları Azərbaycan torpaqlarının əsl sahiblərini unutdurmaq siyasətinə qulluq etməkdir.

## Ümummilli lider Heydər Əliyev və Müzəffər Ali Baş Komandan Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışlarından

Ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində iştirak etmişdir. Bu, Heydər Əliyevin qaçqınlar və məcburi köçkünlərlə son görüşü idi. Həmin görüşdə Ümummilli lider demişdir: *"1918-ci ildə onlar azərbaycanlılarla ermənilər arasında qanlı vuruşlara şərait yaratdılar. Azərbaycanlıları Ermənistan ərazisində və başqa yerlərdə qırmağa başladılar və qırğın yaratdılar. İndiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar, demək olar ki, o vaxtdan öz doğma torpaqlarını tərk etməyə məcbur oldular. Hər il tədricən Ermənistandan qədim ata-baba torpaqlarını tərk edib Azərbaycanın ərazisinə köçmək məcburiyyətində oldular. Beləliklə, getdikcə ermənilər azərbaycanlılara məxsus olan torpağı, Ermənistan adlanan yeri zəbt edəndən sonra orada özlərinə dövlət yaratmağa, əhalinin çoxluğunu təmin etməyə çalışdılar. Buna da nail oldular. Sonrakı dövrdə də Azərbaycana Ermənistan ərazisindən azərbaycanlıların axını davam edibdir".*[1]

Ümummilli lider Heydər Əliyev göyçəlilərə müraciət edərək demişdir: *"Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən ina-*

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2012, s. 177-178.

*nıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm. Ancaq indi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam".*[1]

Bu gün Müzəffər Ali Baş Komandan Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu Öndərimizin yolunu uğurla davam etdirir. Ölkə başçımız 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcması İqamətgahının açılışı zamanı bir qrup ziyalı ilə görüşündə demişdir: "13-14 sentyabr əməliyyatından sonra Azərbaycan-Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib. Ermənistan gözəl anlamalıdır bu, nə deməkdir. Bu gün həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini biz gözlərimizlə görürük. Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq".[2]

Bu fikirlər bütün Qərbi Azərbaycanlılara, həmçinin bütün Göyçəlilərə ta qədimdən yaşadıqları ata-baba yurdlarına dönmək, Miskin Abdalın, Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin doğma yurdları – Göyçəmizə qovuşmaq ümidləri verir. Biz inanırıq ki, o gün uzaqda deyil…

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2012, s. 177-178.

[2] Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz iyirmi üçüncü kitab. Bakı: Azərnəşr, 2022, 392 s. s. 188.

# NƏTİCƏ

XX əsrdə Azərbaycanın ermənilər və ruslar tərəfindən soyqırım və deportasiyaya məruz qalmış əsas bölgələrindən biri də Göyçə mahalı olmuşdur. Tarix boyu Azərbaycanın tərkib hissəsi olan bu bölgədə, ermənilər və ruslar tərəfindən mütəmadi həyata keçirilən kütləvi qırğınlar və deportasiya nəticəsində Azərbaycan türkləri zaman-zaman məhv edilmiş, bu ərazilər də tarixi Azərbaycan ərazisində qurulan erməni dövlətinin tərkibinə qatılmışdır.

Beləliklə, XIX əsrin ortalarından etibarən əhalisinin mütləq əksəriyyətini 98,5%-ni azərbaycanlılar təşkil edən Göyçə gölü hövzəsi torpaqlarında tamamilə yeni inzibati ərazi vahidi – Yeni Bəyazid qəzası təşkil edildi.

Bu dövrdə ermənilər Göyçə mahalında 93 kəndi tamamilə dağıtmış, bu kəndlərdə yaşayan əhalinin böyük bir hissəsi qətlə yetirilmiş və sağ qalanların hamısı bu kəndləri tərk etmişdir.

Həmin dövrdə bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliklərinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu proses erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti nəticəsində həyata keçirilmişdir.

Tarixi faktlar onu da göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi iqtisadi

deyil, sırf siyasi maraqlara xidmət edirdi. Məqsəd tarixi Azərbaycan torpaqları olan Ermənistan SSR ərazisindən azərbaycanlıları tamamilə çıxarmaq, əvəzində xaricdə yaşayan erməniləri bu ərazilərə köçürmək olmuşdur. Türkiyə və İranla olan sərhədlər boyunca xristian-erməni koridorunu bir qədər də genişləndirib, möhkəmləndirmək əsas məqsədlərdən biri idi.

1948-1953-cü illərdə Ermənistan SSR-nin tərkibində olan Göyçə mahalını əhatə edən Basarkeçər (1969-cu ildən Vardenis), Yeni Bəyazid (Kamo), Aşağı Qaranlıq (Martuni) rayonlarından da azərbaycanlı əhali zorla köçürülməyə məruz qalmışdır.

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürülmə planına salınmışdır. Lakin rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağalı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi 1948-ci ildə köçürülməyə məruz qalmışdır.

Beləliklə, XIX-XX əsrlərdə rus-erməni tandeminin yürütdüyü cinayətkar siyasət nəticəsində əzəli Azərbaycan torpaqları olan qərb bölgələrimiz, o cümlədən Göyçə mahalı, onların tarixi sakinləri, sahiblərindən – Azərbaycan türklərindən tamamilə, silah gücünə "təmizləndi". Bu cinayətkar siyasətin son mərhələsi – Göyçənin tamamilə türksüzləşdirildiyi 1988-1989-cu illərdə Moskva rəhbərliyinin və M.Qorbaçovun cinayətkar siyasəti nəticəsində həyata keçirildi.

Monoqrafiyanın yazılmasında başlıca məqsəd yuxarıda qeyd olunan həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, xalqımızın öz hüquq və haqlarının bərpa olunmasına yardımçı olmaqdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Ağalarov M.Z. XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində. Avtoreferat. Bakı: 2013, 26 s.
2. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider nəşriyyat, 2005, 440 s.
4. Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı: Elm, 2007, 504 s. + 48 s. illüstrasiya.
5. Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 – dekabr, 1997. 13-cü Kitab: – Bakı: Azərnəşr. 2004. – 520 s. (s.397-398).
6. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı sənədlər toplusu. 3 cilddə. II kitab. İrəvan quberniyasında soyqırımı. Bakı: Çaşıoğlu, 2011. 456 s.
7. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Müqəddimənin müəllifi və məsul redaktor A.Ə.Paşayev. Bakı: Zərdabi LTD, 2013, 784 s.
8. Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponim-

ləri. Bakı: Elm, 2002, 696 s.

9. Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. Birinci nəşr. – Bakı: Şərq-Qərb, – 2021. – 464 s.
10. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən Rəhilə Şükürova. Bakı: Elm, 1998. – 336 s.
11. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Cild 40. Bakı: Azərnəşr, 2012. 512 s.
12. Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz iyirmi üçüncü kitab. Bakı: Azərnəşr, 2022, 392 s.
13. Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrtafiyası. Deportasiya: azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1998. 440 s.
14. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Tərtib edən S.Əsədov. Bakı: Gənclik, 1995, 464 s.
15. Əh¬mədli Nazir. Göyçə mahalının kameral təsviri. Bakı: Elm və Təhsil, 2017. 292 s.
16. Əhmədova F. Cümhuriyyət parlamentinin sonuncu qanunu: Gerçəkləşməyən qanunda itiriləcək Azərbaycan torpaqlarına sahiblik təsbit olunmuşdu // Füyuzat jurnalı №5(49), Bakı, 2009, s. 16-17.
17. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 186 s.
18. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.M.Mahmudov. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Region-

ların İnkişafı İctimai Birliyi. Bakı: Azərbaycan, 2010. 616 s.
19. İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı: Qızıl Şərq, 112 s.
20. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar NPM, 2009, 344 s.
21. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
22. Quliyev V.M. Azərbaycanda erməni zülmü. Bakı: Ozan, 1999. 228 s.
23. Qurbanlı Ə.C. Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953-cü illər). Bakı: Ağrıdağ, 2004, 116 s.
24. Musalı N. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın hakimiyyəti dövründə. Bakı: 2008, 476 s.
25. Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr. Bakı: Nurlar, 2008, 320 s.
26. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, II cild. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 1400 s.
27. Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, 40 s.
28. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
29. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, 260 s.
30. Səmədova K.İ. Qərbi Azərbaycan – indiki Ermənistan etnotoponimlərinin arealları. Bakı: Nurlan, 2008. 155 s.
31. "Sovet Ermənistanı" qəzeti, 1964, 3 oktyabr, №117.
32. "Sovet Ermənistanı" qəzeti, 1965, 13 mart, №31.

33.“Sovet Ermənistanı” qəzeti, 1988, 12 iyul, №85.
34.“Sovet Ermənistanı” qəzeti, 1964, 10 noyabr, №133.
35.“Sovet Ermənistanı” qəzeti, 1988, 23 iyun, №76.
36.“Sovet Ermənistanı” qəzeti, 1988, 17 noyabr, №138.
37.Təkləli M. Türk kitabı: unudulan tarix – dəyişdirilən adlar. Bakı: Nurlar, 2009. 319 s.
38.Vandalizm: Tarixi adlara qarşı soyqırımı. Tərtib edən N.Mustafa. Bakı: Turxan, 2014. 128 s.
39.Vilayətoğlu S. Oğuz elinin müqəddəs ocağı: Göyçə. Bakı: [s.n.], 2006, 512 s.

**Rus dilində**

40.Акты, собранные Кавказскою Археографическою Комиссией. Архив главного управлений наместника Кавказа (АКАК). Том VII. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878. 1010 с.
41.Армянская ССР. Административно-территориальное деление. Ереван: АрмГИЗ, 1948. 80 с.
42. Армянская ССР. Административно-территориальное деление: На 1-ое августа 1988 года / Президиум Верховного Совета Армянской ССР. – 6-е изд. – Ереван: Айастан, 1988. –206 с.
43.Большая Советская Энциклопедия, том 11, 3-й выпуск. Москва: 1973, 607.
44.Большая Советская Энциклопедия, том 17, 3-й выпуск. Москва: 1974, 615.
45.Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. Москва: Тип. Лазаревых Института Восточных Языков, 1831. 145 с.

46.Известия Кавказского Отдела Императорского Русского Географического Общества. Том XIII. №1. Тифлис: Типография Козловского К.Р., 1900, 256 с.
47.Лястер А.Ф., Чурсин Г.Ф. География Кавказа. Природа и население. Тифлис: 1924. VIII, 352 с.
48.Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Том 1. Тифлис: 1885–1887, 812 с.
49.Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края. Издания Кавказского военно-топографического отдела. Тифлис, 1913, 530.
50.Пагирев Д.Д. Эриванский сборник. Вып. 1. Эриван. 1892. 108 с.
51.Памятная книжка Эриванской губернии на 1914 год. Издание Эриванского губернского статистического Комитета. Эриван, Типография Губернекого Правления, 1914, 394 с., IV отделение, с. 4-5.
52.Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Новобаязетского уезда Эриванской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т., I, ч. 2. Тифлис: тип. Я.И.Либермана, 1887 (с. 209-381). 823 с.
53.Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград: Издательство ЛГУ, 1949. 382 с.
54.Свод статистических данных о населении Закавказскага края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии. Тифлис: Тип.

И.Мартиросианца, 1893. 974 с.
55. Севанский К. Столетие Нор-Байазета // Заря Востока, 1926, 12 октября, №1299.
56. Территориальное и административное деление союза ССР на 1-е января 1926 г. Народный комиссариат внутренних дел. Статистический отдел. Издательство Главного Управлений Коммунального Хозяйства НКВД. Москва: 1926. 284 с.
57. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской Академии Наук, 1852, 1231 с.

**Hay (erməni) dilində**

58. Հայաստանի Հանրապետության բնակավայրերի բառարան. Երևան, 2008, 184 էջ 184 (Ermənistan Respublikasının yaşayış məntəqələrinin lüğəti. İrəvan, 2008, 184 s.), s.

**İnternet resursları**

59. http://erevangala500.com/
60. http://1905.az/
61. http://karabakhinfo.com/
62. http://www.virtualkarabakh.az/read.php?lang=3&menu=89&id=205
63. https://az.wikipedia.org/wiki/İrəvan_qalası
64. https://az.wikipedia.org/wiki/Göyçə_mahalı

## Miskin Abdalla bağlı sənədlər

Sənədlərin Göyçə mahalının tarixi üçün əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq surəti monoqrafiyaya əlavə edilir. Sənədlərin əsli və Miskin Abdala məxsus əşyalar Goranboy rayonunun Qaradağlı kəndində Miskin Abdal ocağında saxlanılır.



Ермәнистан ССР Варденис (Басаркечәр) рајонунун Сарыјагуб кәндиндә Мискин Абдалык евинин өн диварындакы јазылы даш (1986-чы илдә көтүрүлүб). Аббас Мазанов тәгдим етмишдир (октјабр, 1983).

Miskin Abdal ocağı Göyçənin Sarıyaqub kəndində



Miskin Abdal ocağı. Goranboy rayonu Qaradağlı kəndi



Şah İsmayıl Xətainin (1501-1524) Miskin Abdal haqqında verdiyi fərman (təəssüflər ki, fərman dövrümüzə bütünlüklə çatmamışdır)

**1**



Miskin Abdalın şəcərəsi. Şəcərə 1820, 1892, 1911-ci illərdə təsdiq olunmuşdur (tərcüməsi növbəti səhifədə)

# БИРИНЧИ ШӘҺАДӘТНАМӘНИН МӘТНИ

Бу кәлмәләри јазмагда мәгсәд одур ки Чахурлу тајфа башчыларындан бир нечә нәфәр шәһадәт вердиләр ки, бизләр бабаларымыздан ешитмишик ки, мәрһум Әһмәдин оглу Мәһәммәд ханын әсил вәзифәси очаг саһиби олмушдур вә Мискин Абдалын нәтичәсидирләр. Бундан сонра бу барәдә вә бу хүсусда шәк вә шүбһә јохдур. Бу барәдә јери чәннәт олмуш Шаһ Солтан Һүсејн Сәфәвинин јазылы фәрманы онун әлиндәдир вә Мәрһум шаһ улу очагыны зијарәт едибдир. Бизләр, јә'ни Мети вә Гарачорлу тајфа кәндхудалары вә Агсаггаллары бу барәдә Чахурлу тајфа солтанларынын дилиндән ешитмишик ки, онлар ән гәдим замандардан очаг олублар. Һамы да е'тигад едиб, инаныб, шух үрәклә онун әмрләринә табе олублар. Чахурлу кәндхудаларынын адлары ашагыда гејд едилмишдир.

Мети вә Гарачорлу тајфа кәндхудалары вә Агсаггаллары одан бизләр бу чүр шаһидлик вермишик ки, адларымыз ашагыда гејд олунубдур. Бу бир нечә кәлмә, шәһадәтнамә кими јазыја алынды 25 рамазан 1235 (07.06. 1820)

Һәмин сәһифәдә Мискин Абдал нәсли белә гејд едилмишдир. Сејид Мәһәммәдхан ибн Сејид Әһмәд, Сејид Гәдәм, Сејид Әһмәд, Сејид Шаһбәнд, Сејид Шаһәли, Сејид Чәфәр, Сејидага, Сејид Мөһсүн, Сејид Јусиф, Сејид Мирзә, Әли Сејид Һүсејн оглу, Сејид Гасым, Сејид Мәһәммәд бәнд бин Сејид Гасымын мөһүрү.

Һәмин сәһифәдә шаһид кими ашагыда адлары гејд олунанлар мөһүрләрини вурмушлар. Хан Мустафа Ага Чахурлу, Һүсејн Ага Чахурлу, Чахурлу агсаггалы Ибраһим, Чахүрлү кәндхудасы Илјас, Чахурлу кәндхудасы Новруз, Мети вә Гарачорлу тајфасы башчысы Хан Пирмурад солтан, Һачы Солтан Мәти, Мирзә Мустафа Гарачорлу, Мирзә Муса, Чавад Ага Мәти, кәндхуда Гәмбәр Әли.

27 чәмадүллахи 1308 (29.01.1892)

Мөһүр

Абдал очагы

Ахунд Гурбан дәфтәри тәсдиг едиб 1892 јанварын 29-да мөһүр вуруб, јазыр ки, Мискин Абдал сүлаләсини өвлад бә өвлад тәсдиг едирәм вә инди очаг саһиби Мәшәди Мә'сум Мәшәди Меһли оглудур. Мөһүрүнү вуруб.

Һәмин Мискин Абдал нәслиндән оланларын шәчәрәси мөһүрләрлә тәсдиг едилиб. Тәсдиг едәнләр:

Мирзә Мустафа Гарачорлу, Пирмурад Солтан, (Гарачорлу тајфасынын башчысы), Һачы Солтан, Чәфәр Ага, Гәнбәр Әли кәндхуда, бундан әлавә һәмин шәһадәтнамәни Бәјазид ујезд (гәза) газиси Ахунд Зүлфүгар 1329-чу ил рәбиүләввал ајынын 2-дә (04.03.1911) тәсдиг едиб Мөһүр вурубдур.

Бундан әлавә Солтан Һүсејн Сәфәвинин, мәрһум камил шејх, әһали арасында Мискин Абдал кими танынмыш шәчәрәси вә вәрәсәсинә тахыл тарласы вермәси барәдә верилији фәрман вә һазырда һәмин очаг саһиби Мәшәди Мә'сум Мәшәди Меһди оглу олдугу тәсдиг едилир. Тәсдиг едән: Ирәван губернијасы газиси сүнни мәзһәбли Сејид Һачы Фәзлуллаһ Әфәнди бин Сејид Һачы Ибраһим әфәнди

## BİRİNCİ ŞƏHADƏTNAMƏNİN MƏTNİ

Bu kəlmələri yazmaqda məqsəd odur ki, Çaxurlu tayfa başçılarından bir neçə nəfər şəhadət verdilər ki, bizlər babalarımızdan eşitmişik ki, mərhum Əhmədin oğlu Məhəmməd xanın əsl vəzifəsi ocaq sahibi olmuşdur və Miskin Abdalın nəticəsidirlər. Bundan sonra bu barədə və bu xüsusda şək və şübhə yoxdur. Bu barədə yeri cənnət olmuş Şah Soltan Hüseyn Səfəvinin yazılı fərmanı onun əlindədir və Mərhum şah ulu ocağını ziyarət edibdir. Bizlər, yəni Meti və Qaraçorlu tayfa kəndxudaları və Ağsaqqalları bu barədə Çaxurlu tayfa soltanlarının dilindən eşitmişik ki, onlar ən qədim zamanlardan ocaq olublar. Hamı da etiqad edib, inanıb, şux ürəklə onun əmrlərinə tabe olublar. Çaxurlu kəndxudalarının adları aşağıda qeyd edilmişdir.

Meti və Qaraçorlu tayfa kəndxudaları və Ağsaqqalları olan bizlər bu cür şahidlik vermişik ki, adlarımız aşağıda qeyd olunubdur. Bu bir neçə kəlmə, şəhadətnamə kimi yazıya alındı 25 ramazan 1235 (07.06. 1820).

Həmin səhifədə Miskin Abdal nəsli belə qeyd edilmişdir. Seyid Məhəmmədxan ibn Seyid Əhməd, Seyid Qədəm. Seyid Əhməd, Seyid Şahbənd, Seyid Şahəli, Seyid Cəfər, Seyidağa, Seyid Möhsün, Seyid Yusif, Seyid Mirzə, Əli Seyid Hüseyn oğlu, Seyid Qasım, Seyid Məhəmməd bənd bin Seyid Qasımın möhürü.

Həmin səhifədə şahid kimi aşağıda adları qeyd olunanlar möhürlərini vurmuşlar. Xan Mustafa Ağa Çaxurlu, Hüseyn Ağa Çaxurlu Çaxurlu ağsaqqalı İbrahim, Çaxurlu kəndxudası İlyas, Çaxurlu kəndxudası Novruz, Meti və Qaraçorlu tayfası başçısı Xan Pirmurad Soltan, Hacı Soltan Məti, Mirzə Mustafa Qaraçorlu, Mirzə Musa, Cavad Ağa Məti, kəndxuda Qəmbər Əli.

27 cəmadüillahi 1308 (29.01.1892)

Möhür

Abdal ocağı

Axund Qurban dəftəri təsdiq edib 1892 yanvarın 29-da möhür vurub, yazır ki, Miskin Abdal sülaləsini övlad bə övlad təsdiq edirəm və indi ocaq sahibi Məşədi Məsum Məşədi Mehdi oğludur. Möhürünü vurub.

Həmin Miskin Abdal nəslindən olanların şəcərəsi möhürlərlə təsdiq edilib. Təsdiq edənlər:

Mirzə Mustafa Qaraçorlu, Pirmurad Soltan (Qaraçorlu tayfasının başçısı), Hacı Soltan, Cəfər Ağa, Qənbər Əli kəndxuda, bundan əlavə həmin şəhadətnaməni Bəyazid uyezd (qəza) qazisi Axund Zülfüqar 1329-cu il rəbiül-əvvəl ayının 2-də (04.03.1911) təsdiq edib möhür vurubdur.

Bundan əlavə Soltan Hüseyn Səfəvinin, mərhum kamil şeyx, əhali arasında Miskin Abdal kimi tanınmış şəcərəsi və vərəsəsinə taxıl tarlası verməsi barədə verdiyi fərman və hazırda həmin ocaq sahibi olmalıdır.

Məşədi Məsum Məşədi Mehdi oğlu olduğu təsdiq edilir. Təsdiq edən:

İrəvan quberniyası qazisi sünni məzhəbli Seyid Hacı Fəzlullah Əfəndi bin Seyid Hacı İbrahim əfəndi

İmza İmza

Möhür

17.06.2000

**2**



Şah Soltan Hüseyn Səfəvinin (1694-1722) Miskin Abdal ocağı haqqında verdiyi fərman (tərcüməsi növbəti səhifədə)

## ИКИНЧИ ШӘҺАДӘТНАМӘНИН МӘТНИ

Сәһифәдә Шаһ Солтан Һүсејнин Мөһүрү илә тәсдигләнмиш фәрманын сурәти. Шаһын Мискин Абдал очагына кәлиб, зијарәт етмәси, фатиһә охунмасы гејд едилир. Шејрдә дејилир.

Ким сидг үрәк илә бу очага кәлсә. Үрәјинин дәринлијиндә (арзуларына) сөзсүз чатыб, дуасы мәгбул сајылар, һәмин һөкмүн сурәтини Ирәван сакини, Мө'мин адамлардан бир дәстәси шәһадәт верирләр ки, Мәшәди Меһди, Ага Әлинин өвладларындандыр ки бу вәрәгәдә гејдә алыныбдыр.

Тәсдиг етди:БДУ.
Тарих факултәсинин деканы
Тарих елмләри доктору,
Профессор Ј. Маһмудов

Тәрчүмә етди:
Бакы Дөвләт Университети,
Тарих елмләри доктору,
Профессор Сејидага Онуллаһи






## İKİNCİ ŞƏHADƏTNAMƏNİN MƏTNİ

Səhifədə Şah Soltan Hüseynin Möhürü ilə təsdiqlənmiş fərmanın surəti. Şahın Miskin Abdal ocağına gəlib, ziyarət etməsi, fatihə oxunması qeyd edilir. Şeirdə deyilir.

Kim sidq ürək ilə bu ocağa gəlsə, ürəyinin dərinliyində (arzularına) sözsüz çatıb, duası məqbul sayılar, həmin hökmün surətini İrəvan sakini, Mömin adamlardan bir dəstəsi şəhadət verirlər ki, Məşədi Mehdi Ağa Əlinin övladlarındandır ki, bu vərəqədə qeydə alınıbdır.

Təsdiq etdi:
BDU
Tarix fakültəsinin dekanı
Tarix elmləri doktoru,
professor Y.Mahmudov
*İmza*

Tərcümə etdi:
Bakı Dövlət Universiteti,
Tarix elmləri doktoru,
professor Seyidağa Onullahi
*İmza*

Möhür

*17.06.2000*

# MÜNDƏRİCAT

**Giriş** ....................................................................... 3
**Göyçə mahalının tarixi coğrafiyası və inzibati-ərazi bölgüsü** ................................................................. 5
**Göyçə nahiyəsi** ......................................................... 14
**Göyçə nahiyəsinə aid olan kəndlər** ................................ 16
**Məzrəə nahiyəsi** ........................................................ 17
**Məzrəə nahiyəsinə aid olan kəndlər** .............................. 19
**Göyçə mahalı əhalisinin etnik və say tərkibi** .................. 35
**Yeni Bəyazid qəzası üzrə Qəzanın cənub-qərb hissəsi üzrə (1873-cü ilin məlumatına görə)** ............................... 42
**Yeni Bəyazid qəzası (1886-cı il)** ...................................... 51
**Basarkeçər rayonu** ..................................................... 66
**Krasnoselsk rayonu** .................................................... 68
**Kənd sovetləri və onların mərkəzləri** .............................. 69
**Kənd soveti mər¬kəzlərinin adları** .................................. 69
**1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə koçürülməsi ilə bağlı plan** .......... 83
**Vardenis (Basarkeçər) rayonu** ...................................... 112
**Kənd soveti mər¬kəzlərinin adları** ................................ 114
**Göyçə mahalında (Yeni Bəyazid qəzası) dağıdılmış və xarabalığa çevrilmiş kəndlər** ........................................ 144
**Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarına əsasən Ermənistan ərazisində (Göyçə mahalında) adları dəyişdirilmiş azərbaycanlılara məxsus yer adları** ........................................................... 173

**Ümummilli lider Heydər Əliyev və Müzəffər Ali Baş Komandan Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışlarından** ........ 177
**Nəticə** ........ 179
**İstifadə edilmiş ədəbiyyat siyahısı** ........ 181
**Miskin Abdalla bağlı sənədlər** ........ 187

Kompüter yığımı: Nigar Məmmədli
Kompüter dizaynı: Süleyman İbrahim

Yığılmağa verilmişdir: – 5 mart 2024
Çapa imzalanmışdır: – 12 iyun 2024
Sifariş: №
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 11,5 ç.v. Tirajı: 500
Qarnitur «Times New Roman»

***Bəxtiyar Şahvələd oğlu Əhmədov***

***Göyçə mahalı***
***Keçmişdən bu günə ...***